Association for Civil Society Development in Azerbaijan
Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyası

# İlham Əliyev:
# “Əziz Şuşa, biz qayıtmışıq!”



*Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyası*

# İlham Əliyev:
# “Əziz Şuşa, biz qayıtmışıq!”

BAKI - 2021

*Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyası (AVCİYA)*
*"1905.az KİTABI" seriyası*

**Seriyanın ideya müəllifi və naşiri**
Elxan Süleymanov, AVCİYA-nın prezidenti

**Seriyanın tərtibçisi və elmi redaktoru**
Fuad Babayev, siyasi elmlər üzrə fəlsəfə doktoru, Əməkdar jurnalist

**Kitabın "Şuşa (müxtəsər tarix)" bölümünün müəllifi**
Məhərrəm Zülfüqarlı, AVCİYA-nın vitse-prezidenti, tarix üzrə elmlər doktoru, Azərbaycan Turizm və Menecment Universitetinin professoru

**Rəyçilər**
Ramiz Sevdimalıyev, siyasi elmlər doktoru, Bakı Dövlət Universitetinin professoru
Asif Hacılı, filologiya elmləri doktoru, professor
Camal Mustafayev, tarix üzrə elmlər doktoru, professor
Dəyanət Musayev, AVCİYA-nın vitse-prezidenti, pedaqogika üzrə fəlsəfə doktoru, Azərbaycan Dövlət Pedaqoji Universitetinin baş müəllimi
İsmayıl İsmayılov, Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü

*Fotoblok və Rəsmi xronika bölümləri "AZƏRTAC"ın materialları əsasında tərtib edilib.*
*Cildin dizaynında rəssam Fuad Tahir Manafovun "Şuşaya Bahar gəlir" əsərindən istifadə edilib.*
*"Şuşa (müxtəsər tarix)" bölümündə "Şuşaya pəncərə/Окно в Шушу" Facebook səhifəsindəki fotosənədlərdən istifadə edilib.*

*ISBN 978 9952 8305 3 8*

*© AVCİYA 2021*

*Şuşasız Qarabağ, Qarabağsız isə,*
*ümumiyyətlə, Azərbaycan yoxdur!*
*Heydər Əliyev*

## Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Şuşa şəhəri tarixən Azərbaycanın tarixi-mədəni, ictimai-siyasi həyatının mühüm mərkəzlərindən biri olmuşdur. 1977-ci ildə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin təşəbbüsü ilə "Şuşa şəhərinin tarixi hissəsini tarix-memarlıq qoruğu elan etmək haqqında" qərar qəbul edilmişdir. Həmin qərar nəticəsində Şuşada abidələrin qorunması, görkəmli mədəniyyət və incəsənət xadimlərinin xatirələrinin əbədiləşdirilməsi istiqamətində əhəmiyyətli addımlar atılmışdır.

Azərbaycana qarşı başladığı hərbi təcavüz nəticəsində Ermənistan Respublikası 1992-ci il mayın 8-də Şuşa şəhərini işğal etmiş və şəhərdə xalqımızın tarixi-mədəni irsinin məhv edilməsi siyasətini həyata keçirmişdir.

Ordumuzun qətiyyətli mübarizəsi ilə tarixi ədalət bərpa edilmiş və 2020-ci il noyabrın 8-də Şuşa şəhəri işğaldan azad olunmuşdur. Şəhərə, onun tarixi-mədəni irsinə və təbiətinə vurulmuş zərərin təxirəsalınmadan inventarizasiyası aparılmış, bərpa işlərinə başlanılmışdır. Bərpa-quruculuq işlərinin təşkilində çevikliyi və səmərəliliyi təmin etmək üçün Şuşada dövlət idarəetməsinə də böyük diqqət yetirilmişdir. Azərbaycan Respublikası Prezidentinin işğaldan azad olunmuş ərazilərdə ilk xüsusi nümayəndəsi məhz Şuşa rayonuna təyin edilmişdir.

Tarixi-mədəni əhəmiyyəti və Azərbaycan xalqı üçün müstəsna mənəvi dəyərə malik olması Şuşaya xüsusi qayğı və həssaslıqla yanaşılmasını zəruri edir. Bu baxımdan, Şuşada dövlət idarəetməsinin və hüquqi tənzimləmənin daha da təkmilləşdirilməsi şəhərdə tarixi-mədəni irsin bərpasına və qorunub saxlanmasına xidmət etməklə yanaşı, onun daim inkişafına şərait yaradacaqdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Şuşa şəhərinin tarixi görkəminin bərpası, əvvəlki şöhrətinin özünə qaytarılması və ənənəvi dolğun mədəni həyatına qovuşması, eləcə də Azərbaycanın çoxəsrlik zəngin mədəniyyətinin, memarlıq və şəhərsalma

sənətinin parlaq incisi kimi beynəlxalq aləmdə təbliği məqsədilə qərara alıram:

1. Şuşa şəhəri Azərbaycanın mədəniyyət paytaxtı elan edilsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 7 may 2021-ci il**

## Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi

Azərbaycan Respublikası və Türkiyə Respublikası,

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycanın və bütövlükdə Türk dünyasının qədim mədəniyyət beşiyi olan Şuşa şəhərində görüşünün tarixi əhəmiyyətini vurğulayaraq,

İki dost və qardaş ölkə arasında imzalanmış bütün beynəlxalq sənədlərə, bununla əlaqədar 13 oktyabr 1921-ci il tarixli Qars müqaviləsinə sadiq olduqlarını bir daha təsdiq edərək,

9 fevral 1994-cü il tarixində imzalanmış "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında dostluq və hərtərəfli əməkdaşlığın inkişafı barədə Müqavilə"ni və "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında əməkdaşlıq və qarşılıqlı yardım haqqında Protokol"u, eləcə də 16 avqust 2010-cu il tarixində imzalanmış "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında Müqavilə"ni rəhbər tutaraq,

İki ölkə və onun xalqları arasındakı dostluq və qardaşlıqdan çıxış edərək Azərbaycan Respublikası və Türkiyə Respublikası arasındakı münasibətlərin keyfiyyətcə yeni, müttəfiqlik səviyyəsinə qaldırılmasının iki ölkə və onların xalqlarının maraq və mənafelərinə xidmət etdiyini vurğulayaraq,

Ümumi maraqların qorunmasında hər iki ölkənin siyasi, iqtisadi, müdafiə, mədəni, humanitar, səhiyyə, təhsil, sosial, gənclər və idman sahələrindəki imkan və potensiallarının birləşdirilməsinin mühüm əhəmiyyətini dərk edərək,

Beynəlxalq hüququn prinsip və normalarına, o cümlədən də Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinə uyğun olaraq qlobal və regional sülh, sabitlik və təhlükəsizliyin təmin edilməsində birgə səylərin davam etdirilməsinin

vacibliyini vurğulayaraq,

Müştərək maraq kəsb edən regional və beynəlxalq strateji məsələlərdə fəaliyyətlərin qarşılıqlı şəkildə əlaqələndirilməsinin zəruriliyini ifadə edərək,

Azərbaycan Respublikası və Türkiyə Respublikasının müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı kimi milli maraqlara söykənən məsələlərdə ikitərəfli və çoxtərəfli formatlarda həmrəylik və qarşılıqlı yardım prinsiplərindən çıxış edərək,

Türk dünyasının davamlı inkişafına yönəlmiş qarşılıqlı fəaliyyətlərin regional və beynəlxalq müstəvilərdə irəli aparılmasında səyləri birləşdirərək,

Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün və Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin müdrikcəsinə söylədikləri “Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir” və “Bir millət, iki dövlət” ifadələrinin xalqlarımızın milli-mənəvi sərvəti kimi dəyərləndirildiyini xüsusi vurğulayaraq,

Azərbaycan Respublikası və Türkiyə Respublikası arasındakı ikitərəfli münasibətlərin daha da genişləndirilməsi və dərinləşdirilməsi perspektivlərini hərtərəfli nəzərdən keçirərək,

bəyan edirlər:

Tərəflər iki dost və qardaş ölkə arasında strateji səviyyədə inkişaf edən münasibətlərin durumundan məmnunluq ifadə edərək siyasi dialoqun bütün səviyyələrdə davam etdirilməsinin və qarşılıqlı yüksək səviyyəli səfərlərin əhəmiyyətini qeyd edirlər.

Tərəflər fəxarət hissi ilə bildirirlər ki, Azərbaycan 44 günlük Vətən müharibəsi ərzində qələbə qazanaraq Ermənistanın 30 ildən bəri davam edən təcavüzkar siyasətinə son qoydu, torpaqlarını işğaldan azad etdi, tarixi ədalətin zəfər çalmasını və beynəlxalq hüququn bərpa olunmasını təmin etdi.

Azərbaycan Ermənistanın 30 illik təcavüzünə son qoyulmasında, işğal olunmuş torpaqların azad olunmasında, Azərbaycanın ərazi bütövlüyünün bər-

pa edilməsində Türkiyə Respublikasının mənəvi-siyasi dəstəyini yüksək qiymətləndirir. Tərəflər Qafqaz regionunda sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsi, bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpası, eləcə də region dövlətləri arasında münasibətlərin normallaşdırılması və uzunmüddətli sülhün təmin edilməsi istiqamətində səylərini davam etdirəcəklər. Bu kontekstdə Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasının xüsusi coğrafi vəziyyəti nəzərə alınacaqdır.

Tərəflər Türkiyənin Azərbaycanın işğaldan azad edilmiş ərazilərində Türkiyə-Rusiya Birgə Mərkəzinin fəaliyyətinə verdiyi töhfənin regiondakı sülhün, sabitliyin və rifahın təmin edilməsində mühüm rol oynadığını vurğulayırlar.

Azərbaycan Respublikası və Türkiyə Respublikası müstəqillik, suverenlik, ərazi bütövlüyü, beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı, dövlətlərin daxili işlərinə qarışmamaq prinsiplərini rəhbər tutaraq müttəfiqlik münasibətlərinin qurulmasının siyasi və hüquqi mexanizmlərini müəyyən edirlər.

Tərəflər xarici siyasət sahəsində əlaqələndirmənin və müntəzəm ikitərəfli siyasi məsləhətləşmələrin həyata keçirilməsinin vacibliyini qeyd edirlər və bu istiqamətdə Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurası çərçivəsində fəaliyyətlərin əhəmiyyətini vurğulayırlar.

Tərəflər öz milli maraq və mənafelərini müdafiə və təmin etməyə yönəlmiş müstəqil xarici siyasət həyata keçirirlər. Tərəflər regional və beynəlxalq miqyasda sabitlik və rifah vasitəsilə sülh, dostluq və mehriban qonşuluğa əsaslanan beynəlxalq münasibətlərin inkişaf etdirilməsi, eləcə də münaqişələrin və regional və qlobal təhlükəsizlik və sabitlik məsələlərinin həlli istiqamətində birgə səylər göstərirlər.

Tərəflər aktual xarakter kəsb edən, qarşılıqlı maraq doğuran beynəlxalq məsələlər üzrə həmrəylik və qarşılıqlı dəstək nümayiş etdirərək yaxın və ya üst-üstə düşən mövqedən çıxış etməklə ikitərəfli əməkdaşlığı dərinləşdirəcəklər və Birləşmiş Millətlər Təşkilatı, ATƏT, Avropa Şurası, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası, İslam Əməkdaşlıq Təşkilatı daxil olmaqla beynəlxalq və regional

təşkilatlar çərçivəsində bir-birinə qarşılıqlı dəstək göstərəcəklər.

Tərəflərdən hər hansı birinin fikrincə, onun müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına və ya təhlükəsizliyinə qarşı üçüncü dövlət və ya dövlətlər tərəfindən təhdid və ya təcavüz edildiyi təqdirdə, Tərəflər birgə məsləhətləşmələr aparacaq və bu təhdid və ya təcavüzün aradan qaldırılması məqsədilə BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə müvafiq təşəbbüs həyata keçirəcək, bir-birinə BMT Nizamnaməsinə uyğun zəruri yardım göstərəcəklər. Bu yardımın həcmi və forması təxirə salınmadan keçirilən müzakirələr yolu ilə müəyyən edilərək birgə tədbirlər görülməsi üçün müdafiə ehtiyaclarının ödənilməsinə qərar veriləcək və Silahlı Qüvvələrin güc və idarəetmə strukturlarının əlaqələndirilmiş fəaliyyəti təşkil olunacaqdır.

Tərəflərin Təhlükəsizlik Şuralarının milli təhlükəsizlik məsələləri üzrə müntəzəm olaraq birgə iclasları keçiriləcəkdir və bu iclaslarda milli mənafe, Tərəflərin maraqlarına toxunan regional və beynəlxalq təhlükəsizlik məsələlərinin müzakirəsi həyata keçiriləcəkdir.

Tərəflər iki qardaş ölkənin silahlı qüvvələrinin müasir tələblərə uyğun olaraq yenidən formalaşdırılması və modernləşdirilməsi istiqamətində birgə səy göstərməyə davam edəcəklər.

Tərəflər minalanmış ərazilərin təmizlənməsi əsas götürülməklə Ermənistan işğalından azad edilmiş rayonlarda həyatın normallaşdırılması istiqamətində fəaliyyətləri dəstəkləyəcəklər.

Tərəflər müdafiə qabiliyyətlərinin və hərbi təhlükəsizliyin möhkəmləndirilməsinə yönələn şəxsi heyət mübadiləsini, birgə təhsil və təlimlərin keçirilməsini, iki ölkənin silahlı qüvvələrinin birlikdə fəaliyyət qabiliyyətinin artırılmasını, müasir texnologiyalara əsaslanan silah və sursatların idarə olunmasında sıx əməkdaşlığı və bu məqsədlə səlahiyyətli struktur və qurumların əlaqəli fəaliyyətinin təmin edilməsini təşviq edəcəklər. Azərbaycan və Türkiyə digər dost dövlətlərin orduları ilə birlikdə hərbi təlimlərin keçirilməsini dəstəkləyəcəklər.

Tərəflər milli və beynəlxalq öhdəliklərini nəzərə almaqla dəniz, hava və

kosmos sahələrində qarşılıqlı texnologiya mübadiləsini həyata keçirərək müştərək qabiliyyətlərin inkişaf etdirilməsi məqsədilə birgə layihələrin yerinə yetirilməsini təşviq edəcək və qarşılıqlı müdafiə sənayesi texnologiyalarının inkişaf etdirilməsinə müsbət töhfə verəcəklər, sahib olduqları silah və sursatla təchiz edəcək, onların istehsal texnologiyalarını qarşılıqlı şəkildə təşviq edəcək və hazırda onların ölkələrində mövcud olmayan istehsal sahələrinin yaradılmasını, birgə tədqiqat və istehsalat işlərinin həyata keçirilməsini, iki ölkənin müdafiə sənayesi qurumlarının texnologiyalar, hərbi təyinatlı məhsullar və xidmətlər sahəsində daxili və beynəlxalq bazarlarda əməkdaşlıq etməsini dəstəkləyəcəklər.

Tərəflər bildirirlər ki, iki dövlət arasında inkişaf etdirilən və onların milli maraqlarına cavab verən hərbi-siyasi əməkdaşlıq üçüncü dövlətlərə qarşı yönəlməmişdir.

Tərəflər kiber təhlükəsizlik sahəsində əməkdaşlığın daha da inkişaf etdirilməsinin vacibliyini vurğulayırlar və bu sahədə birgə elmi tədqiqat işləri, mütəxəssis hazırlığı həyata keçirəcək, qarşılıqlı texniki əməkdaşlığı təşviq edəcəklər.

Tərəflər ticarət-iqtisadi münasibətlərdə milli iqtisadiyyatlarının və ixracın şaxələndirilməsi, eləcə də perspektiv sahələrdə birgə istehsalın qurulması, investisiya əməkdaşlığının qarşılıqlı faydalı inkişafı üçün daha əlverişli şəraitin inkişaf etdirilməsi istiqamətində səylərini artıracaqlar. Bu xüsusda Azərbaycan və Türkiyə malların sərbəst hərəkətinin təşkili mexanizmlərinin yaradılması istiqamətində tədbirlər görəcəklər.

Tərəflər regionun və Avropanın enerji təhlükəsizliyinə töhfə verən, təbii qaz mənbə və marşrut saxələndirilməsini təmin edən strateji Cənub Qaz Dəhlizinin həyata keçirilməsində Türkiyə və Azərbaycanın qabaqcıl rolunu vurğulayırlar. Tərəflər Cənub Qaz Dəhlizinin səmərəli şəkildə istifadə olunmasına və daha da inkişaf etdirilməsinə yönəlmiş səyləri əlaqələndirilmiş şəkildə davam etdirəcəklər. Tərəflər, həmçinin qlobal enerji sektorundakı prosesləri nəzərə alaraq regionun enerji təchizatı təhlükəsizliyinin gücləndirilməsi üçün elektrik sahəsində də regional əməkdaşlığa töhfə verəcək səylərin artırılaraq davam etdirilməsi üzrə niyyətlərini ifadə edirlər.

Tərəflər iki ölkənin ərazisindən keçən Şərq-Qərb/Orta beynəlxalq nəqliyyat dəhlizinin rəqabət qabiliyyətinin artırılması məqsədilə qarşılıqlı əməkdaşlığı möhkəmləndirəcəklər. Azərbaycan və Türkiyə intellektual nəqliyyat sistemləri texnologiyalarından istifadə etməklə beynəlxalq nəqliyyat dəhlizlərinin Azərbaycan-Türkiyə hissələrində tranzit-nəqliyyat potensialını daha da inkişaf etdirəcəklər.

Tərəflər Azərbaycan və Türkiyəni birləşdirən Azərbaycan Respublikasının qərb rayonları ilə Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası arasında dəhlizin (Zəngəzur dəhlizi) açılmasının və həmin dəhlizin davamı kimi Naxçıvan-Qars dəmir yolunun tikintisinin iki ölkə arasında nəqliyyat-kommunikasiya əlaqələrinin intensivləşməsinə mühüm töhfə verəcəyini qeyd edirlər.

Tərəflər Türkiyə ilə Azərbaycan arasında əlaqələrin mövcud səviyyəsinin ümumi regional və beynəlxalq sülh və rifaha töhfə verdiyini, əlaqələrin sadəcə iki ölkəyə deyil, eyni zamanda, regiona sülh və rifah gətirərək başda region ölkələri olmaqla beynəlxalq birliyin sabitlik, sülh və maraqlarına xidmət edəcəyini vurğulayırlar.

Tərəflər regional və beynəlxalq sabitliyə və təhlükəsizliyə mənfi təsir edən müxtəlif təhdid və çağırışlara, xüsusilə terrorçuluğa, onun bütün forma və təzahürlərinə, maliyyələşdirilməsinə, həmçinin kütləvi qırğın silahlarının yayılmasına, mütəşəkkil cinayətkarlığa, çirkli pulların yuyulmasına, narkotiklərin qanunsuz dövriyyəsinə, insan alverinə, qanunsuz miqrasiyaya qarşı mübarizə sahəsində birgə səylərini və əməkdaşlıqlarını genişləndirəcək və dərinləşdirəcəklər.

Azərbaycan Respublikası Türkiyə Respublikasının suverenliyinə, ərazi bütövlüyünə, sərhədlərinin toxunulmazlığına, sabitliyinə və təhlükəsizliyinə qarşı yönəlmiş bütün fəaliyyətləri, o cümlədən terrorçuluğun bütün forma və təzahürlərini pisləyir və Türkiyə Respublikasının terrorçuluğa qarşı apardığı mübarizəni qətiyyətlə dəstəkləyir.

Tərəflər müxtəlif ölkələrdə yaşayan Azərbaycan və türk diasporları arasında əməkdaşlığın daha sıx inkişaf etdirilməsi, onların məruz qaldıqları ümumi problemlər qarşısında birlikdə addımlar atılması və ardıcıl həmrəylik göstəril-

məsi məqsədilə səylərini birləşdirəcəklər.

Tərəflər ölkələrinin təqdim edilməsi və milli mənafelərinin qorunmasına dair tarixi həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında diasporal fəaliyyətin əlaqələndirilməsini və qarşılıqlı dəstəyi təşviq edəcəklər.

Tərəflər Ermənistanın Türkiyəyə qarşı əsassız iddialarının, tarixin təhrif olunması və tarixi faktların təhrif olunmaqla siyasiləşdirilməsi cəhdlərinin regionda sülhə və sabitliyə ziyan vurduğunu vurğulayaraq bu kontekstdə 1915-ci il hadisələri ilə bağlı olaraq öz arxivlərini açan Türkiyənin Ermənistandakı və digər ölkələrdəki arxivlərin açılması və bu mövzuda tarixçilər tərəfindən araşdırmaların aparılmasına yönəlmiş səylərini qətiyyətlə dəstəkləyirlər.

Tərəflər 10 dekabr 2020-ci il tarixində imzalanmış "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında media sahəsində strateji əməkdaşlıq haqqında Anlaşma Memorandumu"na uyğun olaraq Azərbaycan-Türkiyə Media Platformasının imkanları nəzərə alınmaqla, iki ölkənin aidiyyəti qurumları arasında informasiya, kommunikasiya və ictimai diplomatiya sahələrində əməkdaşlığı daha da gücləndirəcəklər və bu çərçivədə xarici işlər nazirlikləri arasında davamlı olaraq informasiya üzrə sıx məsləhətləşmələr və mübadilələr həyata keçiriləcəkdir.

Tərəflər parlamentlərarası əməkdaşlığın daha da gücləndirilməsini və bu istiqamətdə qarşılıqlı fəaliyyətin artırılmasını təşviq edirlər.

Tərəflər hər iki xalqın müştərək dəyərlərinin ümdə təzahürlərinə lazımi ictimai dəstəyin göstərilməsini təmin edəcək, tarixi və mədəni irslərinin qorunması üçün birgə fəaliyyət həyata keçirəcəklər.

Tərəflər Türk dünyasının birlik və rifahına xidmət edəcək milli və beynəlxalq səylərin artırılmasına diqqət çəkdilər.

Tərəflər Türk mədəni irsinin beynəlxalq səviyyədə təbliğ və təşviq edilməsi sahəsində birgə əməkdaşlığı gücləndirəcəklər.

Tərəflər Türk həmrəyliyinin daha da möhkəmləndirilməsi məqsədilə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası, Türk Akademiyası, Türk Mədəniyyəti və İrsi Fondu, TÜRKSOY və Türkdilli Ölkələrin Parlament Assambleyası çərçivəsində həyata keçirilən fəaliyyətlərə təkan verəcəklər.

Tərəflər bir Tərəfin vətəndaşlarının digər Tərəfin ərazisinə şəxsiyyət vəsiqəsi ilə səyahət etmələri haqqında əldə edilən razılaşmadan məmnunluq ifadə edirlər və həmin razılaşmanın xalqlarımız arasında yaxınlıq və insanlar arasında əlaqələr baxımından müstəsna əhəmiyyətini qeyd edərək, bir Tərəfin vətəndaşlarının digər Tərəfin ərazisində yaşamaq hüququ əldə etmələrini qarşılılıq prinsipinə uyğun olaraq asanlaşdırmaq üçün müvafiq tədbirlər görülməsini təqdir edirlər.

Tərəflər lazımi dövlət dəstəyini təmin edərək xalqları arasında müştərək dəyərlərə söykənən sıx əlaqələri humanitar, sosial müdafiə, elm, təhsil, səhiyyə, mədəniyyət, gənclər və idman sahələrində daha da inkişaf etdirəcək və dərinləşdirəcəklər. Bu məqsədlə iki ölkənin aidiyyəti qurumları tərəfindən birgə davamlı fəaliyyətlər həyata keçiriləcəkdir.

Bu Bəyannamə Şuşa şəhərində 15 iyun 2021-ci il tarixində, Azərbaycan və türk dillərində olmaqla iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər bərabər autentikdir.

**Azərbaycan Respublikasının**
**Prezidenti**
**İlham Əliyev**

**Türkiyə Respublikasının**
**Prezidenti**
**Rəcəb Tayyib Ərdoğan**

**Dəyərli Oxucu!**

Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyasının yeni nəşrini Sizə təqdim edirəm.

Çox xoşbəxtəm ki, bizə Qarabağlı, Şuşalı Azərbaycanda yaşamaq qismət olub. Çox sevinirəm ki, bu kitabın nüsxələri Şuşadakı kitabxanaların rəflərini də bəzəyəcək...

Ötən ilin noyabrında Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev ölkəmizin dilbər güşəsi olan Şuşa şəhərinin düşmən işğalından azad edildiyini və yenidən öz VƏTƏNİNƏ qovuşduğunu bəyan etdi!

Həmin gün yenidən Azərbaycan xalqının üzü gülməyə başladı, Azərbaycan xalqı yenidən özünü qürurlu gördü, Azərbaycan xalqı yenidən özünü güclü hiss etdi.

Bugün biz daha da güclüyük!

"İlham Əliyev: Əziz Şuşa, biz qayıtmışıq!" kitabı çox mühüm tarixi sənədin, "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi"nin imzalanmasından sonra nəşrə hazırlanır.

Qardaş Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoganın Azərbaycana rəsmi səfəri yenicə başa çatıb. Və biz hələ çox uzun müddət iki qardaş ölkənin, Azərbaycan və Türkiyənin dövlət başçılarının açıqlamalarını təhlil edəcəyik. Şuşanın sonuncu xanı Mehdiqulu xanın qızı Xurşidbanu Natəvanın erməni işğalçıları tərəfindən vəhşicəsinə dağıdılmış evinin qarşısında imzalanmış Bəyannamənin mətnini bütün dünya araşdıracaq, öyrənəcək.

Bu sənədin məhz Şuşada imzalanması son dərəcə mühüm əhəmiyyət kəsb edir.

Azərbaycan xalqının tarixi-mədəni irsində Şuşanın xüsusi yeri var. Təməli hələ 1752-ci ildə qoyulmuş Şuşa şəhəri artıq XVIII əsrin ikinci yarısında Azərbaycanın ən məşhur şəhərlərindən birinə, XIX əsrin sonu və XX əsrin əvvəllərində Qafqazın musiqi mərkəzinə çevrilib. Şuşanı müxtəlif vaxtlarda "Kiçik Paris", "Qafqazın sənət məbədi", "Azərbaycan musiqisinin beşiyi" və "Zaqafqaziyanın konservatoriyası" adlandırırdılar. Şuşa milli mədəniyyətimizin mərkəzi, poeziyamızın və musiqimizin beşiyi kimi tarixə düşüb və Azərbaycan musiqi mədəniyyətinin inkişafında və dünyaya çatdırılmasında

xüsusi yeri olan mənəvi qürur mənbəyimizdir. Şuşa Üzeyir bəy Hacıbəylinin, Zülfüqar Hacıbəylinin, Soltan Hacıbəylinin, Cabbar Qaryağdıoğlunun, Bülbülün, Xan Şuşinskinin, Rəşid Behbudovun, Süleyman Ələsgərovun və adlarını qeyd etmədiyim yüzlərlə mədəniyyət və dramaturgiya korifeylərinin vətənidir. Xalqımızın musiqi sənətinin ən möhtəşəm və ən məşhur nümayəndələri bu torpaqda dünyaya göz açıblar.

Şuşanın 8 may 1992-ci ildə işğal edildiyi gün bütün Azərbaycan xalqının mənəviyyatına ağır bir zərbə vuruldu, Şuşanın işğalı Azərbaycan xalqı üçün ağır bir dərd oldu. Şuşanın işğalı nəticəsində 480 günahsız vətəndaş qətlə yetirilib, 600 nəfər yaralanıb, 22 min insan öz yurdundan didərgin düşüb. Əsir götürülmüş 68 soydaşımızın taleyi barədə bu günə qədər məlumat yoxdur.

Azərbaycan ərazilərinin işğalı zamanı Ermənistan silahlı birləşmələri Azərbaycan xalqının milli mədəniyyət abidələrini də qəddarcasına uçurub dağıtdı və dünya xalqları mədəniyyətinin tərkib hissəsi olan Azərbaycan mədəni irsinə misli görünməmiş zərər vurdu. Ermənistan tərəfindən işğal olunmuş ərazilərdə Azərbaycan xalqının tarix və mədəniyyət abidələri dağıdıldı və qəsdən məhv edildi. Belə ki, Şuşanın işğal edilməsi nəticəsində 8 muzey, 31 kitabxana, 17 klub, 8 mədəniyyət evi dağıdılmış, viran edilmişdir. Şuşa şəhərinin tarixi muzeyinin 5 minədək eksponatı, Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət muzeyi Şuşa filialının, Dövlət Qarabağ Tarixi muzeyinin 1000-dək eksponatı, Azərbaycan professional musiqisinin banisi, bəstəkar Üzeyir Hacıbəylinin (300-dən cox əşya), Azərbaycan vokal sənətinin əsasını qoymuş boyuk müğənni Bülbülün (400-dək əşya), gorkəmli musiqiçi və rəssam Mir Möhsün Nəvvabın (100-dən cox əşya) xatirə müzeylərinin fondları qarət edildi.

Erməni təcavüzkarları Azərbaycan musiqisinin böyük xadimləri Üzeyir bəy Hacıbəylinin və Bülbülün, habelə şairə Xurşidbanu Natəvanın büstlərini Şuşa şəhərindən Ermənistan ərazisinə aparmışdılar. Bu abidələr bütün mənəviyyat normalarının ziddinə olaraq vəhşicəsinə güllələnmiş və ağır texnika vasitəsilə zədələnmişdilər. Azərbaycan hakimiyyətinin qətiyyətli addımları nəticəsində həmin büstlər çox çətinliklə əldə edilərək Bakıya gətirildi. Şuşanın azad edilməsilə Üzeyir bəy Hacıbəylinin, Bülbülün, Xurşidbanu Natəvanın ermənilər tərəfindən vəhşicəsinə güllələbaran edilmiş abidələrinin də "yaraları" sağaldı.

Qarabağın, bütövlüklə Azərbaycanın qüdrət rəmzi və Azərbaycan xalqının tarixi-mədəni irsinin incisi Şuşa uzun illərdən sonra Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin dönməz iradəsi və Azərbaycan Ordusunun rəşadəti nəticəsində yenidən öz ANA VƏTƏNİNƏ qovuşdu. 28 il ərzində qapıları Azərbaycan xalqının üzünə qapalı olan Şuşanın həsrət dolu baxışlarına son qoyuldu. Şuşanın qapıları yenidən tarix boyu burada yaşayıb-yaradan, bu mədəniyyət incisini quran, qəhrəmanlıq, igidlik və qeyrət tarixini torpağa qanları ilə həkk etmiş Azərbaycan insanlarının üzünə açıldı.

Xatırlatmaq kifayətdir ki, Ümummilli lider Heydər Əliyev Şuşanın Azərbaycan üçün müstəsna əhəmiyyətini yüksək qiymətləndirərək bildirmişdir ki, "Şuşasız Qarabağ, Qarabağsız isə, ümumiyyətlə, Azərbaycan yoxdur".

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev müxtəlif dövrlərdə, o cümlədən 27 sentyabr 2020-ci ildə əks-hücum əməliyyatları başlanandan sonra dünyanın müxtəlif informasiya agentliklərinə, televiziya kanallarına verdiyi müsahibələrində daimi olaraq Şuşanın Azərbaycan xalqı üçün tarixi, mədəni, mənəvi önəm kəsb etdiyini vurğulamışdı.

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın 10 dekabr 2020-ci ildə Bakının Azadlıq meydanında Vətən müharibəsində Qələbəyə həsr olunmuş Zəfər paradında çıxış edərkən dediyi sözlər olduqca əhəmiyyətlidir: "Azərbaycanın həm hərbi, həm də diplomatiya sahəsində əldə etdiyi bu uğurda ən böyük paylardan biri şübhəsiz ki, əziz qardaşım cənab Prezident İlham Əliyevə aiddir. Qardaşım İlham Əliyev bununla mərhum Heydər Əliyevin ona vəsiyyət olaraq etdiyi arzusunu da yerinə yetirmişdir. Fürsətdən istifadə edərək güclü Azərbaycanın əsasını qoyan Ümummilli lider Heydər Əliyevi də burada rəhmətlə yad edirəm. Azərbaycan qardaşım İlham Əliyevin qətiyyətli rəhbərliyi ilə, inşallah, dastan yazmaqda davam edəcək."

**Dəyərli Oxucu!**

2020-ci ildə 44 günlük Vətən müharibəsində tarixi qələbə əldə edildi. Şərəfli tarix yarandı. Bu tarixi yazmaq lazımdır. Bu olduqca vacibdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qərarı ilə Şuşa şəhəri Azərbaycan mədəniyyətinin paytaxtı elan edilib. Bundan sonra dünyanın Şuşaya diqqəti daha da artıb. ISESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Malik Şuşanı İslam dünyasının mədəniyyət paytaxtı kimi görmək istədiklərini bildirib. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası 2022-ci ildə Şuşanın belə paytaxt elan olunmasını və mədəni xarakterli çoxlu tədbirlər keçirilməsini təklif edib.

Mübaligəsiz olaraq deyə bilərik ki, Şuşada işğaldan sonra Azərbaycan Prezidenti İlham Əliyevin ideyası olan, Heydər Əliyev Fondunun təşkilatçılığı ilə ilk dəfə keçirilən "Xarıbülbül" musiqi festivalı bütün dünyaya səs saldı.

Şuşanın şərəfli tarixinin, zəngin mədəniyyətinin, şəhərin azad olunması uğrunda ölüm-dirim savaşının tədqiqi bu gün ən aktual məsələlərdəndir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 12-də Bakıda Hərbi Qənimətlər Parkının açılışında etdiyi çıxışda dedi:

"Şuşa əməliyyatından sonra Ermənistan diz çökdü. Şuşa əməliyyatı ayrıca bir dastandır, o haqda hələ çox danışılacaqdır. Ancaq Şuşaya gedən hər bir adam o sıldırım qayaları görərkən təsəvvür edə bilmir ki, o alınmaz qala necə alındı. Ancaq peşəkarlıq, rəşadət, qəhrəmanlıq və milli ruh hesabına biz Şuşanı azad etdik və düşmən diz çökdü, qabağımızda başını əydi, ağ bayraq qaldırdı, öz məğlubiyyətini etiraf etdi, noyabrın 10-da kapitulyasiya aktına imza atdı və biz bir güllə atmadan Kəlbəcər, Laçın və Ağdam rayonlarının işğal altında olan hissəsini də geri aldıq."

Kitab çapa imzalanarkən qürurverici bir xəbər yayıldı...

Azərbaycan Respublikası ərazilərinin işğaldan azad olunması uğrunda aparılan hərbi əməliyyatlarda iştirak edərək igidlik və şücaət göstərmiş, vəzifə borcunu ləyaqətlə və vicdanla, döyüş tapşırıqlarını uğurla yerinə yetirmiş Silahlı Qüvvələrimizin hərbi qulluqçuları Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin sərəncamları ilə müxtəlif orden və medallarla təltif olundular.

Dövlətimizin başçısının iyunun 24-də imzaladığı sərəncamlarla 11365 nəfər "Füzulinin azad olunmasına görə", 11831 nəfər "Xocavəndin azad olunmasına görə", 3435 nəfər "Zəngilanın azad olunmasına görə", 10211 nəfər "Cəbrayılın azad olunmasına görə", 5867 nəfər "Qubadlının azad olunmasına görə", 5784 nəfər "Şuşanın azad olun-

masına görə”, 3522 nəfər “Ağdamın azad olunmasına görə”, 4225 nəfər “Kəlbəcərin azad olunmasına görə”, 2643 nəfər “Laçının azad olunmasına görə”, 10647 nəfər “Suqovuşanın azad olunmasına görə”, 731 nəfər “Vətən uğrunda”, 616 nəfər “İgidliyə görə”, 2893 nəfər “Cəsur döyüşçü”, 786 nəfər “Döyüşdə fərqlənməyə görə”, 1743 isə “Hərbi xidmətlərə görə” medalları ilə təltif edildilər.

Prezidentin digər Sərəncamı ilə 2 nəfər “Qarabağ”, 28 hərbçi “Azərbaycan Bayrağı”, 13 nəfər 3-cü dərəcəli “Rəşadət”, 7 nəfər isə 3-cü dərəcəli “Vətənə xidmətə görə” ordenləri ilə təltif olundular. Ümumilikdə təltif olunanların sayı 76 min 349 nəfərdir.

Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyasının bu nəşrinin Şuşalı Azərbaycana layiqli hədiyyə olacağına inanıram.

**Elxan Süleymanov,**
**Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına**
**Yardım Assosiasiyasının prezidenti**

## Rəsmi xronikanın fotoları

*1. Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev xalqa müraciət edərkən*

*2. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Fəxri xiyabanda Ulu Öndər Heydər Əliyevin abidəsi önündə*

*3. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Fəxri xiyabanda görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın xatirəsini yad edərkən*

*4-5. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şəhidlər xiyabanında*

*6. Ali Baş Komandan İlham Əliyev Şuşada hərbçilər qarşısında çıxış edərkən*

*7. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Şuşadakı Saatlı məscidinin önündə*

*8. Bülbülün erməni vandalizminə məruz qalmış büstü qarşısında*

*9. Tarixi ədalətin bərpası - Üzeyir Hacıbəylinin büstü yenidən Şuşada*

*10. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva Aşağı Gövhərağa məscidində*

*11. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva ilə Cıdır düzündə*

*12. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva Molla Pənah Vaqifin məqbərəsinin bərpa planı ilə tanış olarkən*

*13. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bərpa ediləcək Vaqif məqbərəsinin önündə*

*14. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Pənahəli xanın sarayının qalıqlarına baxarkən*

*15. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Molla Pənah Vaqifin büstünün qoyulacağı ərazidə*

*16. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban*

*Əliyeva Karvansaray tarix-memarlıq kompleksində*

*17. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Daşaltı kəndinin bərpası ilə tanış olarkən*

*18. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Novruz bayramı münasibətilə xalqa müraciət edərkən*

*19. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva ilə Cıdır düzündə*

*20. Şuşada "Xarıbülbül" otelinin yenidənqurmadan sonra açılışında*

*21. Şuşada yeni məscidin təməlqoyma mərasimində*

*22. Şuşa Yaradıcılıq Mərkəzinin yerləşəcəyi bina ilə tanış olarkən*

*23. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Şuşanın Cıdır düzündə "Xarıbülbül" musiqi festivalının açılışında hərbçilər ilə birlikdə*

*24. Qarabağ səmasında, Şuşada atəşfəşanlıq*

*25. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva Yuxarı Gövhərağa məscidində*

*26-27. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Cıdır düzündə*

*"Xarıbülbül" musiqi festivalında*

*28. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunda inşa olunacaq tunelin təməlqoyma mərasimində*

*29. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib*

*Ərdoğan Şuşa şəhərinə gedərkən*

*30-31. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və birinci xanım Əminə Ərdoğan Şuşa şəhərinin ətraf ərazilərini seyr edərkən*

*32-33. Ali qonağın Şuşada rəsmi qarşılanma mərasimində*

*34. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Baykar" şirkətinin baş direktoru Lutfi Haluk Bayraktarı "Qarabağ" ordeni ilə təltif edərkən*

*35. "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik*

*münasibətləri haqqında Şuşa Bəyannaməsi"nin imzalanma mərasimində*

*36. Azərbaycan və Türkiyə prezidentləri mətbuat üçün birgə bəyanat verərkən*

*37. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və birinci xanım Əminə Ərdoğan "Xan qızı" bulağında*

*38. Şuşa gəzintisində*

*39-40. "Musiqi irsi və Qarabağ atları Cıdır düzündə" adlı musiqili kompozisiyasının təqdimat tədbirində*

*41. Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və birinci xanım Əminə Ərdoğan Qarabağın rəmzi sayılan "Xarıbülbül" kompozisiyası ilə*

*42. Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Milli Məclisdə çıxış edərkən*


BAŞ KOMANDAN
ILHAM ƏLIYEV




08.11.2020













14.01.2021




14.01.2021
























Xarıbülbül otel


MƏSCİDİN TƏMƏLİ
AZƏRBAYCAN RESPUBLİKASININ
PREZİDENTİ CƏNAB İLHAM ƏLİYEV
TƏRƏFİNDƏN 12 MAY 2021-Cİ İL
TARİXİNDƏ QOYULMUŞDUR










*12.05.2021*





13.05.2021






BİR MİLLƏT, İKİ DÖVLƏT
T4 TUNELİ




15.06.2021













15.06.2021







15.06.2021





15.06.2021







15.06.2021









*16.06.2021*

# RƏSMİ XRONİKA

## Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Fəxri xiyabanda və Şəhidlər xiyabanında olublar Dövlətimizin başçısı, Müzəffər Ali Baş Komandan Şəhidlər xiyabanında Azərbaycan xalqına müraciət edib

08.11.2020

Noyabrın 8-də Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Fəxri xiyabanda və Şəhidlər xiyabanında olublar.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Şəhidlər xiyabanında Azərbaycan xalqına müraciət edib.

Əvvəlcə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Fəxri xiyabanda Ulu Öndər Heydər Əliyevin xatirəsinə ehtiramlarını bildirdilər.

Prezident İlham Əliyev Ulu Öndər Heydər Əliyevin abidəsi önünə əklil qoydu.

Azərbaycanın Dövlət Himni səsləndirildi.

Dövlətimizin başçısı və xanımı görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın xatirəsini də yad etdilər.

Görkəmli dövlət xadimi Əziz Əliyevin və tanınmış həkim-alim Tamerlan Əliyevin məzarları üzərinə gül dəstələri düzüldü.

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şəhidlər xiyabanına gəldilər. Dövlətimizin başçısı və birinci xanım Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini yad etdilər, məzarları önünə gül dəstələri düzdülər.

Prezident İlham Əliyev “Əbədi məşəl” abidəsinin önünə əklil qoydu.

Azərbaycanın Dövlət Himni səsləndirildi.

Dövlətimizin başçısı Şəhidlər xiyabanında Azərbaycan xalqına müraciət etdi.

## Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin xalqa müraciəti

- Əziz həmvətənlər, əziz bacılar və qardaşlar!

Böyük fəxarət və qürur hissi ilə bəyan edirəm ki, Şuşa şəhəri işğaldan azad edildi! Şuşa bizimdir! Qarabağ bizimdir! Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bütün şuşalıları ürəkdən təbrik edirəm.

İyirmi səkkiz il yarım işğal altında olan Şuşa azad edildi! Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq. Bu, bizim şanlı Qələbəmizin, zəfərimizin günüdür! Bu qələbəni biz döyüş meydanında qazandıq, danışıqlar masası arxasında yox. Mən dəfələrlə demişəm, bütün bəyanatlara rəğmən ki, bu münaqişənin - Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin hərbi həll yolları da vardır və bu gün biz bunu döyüş meydanında sübut edirik. 30 ilə yaxın mənasız danışıqlar bizi heç bir nəticəyə yaxınlaşdırmadı. Əzəli tarixi torpaqlarımız 30 ilə yaxın işğal altında qaldı. Danışıqlar prosesində Ermənistan tərəfi, sadəcə olaraq, vaxt udmaq istəyirdi, sadəcə olaraq, status-kvonu möhkəmləndirmək, əbədi etmək istəyirdi. Bu illər ərzində dəfələrlə Azərbaycana müxtəlif güc mərkəzlərindən göndərilən siqnallar bizi vəziyyətlə barışmağa sövq edib. Ancaq biz qətiyyət, cəsarət, siyasi iradə göstərərək Azərbaycan xalqının maraqlarına cavab verməyən heç bir razılaşmaya getmədik. Mən dəfələrlə bütün beynəlxalq kürsülərdən bəyan etmişdim ki, torpaqlarımızın, ərazi bütövlüyümüzün bərpa edilməsi bizim əsas vəzifəmizdir və biz bu vəzifəni icra edirik. Danışıqlar heç bir nəticə vermədi. Sadəcə olaraq, bizim başımızı aldadırdılar, sadəcə olaraq, məsələni dondurmaq istəyi müşahidə olunurdu. Biz bu Qələbəni döyüş meydanında qazandıq, şəhidlər verərək bu Qələbəni qazandıq. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Həm birinci Qarabağ, həm ikinci Qarabağ – Vətən müharibəsi adlandırdığımız müharibədə şəhid olmuş bütün şəhidlərimizə Allahdan rəhmət diləyirəm, onların yaxınlarına səbir diləyirəm. Yaralı soydaşlarımıza Allahdan şəfa diləyirəm. Biz xalqımızın, əsgərlərimizin, zabitlə-

rimizin canı, qanı bahasına torpaqlarımızı işğalçılardan azad edirik. İşğalçıları torpaqlarımızdan qovuruq və qovacağıq!

Şuşa 28 il yarım işğal altında idi. Şuşanın Azərbaycan tarixində xüsusi yeri vardır. Bu, bizim qədim, tarixi şəhərimizdir. Əsrlər boyu azərbaycanlılar Şuşada yaşayıb, qurub, yaradıb. Şuşa nəinki Azərbaycanın, bütün Qafqazın incisidir. Ancaq mənfur düşmən Şuşanı işğal altında saxlamaqla bizim mədəni irsimizə böyük zərbə vurdu, bizim tarixi abidələrimizi dağıtdı, bizim məscidlərimizi dağıtdı, təhqir etdi. Biz indi Şuşaya qayıtmışıq. Bütün tarixi abidələrimizi bərpa edəcəyik, bütün məscidləri bərpa edəcəyik, 28 ildən sonra Şuşada yenə də azan səsi eşidiləcəkdir. Bir neçə il bundan əvvəl - 2016-cı ilin Aprel döyüşlərindən sonra işğaldan azad edilmiş Cocuq Mərcanlı qəsəbəsində mənim göstərişimlə tikilmiş məscidin açılışında bəyan etmişdim ki, bu məscid Şuşa məscidinin bənzəridir, ölçülərinə, memarlıq üslubuna görə eynidir. Demişdim ki, gün gələcək biz Şuşa şəhərində erməni vandalları tərəfindən dağıdılmış məscidlərimizi bərpa edəcəyik və bu gün gəlir. Bu gün Azərbaycan bayrağı Şuşada dalğalanır. Bu gün bütün Azərbaycan xalqı qürur hissi ilə bu xoş xəbəri qarşılayır.

Biz güc toplayırıq, məqsədyönlü şəkildə, yorulmadan, bütün təzyiqlərə baxmayaraq, güc toplayırıq və toplamışıq. İqtisadi güc. Əgər iqtisadi gücümüz olmasaydı, bu Qələbəni əldə etmək mümkün olmazdı. İlk növbədə, iqtisadi müstəqillik təmin edilməli idi və təmin edildi. Bu gün Azərbaycan iqtisadi cəhətdən heç kimdən asılı deyil, heç bir ölkədən asılı deyil, heç bir beynəlxalq maliyyə qurumundan asılı deyil. Müstəqilik və bu, bizə imkan verdi ki, ölkəmizi inkişaf etdirək, eyni zamanda, Ordumuzu gücləndirək. Biz Ordumuz üçün lazım olan bütün hərbi texnikanı, silahları xarici bazarlardan alırıq. Əgər bizim iqtisadi imkanlarımız olmasaydı, biz bunları necə əldə edə bilərdik? Biz ölkə daxilində uğurlu siyasət apararaq hesab edirəm ki, ölkəmizdə dünya üçün çox nadir inkişaf modelini yaratdıq. Daxildəki həmrəylik, milli birlik, vahid amal uğrunda birləşməyimiz bizə əlavə güc verdi, imkan vermədi ki, bəzi mənfur xarici dairələr öz çirkin planlarını Azərbaycanda həyata keçirsinlər. Halbuki belə planlar var idi, belə cəhdlər var idi. Biz siyasi iradə göstərərək, birlik göstərərək bu cəhdləri

dəf etdik, xalq olaraq, millət olaraq öz qürurumuzu müdafiə etdik, öz müstəqil seçimimizi müdafiə etdik və sübut etdik ki, heç kim bizim işimizə qarışmasın və qarışa bilməz. Əgər bu birlik olmasaydı, milli həmrəylik olmasaydı, biz heç vaxt torpaqlarımızı işğalçılardan azad edə bilməzdik. Bu illər ərzində bizə qarşı aparılan qara piar kampaniyası, qarayaxma, şər-böhtan kampaniyasının da əsas məqsədi o idi ki, bizi əsas vəzifəmizdən uzaqlaşdırsınlar, biz uzaqlaşaq, daxili problemlər içində boğulaq və işğal edilmiş torpaqlar işğalçıların əlində əbədi qalsın. Güclü siyasi iradə, xalq-iqtidar birliyi bu planları da alt-üst etdi.

Qələbəmizin üçüncü əsas amili beynəlxalq səviyyədəki uğurlarımızdır. Biz bütün dünyaya sübut etdik ki, Qarabağ əzəli Azərbaycan torpağıdır. Sübut etdik ki, əsrlər boyu Azərbaycan xalqı bu torpaqlarda yaşayıb. Sübut etdik ki, erməni əhalisi bu torpaqlara 200 il bundan əvvəl köçürülübdür, necə köçürülübdür, hansı məqsədlərlə köçürülübdür, hamısını biz dünya ictimaiyyətinə təqdim etdik, sübutlarla, faktlarla. Biz sübut etdik ki, Dağlıq Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır və bu məsələ beynəlxalq hüququn norma və prinsipləri əsasında öz həllini tapmalıdır. Dünyanın bütün aparıcı təşkilatları, bütün beynəlxalq təşkilatlar Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ədalətli qətnamələr, qərarlar qəbul edibdir. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi, BMT Baş Assambleyasının qətnamələri, Qoşulmama Hərəkatının qətnamələri, İslam Əməkdaşlıq Təşkilatının qətnamələri, Avropa Parlamentinin qətnamələri və digər beynəlxalq təşkilatların qərar və qətnamələri birmənalı şəkildə Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıdı. Bu, bizə əlavə güc verdi. Əgər biz bunu etməsəydik, bu gün münaqişənin ətrafında cərəyan edən proseslər bizə böyük problemlər yarada bilərdi. Biz bu illər ərzində bir çox ölkələrlə səmimi, işgüzar, qarşılıqlı hörmət əsasında münasibətlər qura bildik, bir çox ölkələr Azərbaycanı strateji tərəfdaş hesab edir və artıq bu ifadə beynəlxalq sənədlərdə öz əksini tapır. Biz bütün qonşu ölkələrlə səmimi dostluq əsasında münasibətlər qura bildik, qarşılıqlı hörmət, qarşılıqlı inam əsasında. Əgər biz bunu etməsəydik, bu gün münaqişə ətrafında tam başqa proseslər gedə bilərdi.

Şuşa işğal altına düşəndə bizim əsas problemlərimiz həm o idi ki, ordumuz

yox idi, rəhbərlik öz vəzifə borcunu yerinə yetirə bilmirdi. Beynəlxalq müstəvidə Azərbaycan demək olar ki, bütün ölkələrlə münasibətləri gərginləşdirmişdi. Biz demək olar ki, təcrid edilmiş vəziyyətdə idik. Ancaq bu gün biz Ermənistanı təcrid edilmiş vəziyyətə saldıq. Bizim transmilli layihələrimiz regionda tamamilə yeni mənzərə yaratdı. Biz regionun enerji xəritəsini, nəqliyyat xəritəsini yenidən tərtib etdik. Bizim təşəbbüsümüzlə reallaşan layihələr təkcə bizim xalqımızın maraqlarını təmin etmir, bir çox ölkələrin maraqlarını təmin edir, o cümlədən region ölkələrinin. Qonşu ölkələrlə bizim həm ikitərəfli, həm üçtərəfli əməkdaşlıq formatlarımız vardır. Bütün bunlar Azərbaycanın beynəlxalq nüfuzunu böyük dərəcədə gücləndirdi. Əgər bu nailiyyətlər olmasaydı, problem dondurulmuş vəziyyətdə qala bilərdi.

Nəhayət və ilk növbədə, ordu quruculuğu. Bu 17 il ərzində mənim işimin əsas hissəsi ordu quruculuğuna həsr edilmişdir ki, biz ordumuzu necə gücləndirək, ordumuzu ən müasir silahlarla təchiz edək. O da asan məsələ deyildi. O silahları almaq üçün təkcə maddi vəsait kifayət etmir. Eyni zamanda, diplomatik, siyasi səylər göstərilməlidir və biz buna da nail olduq. Bu gün Azərbaycan öz hərbi təchizatını bir çox ölkələrdən təmin edir. Eyni zamanda, mənim təşəbbüsümlə Azərbaycanda müdafiə sənayesi yaradıldı. Biz ordumuzun tələbatını böyük dərəcədə daxili istehsal hesabına təmin edirik. Azərbaycanda 1000-dən çox adda hərbi təyinatlı məhsul istehsal edilir, o cümlədən ən müasir məhsullar. Budur bizim fəaliyyətimiz. Ordu quruculuğu, hərbçilərin maddi-məişət problemlərinin həlli, təqaüdə çıxmış hərbçilərin məişət problemlərinin dövlət tərəfindən həll olunması, onlara mənzillərin verilməsi, hərbçilərimizin iş şəraitinin yaxşılaşdırılması. Biz demək olar ki, bütün hərbi şəhərciklərimizi, hərbi bazalarımızı yenidən qurduq və onlar ən yüksək standartlara cavab verir. Əlbəttə, ilk növbədə, döyüş qabiliyyəti. Döyüş qabiliyyəti artdı. Azadlıq meydanında dəfələrlə keçirilmiş hərbi paradlar bütün dünyaya bizim gücümüzü göstərdi.

Döyüş qabiliyyətinin artırılması ordu quruculuğu sahəsində əsas amildir. Biz müasir silahlardan istifadə edirik, texnikadan istifadə edirik, düşmənin texnikasını məhv edirik. Torpaqlarımızı ancaq Azərbaycan əsgəri azad edir, Azər-

baycan zabiti azad edir, sinəsini qabağa verərək, heç nədən qorxmayaraq, əlində bayraq, əlində silah düşməni qovan da əsgərdir, düşməni məhv edən də əsgərdir. Eşq olsun bizim əsgərlərimizə!

Bax, belə ordu yaratmışıq biz! Deyirdik işğalçılara, deyirdik, düz yola gəlin, işğala son qoyun, hələ ki, gec deyil. Ona görə bizim bütün dövrlərdəki siyasətimiz birmənalı olub. Demişik ki, əgər məsələ sülh yolu ilə öz həllini tapmasa, hərbi yolla məsələni həll edəcəyik. Mən bunu dəfələrlə demişəm. Buna görə də tənqid olunmuşam bəzi ölkələr tərəfindən. Mən demişəm ki, bəs bizim torpaqlarımız məgər hərbi yolla zəbt edilməyibmi? Ermənistan bizim torpaqlarımızı sülh yolu iləmi zəbt edib? Hər bir ölkənin özünümüdafiə hüququ var. Bu hüququ bizə BMT Nizamnaməsi verir. Mən demişdim, əgər görsəm ki, danışıqlar artıq tamamilə səmərəsizdir, bizim başqa yolumuz qalmayacaq. Bunu hamı bilsin - düşmən, onun havadarları və bu məsələ ilə məşğul olan vasitəçilər. Həmişə sözümün üstündə durmuşam. Azərbaycan xalqına nə demişəmsə, onu da etmişəm. Bu məsələdə də sözümün üstündə durdum və artıq biz Qələbəni qeyd edirik.

Sentyabrın 27-dən bu günə qədər 200-dən çox şəhər, kənd, qəsəbə işğaldan azad edildi. O cümlədən Füzuli şəhəri, tamamilə darmadağın edilmiş, bir dənə də salamat bina qoymayıb mənfur düşmən. Cəbrayıl tamamilə dağıdılmış. Qubadlı, Zəngilan tamamilə dağıdılmış. Kəndlər, şəhərlər. Hadrut qəsəbəsi, Suqovuşan qəsəbəsi və bu gün Şuşa şəhəri.

Bizim zəfər yürüşümüz davam edir. Hələ də işğal altında torpaqlar var, hələ də döyüşlər gedir. Əgər Ermənistan rəhbərliyi mənim tələblərimə cavab verməsə, sona qədər gedəcəyik. Heç kim bizi dayandıra bilməz. Dünyada elə qüvvə yoxdur ki, bizi dayandıra bilsin. Ermənistan artıq öz acı məğlubiyyətini etiraf edib, özünü alçalda-alçalda, xalqını təhqir edə-edə. Ermənistan rəhbərliyi indi dünya ölkələrindən yardım istəyir, hərbi yardım istəyir, silah, texnika istəyir. Bəs, hanı sənin yenilməz ordun? Məhv etmişik onu. Onların bütün sözləri, onların bütün bəyanatları mif idi, yalan idi. Yenilməz ordu Azərbaycan Ordusudur! Bunu döyüş meydanında göstərir, düşməni torpaqlardan təkbaşına qovur. Otuz il ərzində milyardlarla dollar xərclənib oraya, istehkamlar qurulub, mühən-

dislik qurğuları inşa edilib. Amma hamısını vurub dağıtmışıq - mənəvi ruh, güc hesabına, birlik hesabına!

Bir daha demək istəyirəm ki, bizim zəfər yürüşümüz davam edir. İşğal edilmiş bütün torpaqlardan düşmən qüvvələri çıxarılmalıdır. Bu, bizim tələbimizdir. Beynəlxalq norma və prinsiplər, beynəlxalq təşkilatların qərar, qətnamələri bunu tələb edir.

Əziz bacılar və qardaşlar, bu gün bu müjdəni mən burada - Şəhidlər xiyabanında doğma xalqıma verirəm. Bu, təsadüfi deyil. Bu, təbiidir. Bu gün şəhidlərimizin ruhu qarşısında bir daha baş əyirəm. Bu gün bəyan edirəm ki, şəhidlərimizin qanı yerdə qalmır. Erməni vəhşiliyinin qurbanlarının, Xocalı qurbanlarının qanı yerdə qalmır. İntiqamımızı döyüş meydanında aldıq. Biz mülki vətəndaşlara qarşı heç vaxt müharibə aparmamışıq, bu dəfə də aparmamışıq. Baxmayaraq ki, mənfur düşmən 93 mülki şəxsi namərd atəşlə öldürüb, 400-dən çox mülki şəxs yaralanıb. Amma mən dedim yox, biz azərbaycanlıyıq! Biz intiqamımızı döyüş meydanında alacağıq və alırıq! Onların ordusunu məhv etmişik, texnikasını məhv etmişik, məhv edirik və edəcəyik. Düşməni qovuruq və qovacağıq!

Mən bu gün, eyni zamanda, Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları!

Mən bu günlərdə dünya azərbaycanlılarından və Azərbaycanda yaşayan insanlardan minlərlə məktub alıram. Hər gün minlərlə məktub. Sadəcə olaraq, heyfsilənirəm ki, bütün bu məktubları oxuya bilmirəm. Sadəcə olaraq, vaxt çatmır. Nə qədər gözəl sözlər, nə qədər böyük dəstək göstərilir. Bu gün biz bir daha bütün dünyaya sübut edirik ki, biz böyük xalqıq, biz məğrur xalqıq! Biz yenilməz xalqıq! Biz döyüş meydanında düşmənə yerini göstəririk!

Bu günlərdə dəfələrlə Azərbaycan xalqına müraciət edərək düşmənə yumruq göstərmişdim, yumruq göstərmişdim. Demişdim ki, bu yumruq elə belə yumruq deyil. Bu, dəmir yumruqdur. Bu dəmir yumruqla düşmənin başını əzi-

rik və əzəcəyik! Eyni zamanda, bu yumruq birliyimizin rəmzidir. Bax, bu gün Azərbaycan xalqı bu yumruq kimi birləşib! Həmişə belə olacaq! Bu birlik əbədi olacaq! Bu birlik bizə gələcəkdə də bütün vəzifələri icra etmək üçün imkan yaradacaq. Mən bütün bu illər ərzində - 17 il ərzində Azərbaycan xalqının dəstəyini hiss etmişəm, görmüşəm, inamını, mənə olan xoş münasibəti görmüşəm. Bu, mənə güc verir. Bu, mənim siyasətim üçün əvəzolunmaz dəstəkdir. Həmişə Azərbaycan xalqını əmin edirdim ki, mən Vətənə, doğma xalqıma ləyaqətlə, sədaqətlə xidmət edəcəyəm. Şadam ki, sözümün üstündə durmuşam. Həmişə olduğu kimi, sözümə sadiq olmuşam.

Bu tarixi bir gündə Azərbaycan xalqına bu müjdəni vermək mənim həyatımda bəlkə də ən xoşbəxt günlərimdən biridir.

Əziz Şuşa, sən azadsan!

Əziz Şuşa, biz qayıtmışıq!

Əziz Şuşa, biz səni dirçəldəcəyik!

Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!

***https://azertag.az***

## Mehriban Əliyeva: Biz Şuşamızı qaytardıq! Bu əlamətdar tarixi hadisə münasibətilə hamınızı təbrik edirəm

08.11.2020

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Şuşa şəhərinin işğaldan azad edilməsi münasibətilə xalqımızı təbrik edib.

AZƏRTAC xəbər verir ki, Birinci vitse-prezident Mehriban Əliyeva rəsmi “Instagram” səhifəsində tarixi qələbə ilə bağlı paylaşım edib. Paylaşımda deyilir:

“Bu anlarda bütün xalqımız təsvirəgəlməz qürur və sevinc hissləri keçirir! Şuşa işğaldan azad edilib! Bu münasibətlə bütün həmvətənlərimizə səmimi təbriklərimi çatdırıram!

İllər boyu davam etmiş kədər, həsrət, faciəli hadisələrdən sonra tarixi ədalət bərpa olunur! Vətənimizi müdafiə edən və əzəli Azərbaycan torpaqlarını işğaldan azad edən qəhrəmanlar nəslinin bugünkü igidlikləri Azərbaycan tarixinə əbədi daxil olacaq və hər birimizin yaddaşında həmişəlik qalacaq!

Azərbaycan torpaqlarının hər qarışının azad edilməsi bizim rəşadətli əsgərlərimizin qəhrəmanlığı və igidliyi, dözümlülüyü və qələbə əzmi sayəsində mümkün olur! Vətən naminə canlarından keçmiş şəhidlərimizə Allah rəhmət eləsin!

Əziz qardaşlar və bacılar!

Biz Şuşamızı qaytardıq! Bu əlamətdar tarixi hadisə münasibətilə hamınızı bir daha təbrik edirəm.

Qoy bizim bütün uğurlarımızın və nailiyyətlərimizin, bütün qələbələrimizin qarantı olan xalq-Prezident birliyi günbəgün möhkəmlənsin! Bu gün məhz bu birlik Azərbaycanın öz gücünü nümayiş etdirməsinə imkan yaradır! Milli həmrəylik, xalqın etimadı, inamı və dəstəyi sayəsində bizim Prezidentimiz bütün mürəkkəb məsələlərin öhdəsindən uğurla gəlməyi bacarır! Qoy Uca Tanrı ordumuzu, xalqımızı, Vətənimizi və Prezidentimizi qorusun! Şuşa bizimdir! Qarabağ Azərbaycandır!”.

***https://azertag.az***

## Birinci vitse-prezident Mehriban Əliyeva: Azad olunmuş qədim Şuşa şəhərimizdə olmağımdan çox xoşbəxtəm!

15.01.2021

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi "Instagram" səhifəsində işğaldan azad olunmuş Şuşa şəhərinə səfərlə bağlı paylaşım edib. AZƏRTAC paylaşımı təqdim edir:

"Əziz qardaşlar və bacılar!

Bizim doğma, işğaldan azad olunmuş qədim Şuşa şəhərimizdə olmağımdan çox xoşbəxtəm! Böyük məmnuniyyətlə bu gözəl diyara etdiyimiz səfərimizin görüntülərini sizinlə paylaşıram.

Dərin hörmət və sevgilərlə,

Sizin MEHRİBAN".

***https://azertag.az***

## Prezident İlham Əliyev Füzuli rayonunda Füzuli-Şuşa yolunun və hava limanının təməllərini qoyub, Şuşa şəhərində səfərdə olub

15.01.2021

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 14-də Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun 27-ci kilometrində Füzuli-Şuşa yolunun, həmçinin Füzuli rayonunda hava limanının təməllərini qoyub.

AZƏRTAC xəbər verir ki, sonra Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Azərbaycanın işğaldan azad edilən mədəniyyət paytaxtı Şuşa şəhərində olublar.

Şuşaya gedərkən avtomobili özü idarə edən **Prezident İlham Əliyev** dedi:

- Səhər tezdən yola çıxmışıq. İstiqamət Şuşa şəhəridir.

Azad edilmiş torpaqlara keçirik. Şanlı Azərbaycan Ordusu bu istiqamətdən hücum edərək düşməni qova-qova torpaqlarımızdan çıxardı.

Füzuli rayonunun ermənilər tərəfindən dağıdılmış Qaraxanbəyli kəndi.

Füzuli-Şuşa yolunun yeni işlənmiş layihəsinə körpü və tunellərin inşası daxildir. Yəni, çətin relyefə malik olan ərazilərdə dolama yolların yerinə körpü və tunellərin tikintisi nəzərdə tutulur. Yeni yol Füzuli hava limanı ilə əlaqələndiriləcək və bu yoldan İsa bulağına yeni yol çəkiləcək.

Dövlətimizin başçısı və birinci xanım yolun təməlini qoydular.

**Prezident İlham Əliyev:** Füzuli-Şuşa yolunun təməlini qoyduq. İndi isə Füzuli hava limanının təməlini qoyacağıq və bu il hava limanının hər halda uçuş-enmə zolağı istifadəyə verilməlidir.

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli rayonunda beynəlxalq hava limanının təməlini qoydular.

Uçuş-enmə zolağının uzunluğu 2 800 metr olacaq hava limanı beynəlxalq standartlara uyğun infrastrukturla təchiz ediləcək. Burada təyyarələrin qəbulu və yola salınması, sərnişinlərin rahatlığı üçün hər cür şərait yaradılacaq.

**Prezident İlham Əliyev** dedi:

- Bu gün yanvarın 14-də Füzuli Beynəlxalq Hava Limanının təməli qoyuldu. Mən hava limanının tikintisi ilə bağlı Azərbaycan xalqına məlumat vermişdim. Bu, azad edilmiş bölgələrimizin inkişafı üçün çox önəmli bir layihədir. Füzuli Beynəlxalq Hava Limanı bu il istifadəyə verilməlidir. Hər halda uçuş-enmə zolağı bu il istifadəyə verilməlidir. Hava limanının binası isə ola bilər bu il, ola bilər gələn il istifadəyə veriləcək. Bu hava limanının əsas məqsədi xarici qonaqların Şuşaya gəlişini təmin etməkdir. Çünki buradan Şuşaya olan məsafə o qədər də böyük deyil. Nəzərə alsaq ki, bu gün Füzuli-Şuşa dördzolaqlı və bəzi yerlərdə altızolaqlı yeni avtomobil yolunun təməli qoyulub, xarici qonaqlar Füzuli Beynəlxalq Hava Limanına gələrək, çox rahat və qısa müddət ərzində Şuşa şəhərinə gedə biləcəklər.

Şuşa şəhəri mənim tərəfimdən Azərbaycanın mədəniyyət paytaxtı elan edildi. Şuşa şəhərinin bərpası və tarixi simasının özünə qaytarılması istiqamətində işlərə start verildi. Bütövlükdə müharibədən cəmi iki ay vaxt keçib, ancaq böyük quruculuq işlərinə start verildi. Azad edilmiş torpaqlarımızda ikinci beynəlxalq hava limanı Kəlbəcər və ya Laçın rayonlarının ərazisində inşa ediləcək. İndi yer seçilir və beləliklə, iki beynəlxalq hava limanının tikintisi yaxın zamanlarda təmin edilməlidir.

Böyük qayıdış başlayır, bütün işlərə start verildi. Əminəm, necə ki, düşməni qısa müddət ərzində torpaqlarımızdan qovduq, - cəmi 44 gün ərzində, - bizim tarixi dədə-baba torpağımız olan Qarabağı da qısa müddətdə bərpa edəcəyik.

Qarabağ Azərbaycandır!

xxx

Daha sonra Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Şuşa şəhərinə yola düşdülər.

**Prezident İlham Əliyev:** Füzuli Beynəlxalq Hava Limanının təməlini qoyduq. Bu il Füzuli Beynəlxalq Hava Limanı istifadəyə verilməlidir. Hər halda uçuş-enmə zolağı istifadəyə verilməlidir ki, bu ildən başlayaraq artıq vətəndaş-

lar, xarici vətəndaşlar və xaricdə yaşayan azərbaycanlılar Şuşaya təyyarə ilə rahat gələ bilsinlər. Bununla paralel olaraq, göstəriş verildi ki, Füzuli Beynəlxalq Hava Limanından beynəlxalq uçuşların təşkil edilməsi istiqamətində də işlərə başlanılsın. Eyni zamanda, Azərbaycanın digər şəhərlərindən - Lənkərandan, Naxçıvandan, Gəncədən buraya gəlib, Şuşaya rahat gedə bilərlər. İndi isə istiqamət Şuşa şəhəridir və yol boyunca əlavə məlumat veriləcəkdir.

Füzulidən Xocavənd rayonuna gedirik. Ondan sonra da Şuşa şəhərinə gedəcəyik. Qarşımızda gözəl mənzərə açılır, gözəl, vüqarlı dağlar, dağların başında qar, gözəl Azərbaycan diyarımızdayıq. Bu isə Şəkərcik kəndidir. Şəkərcik kəndi Füzuli şəhərinə bitişik olan kənddir. Füzuli şəhəri azad olunanda Şəkərcik uğrunda da şiddətli döyüşlər gedib. Baxın, düşmən işğal dövründə bütün bu əraziləri yerlə-yeksan edib. Biz artıq Füzuli şəhərində olmuşuq. O dəhşətli mənzərəni Azərbaycan xalqı görüb, bütün dünya görüb və görməlidir. Ona görə göstəriş verildi ki, xarici qonaqları Azərbaycana dəvət edib və bu bölgələrə gətirib, onlara erməni vəhşiliyi, əməlləri göstərilsin. Artıq bütün dünya görür ki, biz hansı vəhşi düşmənlə müharibə aparmışıq və hansı vəhşi düşməni məhv etmişik. Bu dağlar bizimdir.

Bura Xocavənd rayonunun Böyük Tağlar kəndinin ərazisidir. Baxın, bizim ölkəmiz necə də gözəldir. Bütün bu ərazini işğalçılardan qəhrəman Azərbaycan Ordusu azad edib.

Dövlətimizin başçısı, birinci xanım və qızları Leyla burada xatirə şəkli çəkdirdilər.

xxx

**Prezident İlham Əliyev:** Yolumuza davam edirik. Baxın, Günəş də çıxdı. Günəş də bizi salamlayır, yolumuzu işıqlandırır. Biz gedirik Şuşaya, azad edilmiş Şuşaya. Bu yolun tikintisi aparılır. Əminəm ki, ölkəmizin ən gözəl yollarından biri olacaq. Təbii ki, ən yüksək keyfiyyətlə tikiləcək. Eyni zamanda, mənzərəli yoldur, tarixi yoldur, Qələbəyə aparan yoldur.

Bu yol heç vaxt olmayıb. Qəhrəman hərbçilərimiz bu ərazilərdən keçib. Biz isə cəmi iki ay ərzində bu yolu açmışıq. Sonra, əlbəttə ki, yol genişləndiriləcək və asfalt döşənəcək. Azərbaycan vətəndaşları Şuşaya rahat gedəcəklər.

Sonra Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Şuşa şəhərinə gəldilər.

Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev Şuşa şəhərində üçrəngli bayrağımızı ucaltdı.

Dövlətimizin başçısı hərbçilərlə görüşdü və çıxış etdi.

**Prezident İlham Əliyevin çıxışı**

- Əziz hərbçilər, noyabrın 8-i xalqımızın tarixində əbədi qalacaq. Noyabrın 8-də qədim Şuşa şəhərimizi düşməndən azad edərək Azərbaycan parlaq qələbə qazandı. Şuşanın işğaldan azad edilməsi böyük qəhrəmanlıq, peşəkarlıq, milli ruh tələb edirdi. Azərbaycan hərbçiləri bütün bu ülvi xüsusiyyətləri nümayiş etdirmişdir.

Mən Şuşaya Qələbə yolu ilə gəlmişəm. O yol indi açılıbdır, yol yox idi. Dağlardan, meşələrdən, dərələrdən keçərək, onlarla kilometr məsafəni qət edərək qəhrəman Azərbaycan hərbçiləri yol boyunca kəndləri, qəsəbələri düşməndən azad edib, Şuşa şəhərinə yaxınlaşıb, Daşaltı kəndini azad edib və ondan sonra Şuşanı işğalçılardan azad edib.

Əminəm ki, Şuşa əməliyyatı aparıcı beynəlxalq hərbi məktəblərin dərsliklərinə salınacaqdır. Artıq məndə məlumat var ki, inkişaf etmiş bir çox ölkələrin mütəxəssisləri 44 günlük Vətən müharibəsinin hər bir gününü təhlil edirlər. Çünki 44 günlük müharibənin hər bir günü qələbə, zəfər günüdür. Şuşanın işğaldan azad edilməsi düşmənə vurulan ən böyük zərbə idi. Çünki düşmən hesab edirdi ki, Şuşanı azad etmək mümkün deyil və yəqin ki, müəyyən dərəcədə haqlı idi. Çünki Pənahəli xan bu şəhəri elə salmışdır ki, hər tərəfdən sıldırım qayalar və təbii landşaft Şuşanı mühafizə edir. 1992-ci ilin mayında o vaxtkı Azərbaycan rəhbərliyinin və hakimiyyət uğrunda mübarizə aparan AXC-Müsavat cütlüyü-

nün xəyanəti nəticəsində Şuşa işğal altına düşdü. O vaxt ermənilər öz dırnaqarası əməliyyatına bir ad vermişdilər – dağlarda toy. Halbuki heç əməliyyat da keçirilməmişdi. Şuşa şəhəri boşaldılmışdı. O vaxtkı müdafiə naziri demişdi ki, Şuşa əldən getsə, başıma güllə çaxacağam, qorxaqcasına Şuşadan qaçmışdı. Ondan sonra isə ermənilər guya bu əməliyyat haqqında əfsanələr uydurmuşdular – dağlarda toy. İndi biz onlara elə toy tutmuşuq ki, onlar bu dərsi əbədi yadda saxlayacaqlar. Qəhrəman Azərbaycan övladları mükəmməl hərbi əməliyyat keçirərək cəsarət, rəşadət, qəhrəmanlıq, güc, milli ruh nümayiş etdirərək Şuşanı işğalçılardan azad etmişlər və uzun fasilədən sonra noyabrın 8-də Şuşada Azərbaycan bayrağı qaldırılmışdır.

Bakıda möhtəşəm Dövlət Bayrağı Meydanı açılanda mən çıxış edərkən demişdim ki, gün gələcək və Azərbaycan bayrağı işğal edilmiş torpaqlarda, o cümlədən Şuşada qaldırılacaqdır. Bax, bu gün gəldi. Xatırlayıram, erməni separatçı rejiminin bəzi dırnaqarası nümayəndələri o vaxt demişdilər ki, ancaq bir halda Azərbaycan bayrağı Şuşada qaldırıla bilər, o da əgər Azərbaycan "Dağlıq Qarabağ respublikası"nı tanısa və Azərbaycan Dağlıq Qarabağda öz səfirliyini açsa. Görün, nə qədər iyrənc, nə qədər təkəbbürlü ifadələr işlədilib. İndi siçan kimi oturublar, dillərini qoyublar qarınlarına. Bir kəlmə də söz deyə bilmirlər. Biz buraya qalib kimi gəlmişik, bayrağı da qaldırmışıq, azad edilmiş bütün torpaqlarda Azərbaycan bayrağı dalğalanır. Döyüşə-döyüşə gəlmişik. Heç kim bu torpaqları bizə elə-belə verməyib. Heç bir danışıqlar heç bir əhəmiyyətə malik deyildi. Biz gördük ki, ancaq öz gücümüzlə öz torpaqlarımızı azad etməliyik və bunu etdik. Bütün dünyaya gücümüzü sübut etdik, göstərdik, düşmənin başını əzdik. Düşməni məcbur etdik ki, qabağımızda diz çöksün, kapitulyasiya aktına imza atsın. Belə də oldu və alçaldıcı kapitulyasiya aktı tarixdə əbədi qalacaq. Bütün dünya bizim Qələbəmizdən danışır. Bütün dünyanın aparıcı media orqanları Azərbaycanın parlaq qələbəsi haqqında yazırlar, reportajlar hazırlayırlar. İndi analitik məqalələr dərc edilir, kitablar da yazılacaq.

Bizim şanlı Ordumuzun 44 günlük müharibəsi XXI əsrin müharibəsidir. Biz bu müharibəyə hazırlaşırdıq və bunu gizlətmirdik. Mən dəfələrlə demişdim ki,

o cümlədən hərbçilərlə görüşlərimdə, çoxsaylı görüşlərimdə, əgər düşmən torpaqlarımızdan öz xoşu ilə çıxmasa, məcbur edəcəyik onları, qovacağıq torpaqlarımızdan, güc amili öz rolunu oynayacaqdır və belə də oldu, 44 günlük müharibənin hər bir günü zəfər günü idi. Hər gün biz qabağa gedirdik. Bir gün belə geri addım atmadıq. Bu, müharibələrdə çox nadir hallarda müşahidə edilən bir mənzərədir. Müharibələrdə hücumlar olur, geriyə çəkilmə olur, manevrlər olur, biz isə hər gün qabağa gedirdik. Hər həftə onlarla yaşayış məntəqəsini işğalçılardan azad edirdik. Nəticədə düşmənə sarsıdıcı zərbələr endirərək 300-dən çox yaşayış məntəqəsini və Şuşanı azad etdik. Onları məcbur etdik və cəmi 20 gün ərzində Ağdam, Laçın və Kəlbəcər rayonlarından qoşunlarını çıxardılar, rədd oldular bizim torpaqlarımızdan və biz qayıtmışıq. Müharibə başlayan gündən mən deyirdim ki, rədd olun bizim torpağımızdan, dərhal öhdəlik götürün. Özü də demişdim ki, bu öhdəliyi Ermənistan rəhbərliyi götürməlidir, deməlidir, tarix verməlidir ki, filan tarixdə mən torpaqlardan çıxıram, mən də müharibəni dayandırıram. Əks-təqdirdə, sona qədər gedəcəyik. Bütün təzyiqlərə, bütün telefon zənglərinə, bütün təhdidlərə baxmayaraq, dedim ki, sona qədər gedəcəyik, düşməni torpaqlarımızdan qovacağıq. Etdik də, getdik də, qovduq da və düşmən məcbur olub noyabrın 10-da kapitulyasiya aktını imzaladı və beləliklə müharibəyə son qoyuldu.

Bu müharibə bizim tariximizdə əbədi yaşayacaq. Bu müharibəni biz şəhidlərimizin canı, qanı bahasına, hərbçilərimizin şücaəti hesabına qazanmışıq. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Allah onların yaxınlarına səbir versin! Bütün şəhid ailələri dövlət tərəfindən qayğı ilə əhatə olunub. Bütün şəhid ailələrinə dövlət tərəfindən mənzillər, evlər veriləcəkdir. Artıq bu ildən başlayaraq göstəriş verildi. Şəhid ailələri üçün müavinət 300 manatdan 500 manata qaldırıldı və daim o ailələr diqqət mərkəzində olacaqlar. Birinci Qarabağ müharibəsində həlak olmuş 9 min şəhidin ailəsinə dövlət artıq mənzillər, evlər vermişdir. Yaralı hərbçilərimiz dövlət tərəfindən qayğı ilə əhatə olunub. Əlil olmuş hərbçilərin reabilitasiyası, onların müasir protezlərlə təmin edilməsi məsələsi öz həllini tapacaq. Müharibədə qəhrəmanlıq göstərmiş minlərlə hərbçi mənim tərəfimdən yüksək

orden və medallarla təltif edilib. "Vətən Müharibəsi Ordeni" Azərbaycanın ən ali hərbi ordenidir. "Zəfər" ordeni, "Qarabağ" ordeni. Bütün bu ordenlərin adlarını mən özüm təklif etmişəm. Qəsəbələrimizin, şəhərlərimizin azad edilməsi işində fərqlənmiş hərbçilərə o rayonların adlarını daşıyan medallar verilib. Ordumuz Şuşaya qədər qələbə yolu ilə, uğurla gedərək Cəbrayıl, Füzuli, Xocavənd rayonlarını, Suqovuşan, Hadrut qəsəbələrini, Murovdağ silsiləsini, Laçın rayonunun cənub hissəsini, Qubadlı, Zəngilan rayonlarını azad edib və noyabrın 8-də Şuşa şəhərini azad edib. Noyabrın 9-da düşmən təslim olub, ağ bayraq qaldırıb, diz çöküb və öz məğlubiyyətini etiraf edib.

Biz qalib xalqıq. Mən Şuşaya son dəfə 39 il bundan əvvəl gəlmişəm. 39 il bundan əvvəl iki dəfə gəlmişəm və birinci dəfə yanvarın 14-də gəlmişəm. Bax, bu gün, yanvarın 14-də yenə də buradayıq. Bu dəfə müzəffər Azərbaycan Ordusunun, qalib Azərbaycan Ordusunun Ali Baş Komandanı kimi gəlmişəm. Düşmənin belini qıran Ordunun Ali Baş Komandanı kimi gəlmişəm və burada müqəddəs bayrağın altında, qəhrəman hərbçilərin önündə deyirəm ki, biz bu torpaqlarda əbədi yaşayacağıq! Biz Şuşanı və dağıdılmış bütün başqa şəhər və kəndlərimizi bərpa edəcəyik. Dağıdılmış bütün tarixi abidələrimizi bərpa edəcəyik. Ermənistan saxtakarlıq edərək bütün dünyaya Şuşa haqqında uydurmalar çatdırırdı ki, guya Şuşa onların qədim şəhəridir. Pənahəli xanın saldığı şəhər necə erməni şəhəri ola bilər?! Axı, bu, yaxın tarixin işidir, hadisələridir. Əgər onlar bu şəhəri öz şəhəri hesab edirdilərsə, nə üçün belə bərbad vəziyyətə qoydular, nə üçün bütün binaları dağıtdılar? Görün, nə gündədir bu şəhər?! Daş üstə daş qalmayıb 30 il ərzində, ancaq özləri üçün villalar tikdiriblər, özləri üçün şərait yaradıblar.

Biz bu şəhəri bərpa edəcəyik. Mənim göstərişimlə böyük bir qrup ezam edildi, bütün təhlil aparıldı. Dünən mənə ilk dəfə olaraq məruzə edildi, artıq müvafiq göstərişlər verilibdir. Yaxın zamanlarda biz Şuşanın bərpasını planlı şəkildə təmin edəcəyik. Əlbəttə ki, bundan sonra biz Şuşanı göz bəbəyi kimi qorumalıyıq. Bizim hərbçilərimiz, bizim qəhrəman övladlarımız Şuşanı qoruyacaqlar ki, düşmən heç bu tərəfə baxmağa özündə cəsarət tapmasın. Mən demişəm ki, əgər kimsə Ermənistanda revanş haqqında düşünürsə, o, bizim dəmir yumruğumuzu bir daha

görəcək. Bu dəmir yumruq onların belini qırdı, onların başını əzdi. Əgər bizə qarşı hər hansı bir təxribat törədilərsə, cavabımız çox sərt olacaq, çox peşman olacaqlar və yenə də acı məğlubiyyətlə üzləşəcəklər. Heç kim bizim qabağımızda dura bilməz. Bundan sonra həmişə belə olacaq. Azərbaycan Ordusu, xüsusi təyinatlılar, bizim qəhrəman övladlarımız, hərbi birləşmələrin döyüşçüləri Şuşanı və azad edilmiş bütün torpaqları göz bəbəyi kimi qorumalıdırlar ki, düşmən bir daha belə cəhd etməsin. Cəhd edərsə, axırı lap pis olacaq.

Noyabrın 8-də Şəhidlər xiyabanında Azərbaycan xalqına Şuşanın azad edilməsi müjdəsini verərkən çıxışımın sonunda demişdim: Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik! Bu gün eyni sözləri təkrarlayıram. Şuşa bizimdir! Qarabağ Azərbaycandır!

xxx

Hərbçilərlə xatirə şəkli çəkdirildi.

xxx

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Şuşa şəhərindəki Saatlı məscidini ziyarət etdilər.

Dövlətimizin başçısı məscidə "Qurani-Şərif" hədiyyə etdi.

**Prezident İlham Əliyev** dedi:

- Saatlı məscidini ziyarət etdik, dualarımızı etdik, Məkkədən gətirilmiş "Qurani-Şərif"i Saatlı məscidinə hədiyyə etdim. Sonra Aşağı Gövhərağa, Yuxarı Gövhərağa məscidlərində olacağıq. Oraya da müqəddəs Məkkədən gətirdiyim "Qurani-Şərif"i bağışlayacağam. Düşmən bizim azad edilmiş torpaqlardakı dini abidələrimizi işğal dövründə məhv edib, 67 məscidi dağıdıb, yaxud da ki, belə yararsız vəziyyətə salıb. Şuşa işğaldan azad olunandan sonra bizim vətəndaşlar əl gəzdirib, məscidi təmizləyib və müəyyən təmir işlərini görüblər. Ancaq, əlbəttə ki, məscidin əsaslı təmiri bundan sonra aparılacaq, bütün müvafiq göstərişlər

verilib, Heydər Əliyev Fondu bu missiyanı öz üzərinə götürüb. Mehriban xanım bu barədə açıqlama verib və biz bütün tarixi-dini abidələrimizi bərpa edəcəyik.

Bildirməliyəm ki, ziyarət etdiyim Ağdam Cümə məscidinin əsaslı təmiri və bərpası işlərinə start verildi. Artıq mütəxəssislər oraya ezam edildi və yaxın zamanlarda təmirlə bağlı təkliflər veriləcək. Eyni zamanda, Şuşa şəhərinin məscidləri də bərpa ediləcək. Minarənin dağıdılması düşmənin islamofob xislətini göstərir. Ermənistan daim çalışır ki, müsəlman ölkələri ilə münasibətlər qursun, bəzi ölkələrlə münasibətləri inkişaf etdirsin, özünü sanki müsəlman xalqlarına müsbət münasibət bəsləyən bir ölkə kimi qələmə versin. Hamısı yalandır. Əgər buna kimsə bu günə qədər inanıbsa, gəlsin Şuşaya, Ağdama, Füzuliyə, Cəbrayıla, bizim azad edilmiş digər torpaqlara, görsün ki, Ermənistan rəhbərliyi nə günə salıb müsəlman məscidlərini. Hər bir müsəlman üçün müqəddəs olan məbədlərimizi nə günə salıb. Dağıdıb, təhqir edib, donuz saxlayıb, inək saxlayıb, məscidlərimizin üzərində təhqiramiz ifadələr yazdırıb. Belə bir ölkə müsəlman ölkələri ilə dost ola bilərmi? Əlbəttə ki, yox. Mən bunu dəfələrlə bütün beynəlxalq kürsülərdən bəyan edirdim, müsəlman ölkələrinin liderlərinə müraciət edərək həm ikitərəfli formatda, həm çoxtərəfli görüşlər əsnasında, beynəlxalq tədbirlərdə deyirdim ki, Ermənistan müsəlman ölkələri üçün dost ola bilməz, məscidləri bu günə qoyan ölkə müsəlman ölkələri ilə dost ola bilməz. Bu, riyakarlıqdır və Ermənistanı dost ölkə kimi qəbul etmək də riyakarlıqdır, Allahsızlıqdır. Bunu dağıdanla müsəlman ölkələrinin liderləri necə dost ola bilərlər? Cavab versinlər buna. Mənə yox, öz xalqlarına cavab versinlər. Məscidləri dağıdan, oraya inək salan müsəlman ölkələri ilə dost ola bilər? Qoy, onların xalqları buna cavab versinlər.

Biz bütün dinlərin məbədlərini qoruyuruq və qoruyacağıq. Heç kimdə şübhə olmasın. Artıq bunu müstəqillik tarixi də göstərib, müstəqillikdən əvvəlki tarix də göstərib. Bütün dinlərin abidələri bizdə qorunur – kilsələr, sinaqoqlar, o cümlədən erməni kilsəsi Bakının mərkəzində dövlət tərəfindən qorunur, təmir edilib. Onlar nə ediblər? Mən Zəngilanda olarkən dağıdılmış, divarları qalmış məscidin önündəki çıxışımda Azərbaycan xalqına müraciət edərək dedim onlar

nə ediblər, beynəlxalq təşkilatlara müraciət edərək dedim ki, gəlin baxın, hesabatı burada hazırlayın, öz kabinetlərinizdə yox. Ermənistan rəhbərliyinin və onun havadarlarının yalan məlumatlarına inanmayın, gəlin, öz gözlərinizlə baxın nə günə salıblar bizim məscidlərimizi. Sadəcə olaraq, onlar görüntü yaratmaq üçün Yuxarı Gövhərağa məscidini guya bir xarici şirkətlə birlikdə təmir etdiriblər. Bu təmir bizə lazım deyil. Bu təmir riyakarlıq rəmzidir, sadəcə olaraq, görüntü yaratmaqdır ki, guya Ermənistan rəhbərliyi məscidləri təmir etdirir. Əfsuslar olsun ki, bir ölkənin şirkəti bu çirkin əməllərdə onlarla şərik olub. Əlbəttə ki, Yuxarı Gövhərağa məscidinin təmiri qəbuledilməzdir. Çünki bizim icazəmiz olmadan, qanunsuz olaraq torpaqlarımıza gəlib, orada aylarla oturub, Ermənistanın kriminal xunta rejimi ilə əlbir olub bu məscidi guya təmir ediblər. Bizə belə təmir lazım deyil və heç kimi aldatmasın, heç kim bu yalana uymasın. Biz bütün məscidlərimizi yenidən təmir etdirəcəyik, yenidən bərpa edəcəyik və bütün dünya görməlidir ki, mənfur düşmən bizim müqəddəs məbədlərimizi nə günə salıb.

Şuşa işğaldan azad olunandan sonra şəhərin, bütün tarixi binaların bərpa edilməsi prosesinə start verilib. Şuşanı erməniləşdirmə cəhdlərinə son qoyulub. Otuz il onlar çalışırdılar ki, Şuşanı erməniləşdirsinlər, nail ola bilmədilər. Bu, onlar üçün yad şəhərdir, öz şəhəri saysaydılar, bu günə qoymazdılar. Şuşanın əsl sahibləri qayıdıb, biz qayıtmışıq. Şuşa bizimdir! Qarabağ Azərbaycandır!

xxx

Ermənistanın Azərbaycan torpaqlarını, o cümlədən Şuşanı işğal etməsi nəticəsində tarixi, mədəni abidələrimiz dağıdılıb, ev muzeyləri qarət edilib. Onların arasında Xurşidbanu Natəvanın, Üzeyir Hacıbəylinin, Bülbülün Şuşadakı büstləri də var. Güllələnmiş bu büstlər erməni vandalizminin şahidləridir. Prezident İlham Əliyev çıxışlarının birində demişdi ki, ərazi bütövlüyümüz bərpa ediləndən sonra Bülbülün, Natəvanın, Üzeyir Hacıbəylinin büstləri yenə də Şuşada qoyulacaq. Dövlətimizin başçısının bu sözləri artıq reallığa çevrilib. Həmin dahi şəxsiyyətlərin büstləri Şuşada yenidən əvvəlki yerlərinə qoyulub.

Bununla bağlı keçirilən tədbirdə çıxış edən **Prezident İlham Əliyev** dedi:

- Bu gün Şuşaya gələrkən 30 ilə yaxın Bakıda İncəsənət Muzeyinin həyətində saxlanılan dahi şəxsiyyətlərimizin – Xurşidbanu Natəvanın, Üzeyir Hacıbəylinin və Bülbülün büstlərini gətirmişəm. Bu yerdə Mədəniyyət Evi yerləşirdi və Üzeyir bəyin, Bülbülün büstləri məhz bu yerdə qoyulmuşdu. Mənfur düşmən Şuşa Mədəniyyət Evini dağıdıb və dahi şəxsiyyətlərimizin büstlərini güllləbaran edib.

Xurşidbanu Natəvanın büstünü Heydər Əliyev özü şəxsən açmışdır, 1982-ci ilin yay aylarında. Mən də o vaxt atamla birlikdə burada idim. Bax, buradan bir qədər aralı bir yerdə Xurşidbanu Natəvanın büstü qoyulmuşdu. Ermənilər dahi şəxsiyyətlərimizin büstlərini təhqir edəndən sonra onları əridib satmaq, pul əldə etmək üçün Ermənistana aparmışdılar. Görün nə qədər alçaq keyfiyyətli insan olmalısan ki, tarixi şəxsiyyətlərin xatirə büstlərini güllə ilə vurasan, təhqir edəsən, sonra aparıb bunu əritmək istəyəsən. O vaxt Polad Bülbüloğlu bundan xəbər tutmuş və Ulu Öndər Heydər Əliyevə müraciət etmişdi. Görülmüş tədbirlər nəticəsində bu büstlər ermənilərdən alındı. Onu da açıq deməliyəm, pulla alındı. Satdılar onlar. Necə ki, hər şeyi satıblar ömrü boyu. Büstləri də biz pulla almışıq. O vaxt gətizdirdik və onlar İncəsənət Muzeyinin həyətində yerləşdirildi.

Sonra müxtəlif vaxtlarda bəzi insanlar mənə müraciət etmişdilər ki, bəlkə bu büstləri Bakının hər hansı bir yerində qoyaq, orada olsun. Dedim ki, yox. Onları biz ancaq Şuşanı düşməndən azad edəndən sonra gətirib öz yerlərində qoyacağıq və öz yerlərində də qoyduq.

Dahi şəxsiyyətlərimizin büstləri bizim Qələbəmizin rəmzidir. Onların ruhu şaddır. Onlar doğma Vətənə qayıdıblar. Biz qaytarmışıq onları, düşməni qova-qova, düşməni məhv edərək, torpaqlarımızdan rədd edərək, Şuşanı geri alaraq, azad edərək qaytarmışıq. Burada duracaq, Şuşaya gələn hər bir insan yaxından görəcək erməni vəhşiliyini.

Tarixi ədalət bərpa olunur. Biz tarixi ədaləti bərpa edirik - güc hesabına, əzm, iradə hesabına, cəsarət, mətanət hesabına, milli ruh hesabına! Natəvan, Üzeyir bəy, Bülbül milli ruhumuzun təcəssümüdür. Onların əziz xatirəsi bizim qəlbimizdə əbədi yaşayıb və əbədi yaşayacaqdır. Qarabağ Azərbaycandır!

xxx

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva keçmiş Şuşa Rayon Partiya Komitəsinin binasında oldular.

**Prezident İlham Əliyev:** Mənfur düşmən burada özü üçün "meriya" adlı bir qurum yaratmışdı. Bu, Şuşa şəhərinin xunta başçısının qəbul otağı olub. Bu da keçmiş, batmış, gorbagor olmuş qondarma "Dağlıq Qarabağ respublikası"-nın "Şuşi" şəhərinin "icra başçısı"nın otağı idi. "Şuşi" yox, Şuşa. Unutmasınlar, dəmir yumruq yerindədir. Bu otaqda isə quldurlar istirahət ediblər. Bu da onların kitablarıdır, baxın. Bunların yeri zibilxanadır. Hamısı muzey eksponatları olacaq. Kondisioneri söküb aparıblar. Şuşadan qaçanda o qaça-qaçda vaxt tapıb kondisioneri də aparıb oğrular. Buradan meydana mənzərə açılır. Sınmış şüşələr, eyni zamanda, büstlər də buradan görünür.

xxx

Ermənilər Şuşanı tərk edərkən inzibati binalarda da kütləvi oğurluq və talançılığa yol veriblər. Məsələn, bu binadakı bütün kondisionerlər və istilik sistemi avadanlıqlarını söküb aparıblar. Bu, şübhəsiz ki, acgözlüyün, amma həm də oğru xislətinin təzahürüdür. Bu, həm də 30 illik işğal dövründə Azərbaycan xalqının mədəniyyətini vandalizmə məruz qoyanların rəzil aqibətinin göstəricisidir.

xxx

Dövlətimizin başçısı, birinci xanım və qızları Leyla Natəvan bulağı ilə tanış oldular.

**Prezident İlham Əliyev:** 1982-ci ildə atamla birlikdə burada idik, Natəvan bulağının önündə. 39 ildən sonra müzəffər ordunun Ali Baş Komandanı kimi qayıtmışam. Şuşa yenə bizimdir! Şuşa yenə Azərbaycandır!

Dövlətimizin başçısı Şuşa şəhərinin su və elektrik enerjisi təchizatı ilə maraqlandı.

Bildirildi ki, indi şəhər su ilə də, işıqla da normal şəkildə təchiz olunur.

Prezident İlham Əliyev sovet dövründə uşaq sanatoriyası kimi fəaliyyət göstərən, işğaldan sonra ermənilər tərəfindən dağıdılan Natəvan sarayının Xan qızının evi kimi bərpa ediləcəyini bildirdi.

Dövlətimizin başçısı və ailə üzləri Natəvan sarayının önündə xatirə şəkli çəkdirdilər.

xxx

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Bülbülün dağıdılmış ev-muzeyinə də baxdılar.

Bülbülün dağıdılmış büstünü göstərən **Prezident İlham Əliyev** dedi:

- Ermənilərin növbəti vandallığı, növbəti düşmənçiliyi. Görün, dahi Bülbülün büstünü, evini nə günə qoyublar. Cavabını artıqlaması ilə alıblar. Biz onların cavabını döyüş meydanında verdik, bütün şəhidlərimizin qisasını aldıq, onların qanları yerdə qalmadı. Xocalı soyqırımını, mədəni soyqırımı törədən mənfur düşmən döyüş meydanında məğlub oldu, məhv oldu. Əminəm ki, Polad gəlib atasının evini bərpa edəcəkdir.

xxx

Dövlətimizin başçısı, birinci xanım və qızları Leyla Aşağı Gövhərağa və Yuxarı Gövhərağa məscidlərini də ziyarət etdilər.

Prezident İlham Əliyev bu məscidlərə də "Qurani-Şərif" bağışladı.

xxx

Sonra Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Şuşadakı Qazançı kilsəsində oldular.

xxx

Şuşa şəhərində erməni vandalizminə məruz qalan abidələrdən biri də XVIII əsrdə yaşamış Azərbaycan şairi və ictimai-siyasi xadim, Qarabağ xanının vəziri olmuş Molla Pənah Vaqifin muzey-məqbərə kompleksidir. Ümummilli lider Heydər Əliyevin iştirakı ilə 1982-ci ildə Molla Pənah Vaqifin muzey-məqbərə kompleksinin açılışı olub.

Şuşa şəhərinin məşhur yerində - Cıdır düzünə yaxın bir ərazidə böyük şairin məzarı üstündə inşa edilən məqbərə dördkünc quruluşa malikdir və mərmərlə bəzədilmişdi. Burada Vaqifin Şuşa həyatını əks etdirən dövrə aid səksənə yaxın eksponat da sərgilənirdi. 1992-ci ilin may ayında Ermənistan silahlı qüvvələri tərəfindən Şuşa şəhərinin işğal edilməsi nəticəsində kompleksin binası və burada sərgilənən eksponatlar məhv edilib.

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva vaxtilə Molla Pənah Vaqifin büstünün olduğu yerə gəldilər.

**Prezident İlham Əliyev:** Bu da tarixi şəkildir. Heydər Əliyev Vaqifin büstünün önündə. Şəkildə məscidin minarələri də görünür. Vaqifin büstü ermənilər tərəfindən dağıdılıb. Onun yerində belə bir eybəcər dükan tikiblər. Bu, erməni vandalizminin növbəti təzahürüdür, növbəti cinayətdir.

Dövlətimizin başçısı və ailə üzvləri Vaqifin dağıdılmış məqbərəsinə baxdılar.

Məqbərənin qarşısında çıxış edən **Prezident İlham Əliyev** dedi:

- Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə inşa edilmiş Molla Pənah Vaqifin məqbərəsinin düz 39 il bundan əvvəl - 1982-ci il yanvarın 14-də açılışı olmuşdur. Bu tarixi gün mənim yadımdadır. Çünki o vaxt atamla bərabər, bax, bu yerdə mən də durmuşdum. Bu, tarixi videokadrlar da var. Çox şaxtalı, qarlı bir hava idi. Möhkəm qar yağırdı. Amma buna baxmayaraq, bu tədbirə yığışmış insanlar, Azərbaycan ziyalıları heç o soyuğu hiss etmirdilər. Çünki Qarabağ xanının vəziri olan Molla Pənah Vaqifin möhtəşəm məqbərəsi açılırdı. Bu təşəbbüsü Ulu Öndər Heydər Əliyev irəli sürmüşdü, onun rəhbərliyi ilə inşaat işləri aparılmışdı və gözəl, əzəmətli məqbərə ucaldılmışdı.

Xanın vəziri olan insanın şərəfinə o vaxt - sovet dövründə məqbərə ucaltmaq qeyri-adi bir hadisə idi. İndi buna hər kəs təbii hadisə kimi baxa bilər, amma o vaxt - sosializm dövründə xanın vəzirinin şərəfinə məqbərə ucaltmaq doğrudan da fövqəladə bir hadisə idi. Məhz Heydər Əliyevin təkidi və cəsarəti nəticəsində o vaxt Azərbaycan buna nail ola bildi və bu yer də təsadüfən seçilmədi. Molla Pənah Vaqifin qəbri buradadır. Bu məqbərənin yaradılması və açılışı bir tərəfdən Azərbaycan Respublikasının öz tarixinə, Azərbaycan xalqının öz dahi şəxsiyyətlərinə olan hörmətin əlaməti idi. Digər tərəfdən bu məqbərənin Şuşada açılması bir daha təsdiq edirdi ki, Şuşa Azərbaycan şəhəridir.

Dağlıq Qarabağ Muxtar Vilayəti yaradılanda Şuşanı bu vilayətin tərkibinə salmaqla güdülən məqsəd də aydın idi ki, yavaş-yavaş, tədricən burada Azərbaycan izi silinsin, bu ərazi erməniləşdirilsin və azərbaycanlılar öz respublikasının bu ərazisində azlıq təşkil etsinlər. Məqsəd bu idi. Ulu Öndər Heydər Əliyevin dövründə - 1969-1982-ci illərdə onun səyləri nəticəsində, siyasəti nəticəsində, o cümlədən Yevlaxdan, Ağdamdan Xankəndiyə dəmir yolunun çəkilişi, Dağlıq Qarabağda müəssisələrin yaradılması və bu müəssisələrə Azərbaycanın müxtəlif yerlərindən mütəxəssislərin gəlməsi burada milli tərkibin Azərbaycan xalqının xeyrinə xeyli dəyişmişdi və 1982-ci ildə azərbaycanlılar Dağlıq Qarabağ Muxtar Vilayətində əhalinin 25 faizini təşkil edirdi. Əgər o vaxt Heydər Əliyev Azərbaycanda qalsaydı, növbəti 10 il ərzində Dağlıq Qarabağ Muxtar Vilayətində azərbaycanlılar əksəriyyət təşkil edəcəkdilər və beləliklə, heç vaxt burada hər hansı bir münaqişə, yaxud da ki, separatizm meydana çıxa bilməzdi, separatizm baş qaldıra bilməzdi.

Ulu Öndərin uzaqgörənliyi, doğma xalqına bağlılığı, doğma ədəbiyyatına, mədəniyyətinə olan sevgisi, bax, bu məqbərənin tikintisində özünü göstərib. Bir daha demək istəyirəm ki, sovet rəsmi ideologiyasında xanlıqlar antimilli qurum kimi qələmə verilirdi, xanlar ictimaiyyətə düşmən kimi təqdim edilirdi. Sovet dövlətinin rəsmi ideologiyası elə idi ki, sanki Azərbaycan ərazisində mövcud olan xanlıqlar insanları yalnız istismar edirdi. Azərbaycan xalqı sanki gözləyirdi ki, bu xanlıqlar ləğv edilsin və sovet hakimiyyəti yaradılsın. Təbii ki, bu, cəfən-

giyatdır, Azərbaycan xalqı əsrlər boyu azadlıq, müstəqillik eşqi ilə yaşamışdır. Əfsuslar olsun ki, tariximizin böyük əksəriyyəti müstəmləkəçilik formatında keçib. Biz başqa dövlətlərin tərkibində yaşamışıq. Bizi buna məcbur ediblər, zorla, öz xoşumuzla yox.

Ulu Öndər sovet dövründə də milli ruhun yüksək səviyyədə olması üçün çox böyük işlər görürdü. Bu məqbərənin açılışı tarixi hadisə idi. Mən o günü çox yaxşı xatırlayıram. Mən təxminən orada, kənarda durmuşdum, burada atam və görkəmli mədəniyyət xadimləri. Yadımdadır, Azərbaycan və erməni şairləri şeirlər deyirdilər. Hətta erməni şairləri Azərbaycan dilində şeirlər deyirdilər. Bu, bir dostluq bayramı, dostluq tədbiri idi və heç kimin ağlına gələ bilməzdi ki, bir neçə ildən sonra burada separatizm baş qaldıracaq, Ermənistan Azərbaycana qarşı təcavüz edəcək, bizim tarixi şəhərimizi əlimizdən alacaqlar, tarixi abidələrimizi, məscidlərimizi, bu məqbərəni bu günə salacaqlar, Azərbaycan xalqının çoxəsrlik irsini Qarabağ diyarından silməyə çalışacaqlar. Heç kimin ağlına gələ bilməzdi. Mən dəfələrlə demişəm və bir daha deyirəm, əgər Heydər Əliyev 1982-ci ildə Bakıdan Moskvaya getməsəydi, əgər onu Moskvaya təyin etməsəydilər, heç vaxt imkan verməzdi ki, burada separatizm baş qaldırsın, heç vaxt. Ancaq Heydər Əliyev hakimiyyətə gələndə artıq Şuşa işğal altında idi, Kəlbəcər işğal altında idi, Laçın işğal altında idi, Daşaltı işğal altında idi, bütün ətraf bölgələr işğal altında idi və Dağlıq Qarabağla Ermənistan arasında coğrafi bağlantı yaradılmışdı.

Xalq Cəbhəsi-Müsavat hakimiyyəti bunun günahkarıdır. Onlar bu xəyanəti törətdilər, ondan sonra da qorxaqcasına qaçıb gizləndilər, fərarilik etdilər, Şuşanı satdılar. Şuşa kimi alınmaz qalanı düşmənə təslim etdilər ki, Azərbaycandakı o vaxtkı hakimiyyəti yıxsınlar və hakimiyyətə gəlsinlər. Belə də oldu. Şuşanın əldən getməsi o vaxtkı hakimiyyətin süqutuna gətirib çıxardı. Xalq Cəbhəsi bundan istifadə edib Şuşa əldən gedəndən sonra və Laçın düşmənə təhvil veriləndən sonra hakimiyyətə gəldi. Hər kəs bu tarixi görə bilər, bu, yaxın tarixdir. Xalq Cəbhəsi-Müsavat ancaq hakimiyyətə gəlmək üçün xəyanət, satqınlıq, cinayət törədib. Sonra nə edib? Sonra da Azərbaycanda talançılığı dövlət siyasətinə çevirib, rüşvətxorluğu öz ideoloji prinsipi elan edib, satqınlığı, fərariliyi Azərbaycan

xalqının tarixinə bir ləkə kimi yapışdırıb. Xalq Cəbhəsi-Müsavat satqınları xalqımızı dünyanın gözü qarşısında rəzil etmişlər, biabır etmişlər. Ermənistan kim idi ki, biz onlara məğlub olaq? Kim idi? Xalq Cəbhəsi-Müsavat, antimilli ünsürlər Şuşanı düşmənə verdilər, özləri də qaçıb gizləndilər.

Ondan sonra erməni vandalları bizim bütün şəhərlərimizi yerlə-yeksan etdilər. İndi azad edilmiş torpaqlarda olarkən bunu öz gözümlə görürəm və bütün dünya görməlidir. Məscidlərimizi, qəbirlərimizi, tarixi abidələrimizi, bütün binalarımızı yerlə bir ediblər. Bu məqbərəni də yadelli düşmənlər dağıdıblar. Məqbərənin bu hissəsində naxışlar var idi, indi tarixi şəkillər var, hamısı sökülüb talan edilib, məqbərə dağıdılıb.

Onların ürəyində nə qədər düşmənçilik hissi olmalı idi ki, bax, bu vəhşiliyi törətsinlər. Bunu törədən Sarkisyan-Koçaryan cütlüyüdür. Bizim şəhərlərimizi bu günə salan Sarkisyan-Koçaryan cütlüyüdür. Quldurları, Xocalı cəlladlarını, özündən yalançı qəhrəman düzəldənləri biz məhv etmişik. Onların ordusunu biz məhv etmişik. Şuşanı onların ordusunun əlindən biz geri almışıq, qəhrəmanlıq göstərərək, sıldırım qayalardan qalxaraq. Yüngül silahlarla, bıçaqlarla toplara, tanklara qarşı vuruşaraq məhv etdik onların ordusunu. Harada idilər onlar? Qaçıb gizlənmişdilər İrəvanda. Biri burnunu soxmuşdu buraya. Amma beş gündən sonra dovşan kimi buradan qaçdı. O birisi, ümumiyyətlə, heç səsini çıxarmırdı. Üçüncüsü də var, müharibə cinayətkarı - Ohanyan, özü də burada doğulub, bizim torpağımızda. Müharibə dövründə guya Şuşanı müdafiə etməyə gəlmişdi. İti qovan kimi qovduq onu. İndi yenə sülənir Ermənistanda. Ağzını açıb çirkin sözlər deyir. Bizə sataşanın aqibəti nə oldu, onu hər kəs gördü. Heç kim unutmasın bu dəmir yumruğu. Düşmənin belini qırdıq. Lazım olarsa, bir daha qırarıq. Koçaryan-Sarkisyan, Azərbaycan xalqının düşmənləri, siz buranı bu günə saldınız. Mən müzəffər Ordunun Baş Komandanı kimi gəlmişəm və burada durmuşam, öz torpağımda durmuşam. Sizin iziniz də, tozunuz da rədd olub buradan və bir daha olmayacaq, heç vaxt olmayacaq.

Bu gün Dağlıq Qarabağda özünü siyasətçi adlandıran bəzi ünsürlər yenə də baş qaldırmağa çalışırlar. Unutmasınlar, bizim səbrimizlə oynamasınlar, 44 gün-

lük müharibə onların yadından çıxmasın. Yoxsa ordu qurub torpaqları geri alacaq? Gəlin, alın. Gəlin bura, siz buradasınız, yaxındasınız. Gəlin alın, görüm necə alırsınız? İti qovan kimi qovmuşuq sizi, rədd etmişik, cəhənnəmə göndərmişik.

Vaqif Poeziya Günləri bərpa ediləcək. Mən artıq göstəriş vermişəm, bu il keçiriləcək. "Xarıbülbül" festivalı bu il keçiriləcək. Biz artıq Şuşanın bərpasını başlayırıq. İndi baş plan hazırlanır. Bütün binaların təftişi aparılıbdır. Şuşa Azərbaycan dövlətinin mədəniyyət paytaxtı kimi dünyanın ən gözəl şəhərlərinin birinə çevriləcəkdir. Əslində, həmişə belə olub. Sadəcə olaraq, mənfur düşmən bütün tarixi abidələrimizi dağıdıb. Amma biz bərpa edəcəyik. Onların əsl simasını qaytaracağıq. Azərbaycan xalqı Şuşada bundan sonra əbədi yaşayacaq. Şuşa bizimdir! Qarabağ Azərbaycandır!

xxx

Şuşaya səfər çərçivəsində Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Cıdır düzündə də olublar.

Cıdır düzü tarixən cıdır yarışlarının keçirildiyi və Qarabağ xanlığı dövründən yerli əhalinin Novruz bayramını keçirdiyi ərazidir. Bu ərazidə bir çox milli xalq oyunları keçirilirdi. Bu oyunların qalibinə bəzən qızıl pullar, bəzən isə taxıl, buğda, məişət əşyaları verilirdi. Bu düzdə güləş, qaçış, oxatma və sair oyunlar keçirilirdi. Sonralar həmin ərazidə at yarışları, çövkən oyunları keçirildiyinə görə bu ərazini Cıdır düzü adlandırıblar.

**Prezident İlham Əliyev:**

- Bura Cıdır düzüdür. Hər birimiz üçün əziz, doğma Cıdır düzü. Şuşanı Cıdır düzüsüz təsəvvür etmək mümkün deyil, Azərbaycanı isə Şuşasız təsəvvür etmək mümkün deyil. Biz Şuşaya qayıtmışıq, Cıdır düzünə qayıtmışıq və tarixi yerdə bundan sonra muğam səsi eşidiləcək, Azərbaycan mahnıları ifa olunacaq, böyük tədbirlər keçiriləcək, toy-bayram olacaq.

Bir müddət bundan əvvəl işğalçı qüvvələr bizim üçün müqəddəs olan bu yerdə heysiyyətimizə toxunmaq, Azərbaycan xalqını təhqir etmək üçün eybəcər

hərəkətlər etmişlər, - bütün dünya artıq bundan xəbərdardır, - "Yallı" getmişlər. İzi-tozu da qalmayıb burada, rədd etmişik. İndi Cıdır düzü də, Şuşa da, Qarabağ da azaddır. Bu torpağın sahibləri qayıdıblar, əllərində silah, əllərində bayraq, ürəklərində Vətən sevgisi. Vətən sevgisi bizi Qələbəyə gətirdi. Vətən sevgisi, vətənpərvərlik Qələbəmizin əsas amilinə çevrildi.

Mən çox şadam ki, son illər ərzində Azərbaycanda vətənpərvər, güclü, milli ruhda tərbiyə almış gənc nəsil yetişib. On yeddi ildir ki, mən Azərbaycanın rəhbəriyəm. Bu illər ərzində yetişən insanlar bu torpaqları azad etdilər. Bütün nəsillərdən olan vətəndaşlarımızın bu Qələbədə böyük zəhməti var, payı var. Ancaq onu da bildirməliyəm ki, əsas yükü, əsas vəzifəni gənc nəsil yerinə yetirdi. 2003-cü ildə 10 yaşı, 15 yaşı olanların bu gün 27-32 yaşı var. Onların məhz vətənpərvərlik ruhunda tərbiyə alması, düşmənə nifrət hissi bizi Qələbəyə apardı və Azərbaycan tarixi ədaləti bərpa etdi. Gənc nəsil, yaşlı nəsil, təcrübəli insanlar, bütün xalqımız, bütün etnik qrupların nümayəndələri, bütün dinlərin nümayəndələri bir yumruqtək birləşib. Qələbəmizin rəmzi təsadüfən yumruq seçilməyib. Mən demişəm, burada - Cıdır düzündə bir daha demək istəyirəm ki, bu yumruq, həm gücdür, həm birlikdir. Onsuz da bizdə birlik kifayət qədər yüksək səviyyədə idi, bundan sonra daha da güclü olacaq. Birliyi olan ölkələr qələbə qazanırlar. İradəli olan liderlər qələbə qazanırlar. Heç nəyə baxmayan, heç kimdən çəkinməyən, milli maraqları müdafiə edən liderlər qələbə qazanırlar. Azərbaycanın timsalında bunu hər kəs gördü.

Biz Qələbə qazanmışıq, Ermənistan məğlub olub. Biz, eyni zamanda, haqlıyıq. Bizim davamız haqq davasıdır. Ermənistanın davası işğalçılıq davasıdır. Haqq-ədalət zəfər çaldı, güc hesabına, iradə hesabına, siyasət hesabına, birlik hesabına! Eşq olsun Azərbaycan xalqına! Yaşasın Azərbaycan!

xxx

İşğal dövründə ermənilər qondarma "Dağlıq Qarabağ respublikası"nın "parlamentini" Şuşa şəhərinə köçürmək üçün burada bina tikməyə başlamışdı-

lar. Ancaq şanlı Azərbaycan Ordusu düşmənin bu niyyətini puç etdi. Şuşa 2020-ci il noyabrın 8-də işğaldan azad olundu. Qondarma rejimin "parlamenti" binasının inşası yarımçıq qaldı.

**Prezident İlham Əliyev** dedi:

- Qondarma rejim bəyan etmişdi ki, "Dağlıq Qarabağ respublikası"nın "parlamentini" Şuşa şəhərinə köçürəcək. Beləliklə, Şuşa şəhərini erməniləşdirmək üçün növbəti cəhd edilməli idi. Bax, bu binanı onlar "Dağlıq Qarabağ respublikası"nın "parlament" binası kimi inşa etməyə başlamışdılar. Ancaq çatdıra bilmədilər. Biz gəldik, bu torpağın sahibləri gəldi, onları buradan qovdu və beləliklə, onların bu çirkin əməlləri həyata keçmədi. "Parlament" də gorbagor oldu, status da gorbagor oldu, cəhənnəmə getdi. Qarabağ Azərbaycandır!

xxx

Daha sonra Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva erməni vandalizminin qurbanı olmuş Şuşa Realnı Məktəbinin dağıdılmış binası ilə tanış oldular.

**Prezident İlham Əliyev:** Dünyada onlar kimi saxtakar millət yoxdur. Bu bina da bərpa olunacaq.

Qeyd edək ki, Şuşa Realnı Məktəbi dövrünün nümunəvi maarif ocağı sayılırdı. Məşhur Azərbaycan yazıçıları Əbdürrəhim bəy Haqverdiyev və Yusif Vəzir Çəmənzəminli bu məktəbin məzunu olmuşlar.

1992-ci ilin may ayında Şuşa şəhəri işğal edildikdən sonra erməni vandalları Realnı Məktəbini yandıraraq xarabazara çeviriblər.

xxx

Yanvarın 15-də Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva yenidən Cıdır düzünə gəldilər.

**Prezident İlham Əliyev** dedi:

- Bu gün yanvarın 15-də səhər tezdən yenə Cıdır düzünə gəldik. Artıq Şuşadan Bakıya yola düşürük. Getməmişdən əvvəl də istədik gələk bu müqəddəs, tarixi yerə, bir daha bu gözəlliyi seyr edək, Şuşaya "Çox sağ ol", "Gələn görüşlərədək" deyək. Biz qayıtmışıq öz doğma torpağımıza, Şuşanı azad etmişik. Bundan sonra Azərbaycan xalqı Şuşada əbədi yaşayacaq.

Dünən Şuşada bütün tarixi abidələri ziyarət etdik, müqəddəs məscidlərimizi ziyarət etdik. Ürək ağrısı ilə deyə bilərəm ki, burada olan dağıntılar hər bir Azərbaycan vətəndaşının qəlbini incidir. Ancaq Şuşanı dağılmış, amma, eyni zamanda, əyilməmiş, əzəmətli görmək bizi hədsiz dərəcədə qürurlandırır. Şuşa ayaqdadır, Şuşa sınmayıb, Şuşa əyilməyib! Mənfur düşmən nə qədər çalışsa da, Şuşanın simasını dəyişdirə bilməyib. Biz Şuşanın bütün yaralarını sağaldacağıq. Şuşa dünyanın ən gözəl şəhərlərindən birinə çevriləcək.

Biz dünən gecə Şuşada qalmağa qərar verdik, halbuki Bakıya qayıtmalı idik. Ancaq mən hesab etdim ki, mütləq gecə Şuşada qalmalıyıq. Çünki Azərbaycan Prezidenti ilk dəfədir ki, Şuşaya gəlib. Bizim müstəqilliyimizin təxminən otuz yaşı var. Ancaq bu otuz il ərzində birinci dəfə Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan Şuşaya gəlib, Şuşada qalıb və sözün düzü, Şuşadan getmək istəmir.

Şəhərin nadir memarlığı, relyefi, təbiəti, havası, aurası təkrarolunmazdır. Mən dünən qeyd etdiyim kimi, Şuşada iki dəfə 1982-ci ildə olmuşam. O vaxt burada bir neçə kütləvi tədbir keçirilmişdir. Yəni, Şuşanı dünənki kimi, bugünkü kimi, bu formada görmək mənə nəsib olmamışdı. Bir daha gördüm ki, bu şəhərin nadir aurası, təbiəti, memarlığı bizim böyük sərvətimizdir.

Bu gecə cəmi beş saat yatmışam. Saat 5-də oyanmışam, bilmirəm nəyə görə. Bəlkə dünənki gün çox həyəcanlı idi. Çünki Şuşanı görmək, Şuşaya qayıtmaq təkrarolunmaz bir hissdir. Ola bilər, Şuşanın səfalı təbiəti, havası kifayət edir ki, insan heç çox yatmaq da istəmir. Bakıya dönməzdən əvvəl yenidən gəlmişəm buraya, Cıdır düzünə, Şuşanın tarixi yerinə ki, bir daha Azərbaycan xalqına öz sözümü deyim. Deyim ki, biz xoşbəxt xalqıq, biz öz ərazi bütövlüyümüzü bərpa etmişik. Xoşbəxt xalqıq ki, özümüzü müstəqil dövlət kimi təsdiq etmişik. Bir

daha deyim ki, Şuşa bizimdir! Qarabağ Azərbaycandır!

xxx

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Cıdır düzündə çay süfrəsinə qonaq oldular.

**Prezident İlham Əliyev:** Cıdır düzündə armudu stəkanda çay, paxlava ilə. Dostlarımız sevinsin, düşmənlərin gözü kor olsun!

***https://azertag.az***

## Birinci vitse-prezident Mehriban Əliyeva rəsmi “Instagram” səhifəsində Şuşa şəhərinə səfərdən görüntülər paylaşıb

16.03.2021

Birinci vitse-prezident Mehriban Əliyeva rəsmi “Instagram” səhifəsində Şuşa şəhərinə səfərdən görüntülər paylaşıb.

AZƏRTAC-ın məlumatına görə, paylaşımda deyilir:

"Əziz bacılar və qardaşlar!

Bu gün - Torpaq çərşənbəsi günündə biz yenidən doğma Şuşa şəhərimizi ziyarət etdik. Səfərimizin görüntülərini böyük məmnuniyyətlə sizinlə paylaşıram. Hər birinizə möhkəm cansağlığı, uzun ömür, xoşbəxtlik və əmin-amanlıq arzulayıram! Vətən uğrunda həlak olmuş bütün şəhidlərimizə Allahdan rəhmət diləyirəm! Uca Tanrı sizi və doğmalarınızı qorusun!

Dərin hörmət və sevgilərlə,

Sizin MEHRİBAN"

***https://azertag.az***

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşa şəhərində olublar

17.03 2021

Xəbər verildiyi kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva martın 16-da Şuşa şəhərində olublar.

AZƏRTAC xəbər verir ki, **Prezident İlham Əliyev** dedi:

- Dünən Azıxdan çıxdıq Şuşaya gəldik. Yollar hələ ki, çox bərbad vəziyyətdədir, çünki yol yoxdur, Zəfər yolu ilə gəlmişdik. Hələlik ancaq torpaq yoludur, çünki havalar soyuq keçir, asfalt döşəmək mümkün deyil. Palçıq idi və güclü duman var idi. Ona görə Azıxdan Şuşaya 1 saat 45 dəqiqəyə gəldik. Gecə Şuşada qaldıq. Səhər saat 9-da çıxmışıq və gedirik, bir neçə tədbir var. Hava açıqdır, ancaq yenə də buludlar şəhərin üstündədir.

Keçən dəfə yanvar ayında gəlmişdik. Natəvanın, Üzeyir Hacıbəylinin və Bülbülün büstlərini Şuşaya qaytardıq. Bu gün bir daha Şuşaya gəlmək insana böyük zövq verir. Sol tərəfdə Şuşanın qarlı, dumanlı dağlarıdır.

Vaqifin məqbərəsində tezliklə bərpa işləri başlanacaq. Məqbərənin əvvəlki görkəmi bərpa ediləcək. Bu gün bərpa işlərinə start veriləcək.

Məscidlərin bərpası ilə bağlı artıq müvafiq göstərişlər verildi. İlkin araşdırmalar başlanıldı və yaxın gələcəkdə layihə təqdim ediləcək.

Şuşa bütün mövsümlərdə gözəldir.

Bulaqları da bərpa edəcəyik. Otuz il ərzində ermənilər bütün bulaqlarımızı qurudublar. Görün, şəhər nə gündədir, düşmən Şuşanı nə günə salıb.

Vaqifin məqbərəsinə yaxınlaşırıq. Artıq işlərə start verilib. Layihəyə baxmışam. Bax, burada, fotoşəkillər də var. Ulu Öndər Heydər Əliyev burada olarkən həm açılışda, həm də Vaqif poeziya günündə iştirak edib. Tarixi bərpa edirik. Bu layihəni Heydər Əliyev Fondu öz vəsaiti hesabına icra edəcək, Heydər Əliyev Fonduna xas olan zövqlə, Mehriban xanımın rəhbərliyi ilə.

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Şuşada Molla Pənah Vaqifin muzey-məqbərə kompleksinə gəldilər.

Prezidentin köməkçisi Anar Ələkbərov dövlətimizin başçısına və birinci xanıma bu kompleksin bərpası layihəsi ilə bağlı məlumat verdi. Bu layihə Heydər Əliyev Fondu tərəfindən həyata keçiriləcək. Layihənin icrası zamanı məqbərənin əvvəlki vəziyyətinin bərpasına xüsusi diqqət yetiriləcək. 1992-ci ildə ermənilər Şuşanı işğal edərkən bu abidəni də vəhşicəsinə dağıdıblar.

**Prezident İlham Əliyev:** Mən bu şəkilləri arxivdən tapmışdım. Vaqif poeziya günləri keçirilir, 1982-ci ilin yay ayında. Məqbərənin önündə Ulu Öndər Heydər Əliyev. İnsanlar da bax, burada, bu tədbirdə iştirak edirdilər. Keçən dəfə burada olarkən bu yerə fikir verdim və dedim ki, arxivdən şəkillər tapılsın, burada nə olub və bu şəkil tapıldı. Görürsünüz, Vaqifin təsviri bax, bu divarda olmuşdur. Mənfur düşmən bunu da sökdü, bu mərməri də sökdü. Bu da qəbirin üstündə sinə daşı idi. Vandal erməni bunu da söküb. Bunu bərpa edəcəyik. Ulu Öndərin o vaxt Şuşaya səfəri ilə əlaqədar daha bir neçə şəkil tapmışam arxivdən, mən də buradayam. Bu da Cıdır düzündə. Bunu bir dəfə göstərmişdim, Natəvan bulağının önündə. Bir şəkil də var, onu da göstərməliyəm. Burada Vaqifin büstü də var idi. Keçən dəfə Şuşada olarkən mən göstərdim ki, ermənilər büstü söküb dükan tikiblər. Bax, budur. Vaqifin büstü, Ulu Öndər də baxır. Bu büstü də bərpa edəcəyik.

Sonra dövlətimizin başçısı, birinci xanım və Leyla Əliyeva Pənahəli xanın sarayının qalıqlarına baxdılar. Bu tikili Şuşa şəhərinin tarixi mərkəzində yerləşir və Qarabağ xanlığının banisi Pənahəli xanın iqamətgahı olmuş tarixi saray idi. Erməni vandalları işğal zamanı bu tarixi binanı da dağıdıblar.

**Prezident İlham Əliyev:** Bura Pənahəli xanın sarayı olub. Şuşanı quran, Şuşanı salan Pənahəli xan özü üçün burada saray tikdirib. İndi görün, ermənilər nə günə salıblar bu sarayı. Tarixi abidə idi. Mənfur düşmən gəlib bizim torpağımızı zəbt edib, insanları qovub, tarixi abidələrimizi dağıdıb, söküb, vandallıq edib, barbarlıq edib.

Bütün beynəlxalq təşkilatlar gəlsinlər, görsünlər bunu. Erməniləri müdafiə edən, onları dəstəkləyən, onlara həmişə arxa, dayaq olan dairələr gəlsinlər, gör-

sünlər bu vəhşilər nə ediblər.

Azad edilmiş torpaqlar erməni vəhşiliyinin şahididir. Dünya tarixində buna oxşar vəhşilik bəlkə də olmamışdır. Gələsən, başqasının torpağında yaşayasan, sonra fürsətdən istifadə edib buradan yerli əhalini qovasan, öldürəsən, yandırasan, soyqırımı törədəsən. Sonra da o xalq ki, sənə qucaq açıb, səni qəbul edib, sənə burada yaşamağa imkan verib, onun tarixi abidəsini bax, bu günə qoyasan. Vəhşilik. Mən deyəndə ki, sanki vəhşi qəbilə keçib buradan, bax, bu mənzərəni nəzərdə tuturam.

Sonra Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Molla Pənah Vaqifin büstünün qoyulacağı əraziyə gəldilər.

Molla Pənah Vaqifin büstünün bərpası layihəsi də Heydər Əliyev Fondu tərəfindən icra olunacaq.

**Prezident İlham Əliyev:** Bu, postamentin bünövrəsidir. Ermənilər dağıdıblar, biz bərpa edəcəyik.

Erməni vandalları işğal zamanı Şuşa şəhərinin mərkəzi meydanında yerləşən, XIX əsrə aid Karvansaray tarix-memarlıq kompleksini də dağıdıblar.

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Karvansaray tarix-memarlıq kompleksinə baxdılar.

Dövlətimizin başçısına burada görüləcək işlərlə bağlı məlumat verildi.

Şəhərdə erməni vəhşiliyi ilə üz-üzə qalan tikililərdən biri də Şuşa Dövlət Rəsm Qalereyasının binasıdır.

Qalereya 1982-ci ildə yaradılıb və işğal dövrünədək - 1992-ci ilədək fəaliyyət göstərib.

**Prezident İlham Əliyev:** Bura Şuşa şəhərinin rəsm qalereyası olub. Azərbaycan hökuməti burada qalereya təşkil etmişdi. İşğal zamanı düşmənlər buradan öz məqsədləri üçün istifadə etmişlər. İndi tamamilə yenidən bərpa ediləcək və yenə də rəsm qalereyası kimi fəaliyyət göstərəcək.

Sonra Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva "Qarabağ" mehmanxanasında aparılacaq təmir-bərpa işləri ilə tanış oldular. Mehmanxana ötən əsrin 80-ci illərinin əvvəllərində inşa edilib. Bina

baxımsızlıqdan tamamilə yararsız vəziyyətə düşüb. Burada görüləcək işlər nəticəsində mehmanxana müasir səviyyəyə çatdırılacaq və Şuşa şəhərinə səfər edəcək qonaqların rahatlığı üçün bütün şərait yaradılacaq.

Dövlətimizin başçısına və birinci xanıma Şuşa şəhərində tarixi-dini abidələrin bərpası ilə bağlı görülən işlər haqqında məlumat verildi.

**Prezident İlham Əliyev:** Otelin otaqları belə olacaq. İşğal dövründə oteli də demək olar ki, dağıdıblar, burada cəmi bir mərtəbə işləyib. Pis vəziyyətdə idi, qısa müddət ərzində şourum kimi hazırlanıb. Otelin bütün otaqları bu stildə olacaq.

“Qarabağ” otelində gedən yenidənqurma işləri ilə tanış olduq. İşğal dövründə otel faktiki olaraq fəaliyyət göstərmirdi, cəmi bir, ya iki mərtəbə fəaliyyət göstərirdi. Bu otel də sovet dövründə Azərbaycanın büdcəsi hesabına tikilmişdir və ona “Qarabağ” adı verilmişdir. Sonra mənfur düşmən otelin adını dəyişdirib “Şuşi palace” qoyub. “Şuşi” adlı bir şəhər yoxdur, olmayıb və heç vaxt olmayacaq.

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Şuşa Xalça Muzeyində də oldular. Qarabağ xalçaçılıq sənəti ənənələrinin öyrənilməsi, qorunması və yaşadılması məqsədilə yaradılan bu muzey də işğal zamanı ciddi ziyan görüb.

Dövlətimizin başçısı, birinci xanım və Leyla Əliyeva Şuşada Park otelin yerləşəcəyi binaya da baxdılar. Yenidənqurmadan sonra otel qonaqlarını müasir səviyyədə qarşılaya biləcək.

**Prezident İlham Əliyev:** Burada keçmiş sanatoriya korpusu olub. İşğal dövründə buradan kiçik otel kimi istifadə etmişlər, amma çox primitiv qaydada. Çox biabırçı bir şərait var idi. İndi yenidən bərpa edilir. Bu da şourumdur, otelin otaqları bax, belə olacaq və bu il otel artıq istifadəyə veriləcəkdir.

Prezidentin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov dövlətimizin başçısına icra olunacaq layihələrlə bağlı məruzə etdi.

Dövlətimizin başçısı Şuşada görüləcək işlərlə əlaqədar tapşırıq və göstərişlərini verdi.

**Prezident İlham Əliyev:** Şuşa sanatoriyasına da baxış keçirdik. Orada da korpusların bir çoxu ermənilər tərəfindən dağıdılıb. Amma bəzi korpuslardan

istifadə etmək mümkün olacaq. Burada da kiçik otellərin yaradılması nəzərdə tutulur. Nəzərə almalıyıq ki, Şuşaya çox böyük turist axını olacaq, ona görə burada "beş", "dörd" və "üç" ulduzlu otellər olmalıdır.

Buradan da şəhərə, şəhərin ətrafında yerləşən dağlara gözəl mənzərə açılır. Amma bir daha görürük, ermənilər burada demək olar ki, bir dənə də bina tikməyiblər. Bəlkə bu binanı tikiblər, bu da eybəcər bir tikilidir. Ancaq sovet vaxtında Azərbaycan tərəfindən tikilmiş binalardan istifadə etmişlər, azərbaycanlıların evlərində yerləşmişlər. Bütün bu evlər sovet vaxtından qalan evlərdir, "xruşşovka"lardır. Bunlar da öz müddətini çoxdan bitiriblər. Bu binaların vəziyyətinə indi diqqət yetirilməlidir.

Şuşada işğal dövründə təxminən 2000 adam yaşayırdı, onların da böyük hissəsi hərbçilər və onların ailə üzvləri idi. Ona görə də bu binaların böyük hissəsi boş qalmışdır. Baxın, burada bir dənə normal vəziyyətdə bina var, yoxsa yox?

Ermənilər Şuşanı erməni şəhəri kimi qələmə vermək istəyirlər. Halbuki, Şuşanın təməlini qoyan Pənahəli xan olub və həmişə burada azərbaycanlılar yaşayıb. Yaxşı, erməni şəhəri idisə, niyə əl gəzdirməmisiniz?. Şuşa kimi mənzərəsi, təbiəti olan şəhəri belə günə salmaq vəhşilikdir. Azərbaycanlıların evlərini dağıdıblar və hesab edirdilər ki, bu işğal əbədi olacaq. Biz işğala son qoyduq.

Mən demişəm ki, Şuşa nəinki Azərbaycanın, dünyanın ən gözəl şəhərlərindən birinə çevriləcəkdir və buna nail olacağıq, 100 faiz. Bu da Realnı məktəbin dağılmış binasıdır, görün, ermənilər bu binanı nə günə salıblar. Sol tərəfdə də mənə verilən məlumata görə, internat məktəbi olub. Bunu da dağıdıblar, ancaq fasad hissəsi qalıb.

Biz artıq Şuşadan ayrılırıq, ancaq yenə də ayrılmaq istəmirik. Şuşa insanı özünə o qədər cəlb edir ki, buraya gələnlər qayıtmaq, getmək istəmirlər. Ancaq indi biz Bakıya qayıtmalıyıq. Yolüstü Daşaltı kəndində dayanacağıq. O, kəndə də baxacağıq. Ondan sonra istiqamət Bakı şəhəridir.

**Birinci xanım Mehriban Əliyeva:** Hava günəşli, açıq, mavi səma.

**Prezident İlham Əliyev:** Şuşaya "hələlik" deyirik. Şuşanın girişində Azərbaycan bayrağı dalğalanır və bundan sonra əbədi dalğalanacaqdır. Aşa-

ğıda da Laçın dəhlizidir. Hava da yenə bizimlə həmrəydir. Günəş yolumuzu işıqlandırır. Bura isə Şuşa yarımstansiyasının binasıdır. Bu bina qısa müddət ərzində inşa edildi və Şuşanı dayanıqlı enerji ilə təchiz edəcəkdir. Keçən dəfə də yanvar ayında Şuşaya gələndə, Şuşaya yaxınlaşanda hava açıldı, Günəş bizi salamladı.

Buradan da Şuşanın qayaları gözəl görünür. Çünki biz haqq yolundayıq, işimiz də haqq işidir. Təbiət də bizi salamlayır. Çünki bu Azərbaycan təbiətidir.

Bura isə Daşaltı kəndidir. Daşaltı kəndi ilə də tanış olacağıq.

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Şuşa rayonunun Daşaltı kəndinə gəldilər.

**Aydın Kərimov:** O, Böyük Kirs dağıdır. Şuşanın su mənbələrindən biri onun ətəyindən gəlir.

**Birinci xanım:** Bu, yeni Daşaltı hesab olunur?

**Aydın Kərimov:** Bəli.

**Birinci xanım:** O da köhnə Daşaltı.

**Prezident İlham Əliyev:** Bizim hərbçilər oradan gəliblər.

Həm sağ tərəfdə, həm də sol tərəfdə Daşaltı kəndinin gözəl mənzərəsidir. Daşaltı kəndi də işğalçılardan azad edilib. Məhz bizim müzəffər Ordumuz Daşaltıdan qalxaraq, sıldırım qayaları qət edərək Şuşaya daxil oldu. İrəlidə də Böyük Kirs dağıdır. Azərbaycanın gözəl təbiəti gözümüzün önündədir. Hansı tərəfə baxsan gözəllik, yaşıllıq. Bura Azərbaycan torpağıdır, Qarabağ torpağıdır. Bundan sonra Azərbaycan xalqı burada əbədi yaşayacaq.

xxx

Erməni qəsbkarlar tərəfindən 1992-ci ildə işğal olunan Daşaltı kəndi də hərtərəfli terrora məruz qalıb. Prezident İlham Əliyev kəndin bərpası ilə bağlı tapşırıqlarını verdi.

***https://azertag.az***

## Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müraciəti

20.03.2021

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Şuşada Cıdır düzündə bayram tonqalı alovlandırıblar.

Sonra dövlətimizin başçısı müraciət edib. AZƏRTAC müraciəti təqdim edir:

- Əziz bacılar və qardaşlar, mən sizin hamınızı Novruz bayramı münasibətilə ürəkdən təbrik edirəm! Bütün Azərbaycan xalqına cansağlığı, xoşbəxtlik arzulayıram!

Biz bu il Novruz bayramını Şuşada, Cıdır düzündə qeyd edirik. Bu, tarixi hadisədir. 2004-cü ildən başlayaraq, hər il mən Azərbaycan xalqını Novruz bayramı münasibətilə təbrik edərkən deyirdim ki, biz öz doğma torpaqlarımıza qayıdacağıq. Deyirdim ki, biz ölkəmizin ərazi bütövlüyünü bərpa edəcəyik. Deyirdim ki, biz Novruz bayramını torpaqlarımız işğaldan azad olunandan sonra Qarabağda qeyd edəcəyik və bu gün gəldi. Bu gün biz Novruz bayramını qədim şəhərimizdə, Azərbaycanın mədəniyyət paytaxtı Şuşada qeyd edirik. Bu, tarixi hadisədir. Bu, böyük xoşbəxtlikdir. Allah Azərbaycan xalqının dualarını eşitdi. Hər il Novruz bayramı ərəfəsində hamımız yəqin ki, fikirləşirdik, bir-birimizə deyirdik, inşallah, gələn il Novruz bayramını Qarabağda qeyd edək, gələn il Novruz bayramını Şuşada qeyd edək və bu gün gəldi. 28 ildən sonra biz Şuşaya qayıtdıq. Novruz bayramını Cıdır düzündə qeyd edirik, tarixi ədaləti bərpa etmişik.

Noyabrın 8-də Şuşanın azad olunması ilə bağlı müjdəni Azərbaycan xalqına verərkən demişdim ki, Şuşa, sən azadsan! Bu gün azad Şuşada biz öz milli bayramımızı – Novruz bayramını qeyd edirik. Şuşa 28 il əsarətdə idi. 28 il mənfur düşmən tərəfindən dağıdılırdı, məhv edilirdi. Şuşanın tarixi siması dağıntılara məruz qalırdı. Düşmən Şuşanı erməniləşdirmək istəyirdi. Şuşada Azərbaycan

xalqının irsini silmək istəyirdi. Ancaq buna nail ola bilmədi. Bəli, Şuşa dağıntılara məruz qaldı, Şuşada tarixi abidələrimiz mənfur düşmən tərəfindən dağıdıldı. Ancaq Şuşa əyilmədi, sınmadı, öz ləyaqətini qorudu, Azərbaycanın milli ruhunu qorudu və bu gün Şuşada olarkən bir daha bunun canlı şahidi oluruq. Şuşa Azərbaycan xalqının ruhunu qoruya bildi və bizi gözləyirdi. Biz də gəlməli idik və gəlmişik. Ancaq gəlmək üçün güc toplamalı idik, gəlmək üçün hazırlıq işləri aparılmalı idi. Bütün istiqamətlər üzrə hazırlıq işləri aparılmalı idi və aparılırdı. Biz ölkəmizin inkişafını təmin etməli idik. Xalqımızın birliyini təmin etməli idik. Vətəndaş müharibəsindən çıxmış ölkə üçün, xalq üçün bu, o qədər də asan məsələ deyildi. Vətəndaş müharibəsindən sonra bu günə qədər ölkədə gedən proseslər xalqımızı vahid ideya uğrunda, vahid amal uğrunda, torpaqlarımızın azad edilməsi amalı uğrunda birləşdirdi. Biz bu milli birliyi, milli həmrəyliyi təmin edə bildik. Bu, olmasa idi, bu Qələbə də olmayacaqdı.

Biz Qarabağ münaqişəsi ilə bağlı həqiqətləri beynəlxalq müstəvidə dünya ictimaiyyətinə çatdırmalı idik və çatdıra bildik. Beynəlxalq təşkilatlarda fəal işləyirdik və bizə sərf edən, həqiqəti əks etdirən, beynəlxalq hüququ əks etdirən, ona əsaslanan vacib qərar-qətnamələri qəbul etdirə bildik. Bu, Qələbəmizin hüquqi əsası idi, haqq-ədalətin bərpasının hüquqi əsası idi. Biz iqtisadi güc toplamalı idik və topladıq. Son illər ərzində Azərbaycan qədər sürətlə inkişaf edən ölkə bəlkə də dünyada yoxdur. Biz hərbi güc toplamalı idik və bu istiqamət birinci dərəcəli vəzifə idi. Təsadüfi deyil ki, mənim prezidentlik dövrümdə hərbi xərclər hər zaman birinci yerdə idi və bunu mən deyirdim, bəyan edirdim ki, biz hərbi xərclərimizi bundan sonra da artırmalıyıq. Biz müharibəyə hazırlaşmalıyıq, hazırlaşırıq. Açıq deyirdim bütün dünyaya və deyirdim ki, əgər düşmən öz xoşu ilə torpaqlarımızdan çıxmasa, biz düşməni qovacağıq. Belə də oldu.

Biz güclü ordu yaratmışıq. Peşəkar ordu yaratmışıq. Qəhrəman ordu yaratmışıq. Hərbçilərimiz ən yüksək qiymətə layiqdirlər. Biz müharibə dövründə şəhidlər vermişik. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Allah onların yaxınlarına səbir versin. Biz Şuşanı qan tökərək azad etmişik, Şuşa uğrunda ciddi döyüşlər gedirdi. Laçın dəhlizi boyunca işğalçıların qalıqları səpələnmişdi, yüzlər-

lə, bəlkə də minə qədər işğalçı Şuşa döyüşlərində məhv edildi. Hərbçilərimiz sıldırım qayalardan qalxaraq, dərədən-təpədən, Xocavənd meşələrindən, cığırlardan keçərək yüngül silahlarla Şuşaya gəldilər. Yüngül silahlarla, tapançalarla, süngü-bıçaqla mübarizə apardıq. Amma bizə qarşı burada toplardan, tanklardan istifadə olundu. Amma düşmən bizim gücümüzü gördü, iradəmizi gördü, milli ruhumuzu gördü və məğlub oldu. Şuşanın azad edilməsi Vətən müharibəsində xüsusi yerə malik olan hadisədir. Şuşa bizim hədəfimiz idi və biz bu hədəfə doğru gedirdik. Şuşaya qədər azad edilmiş bütün torpaqlarda Azərbaycan Ordusunun yerləşməsi Şuşanın azad olunmasını da şərtləndirmişdi. Cəbrayıl rayonu, Suqovuşan, Hadrut, Xocavənd rayonunun böyük hissəsi, Zəngilan, Füzuli, Qubadlı rayonları, Laçın rayonunun cənub hissəsi, Kəlbəcər dağları, Murov dağı və ondan sonra Şuşa. Müharibə zamanı 300-dən çox kənd və şəhər azad edildi, düşmən məcbur oldu, diz çökdü, təslim oldu və noyabrın 10-da kapitulyasiya aktına imza atdı.

Müharibənin ilk günlərindən mən demişdim ki, düşmən bizə tarix versin, düşmənin rəhbəri tarix versin, nə vaxt bizim torpağımızdan rədd olur və biz müharibəni dayandırmağa hazırıq. Yenə də sözümdə durdum, bizə tarix verilən kimi, kapitulyasiya aktı imzalanan kimi müharibə dayandı və biz bir güllə atmadan, bir itki vermədən Ağdam, Kəlbəcər və Laçın rayonlarına da qayıtmışıq. Beləliklə, ərazi bütövlüyümüzü bərpa etdik. Yenə də deyirəm, biz hazırlaşmalı idik, Şuşa bizi gözləyirdi. Amma biz elə gəlməli idik ki, bu məsələni birdəfəlik həll edək.

Son illər ərzində mən həm çıxışlarda, həm müsahibələrdə dəfələrlə demişəm ki, bizə məsələnin yarımçıq həlli lazım deyil. Bu, nə deməkdir, Azərbaycan xalqı yəqin ki, gözəl başa düşür. Mən demişdim ki, hər şeyi vaxtında etmək lazımdır. Nəyi, nə vaxt, necə etmək lazımdır, bilirəm. Mənim üçün torpaqların azad edilməsindən daha ümdə vəzifə heç vaxt olmamışdır. Bütün prezidentlik dövrümü mən buna həsr etmişəm. Hər bir qərarın arxasında bu məqsəd, bu hədəf dayanmışdı - bu addım bizi qələbəyə yaxınlaşdıracaqmı, yoxsa yox. Deyirdim ki, hər birimiz hər gün qələbəni yaxınlaşdırmalıyıq. Mənim çıxışlarım var,

onlar tarixdə qalır. Hər gün hər birimiz qələbəni yaxınlaşdırmalıyıq. Yaxınlaşdırdıq, hazırlaşdıq, gəldik düşməni məğlub etdik, məhv etdik. Gəlmişik və burada dayanmışıq. Müzəffər Ordunun Ali Baş Komandanı kimi dayanmışam qədim Azərbaycan torpağında və heç kim bundan sonra bizi buradan çıxara bilməz.

Şuşa bizim qədim şəhərimizdir. Erməni təbliğatı, saxta alimlər, fırıldaqçı siyasətçilər, beynəlxalq dairələr nə qədər desələr də xeyri yoxdur, tarix var. Pənahəli xan Şuşanın təməlini qoydu, Şuşanı tikdi, qurdu. Biz isə Şuşanı əsarətdən çıxardıq və xalqımıza qaytardıq, dövlətimizə qaytardıq. Şuşa qədim Azərbaycan şəhəridir, həmişə belə olub. Son 28 il ərzində mənfur düşmən nə qədər çalışsa da, Şuşanın Azərbaycan ruhunu, Azərbaycan görkəmini dəyişdirə bilməyib. Bəli, evlər sökülüb, tarixi abidələr sökülüb, məscidlər sökülüb, bir neçə eybəcər bina tikilib. Faktiki olaraq burada heç bir tikinti aparılmamışdır. Ancaq sovet vaxtından qalan o “xruşşovkalarda” məskunlaşmış 2 minə yaxın erməni yaşayırdı, onların da böyük hissəsi hərbçilər idi, onların ailələri idi. Əgər bu, erməni şəhəri idisə, niyə ermənilər gəlib burada yaşamadılar? Çünki ermənilərin tarixi yoxdur burada. Əgər erməni şəhəridirsə, niyə belə bərbad günə qoyublar? Niyə talayıblar Şuşanı, niyə 28 il ərzində bərpa etməyiblər? Bəs, hanı bunların xeyriyyəçiləri? Deyirdilər ki, xeyriyyəçilər bunu etdilər, onu etdilər, ora pul verdilər, bura pul verdilər. Hər il marafonlar keçirirdilər, on milyonlarla dollar pul yığırdılar. İndi bilinir ki, o pullar keçmiş rəhbərliyin cibinə gedirdi. Mən azad edilmiş torpaqlara dəfələrlə gəlmişəm. Burada olan səfalət bəlkə də dünyanın heç bir yerində yoxdur. Bəs, nə ediblər onlar? Hamısı yalan idi, saxta idi, tarixi necə saxtalaşdırıblar, reallığı da elə saxtalaşdırıblar. Onların şəbəkələri dünyanın müxtəlif paytaxtlarında fəaliyyət göstərir, saxta məlumat ötürür və bu saxta məlumat ətrafında sonra müzakirələr gedir və olmayan şeyləri reallıq kimi qələmə verirdilər.

Biz Şuşanı bərpa edəcəyik, mütləq bərpa edəcəyik. Artıq bərpa işlərinə start verildi. Bu gün Şuşada olarkən artıq verdiyim tapşırıqların yerinə yetirilməsi ilə tanış oluram. Biz nəinki Şuşanı, azad edilmiş bütün torpaqları bərpa edəcəyik. Quruculuq işləri başlamışdır, infrastruktur layihələrinə start verilmişdir. Ziyanın hesablanması aparılır, şəhərlərin baş planları hazırlanır. Birinci növbədə, Ağdam

şəhərinin və Ağdam rayonunun bütövlükdə baş planı hazırlanır, onun ilkin versiyası mənə təqdim edildi. Mənim tapşırıqlarımı nəzərə almaq şərtilə indi bunun üzərində iş gedir və yaxın gələcəkdə baş plan təsdiq olunacaq. Ondan sonra bərpa işləri azad edilmiş bütün torpaqlarda başlanacaq. Ermənilər 30 il bizim torpaqlarımızı dağıdıblar. Biz isə bu torpaqları bərpa edəcəyik, çünki bu torpaqların sahibləri bizik - Azərbaycan xalqıdır.

Şuşada olarkən insan Azərbaycan xalqının böyüklüyünü bir daha dərk edir. Biz Birinci Qarabağ müharibəsindəki məğlubiyyətlə barışmadıq. Biz hətta o satqınlığı, o xəyanəti edən AXC-Müsavat cütlüyünün mənfur liderlərinə layiq olduqları cəzanı verməmişdik. Halbuki onlar istənilən cəzaya layiqdirlər. Biz bu vəziyyətlə barışmadıq və mən dəfələrlə deyirdim ki, heç vaxt Azərbaycan xalqı bu vəziyyətlə barışmayacaq. Siyasi, iqtisadi, hərbi, mənəvi istiqamətlərdə, gənc nəslin tərbiyə edilməsi istiqamətində məqsədyönlü siyasət aparılırdı və elə gənc nəsil yetişdi ki, canını fəda etdi torpaq uğrunda. Elə gənc nəsil yetişdi ki, öz qanı-canı bahasına torpağımızı düşmənin əlindən aldı. Müharibədə bütün nəsillərin nümayəndələri iştirak ediblər, qəhrəmanlıq göstəriblər. Amma hər kəs bilməlidir ki, əsas missiyanı mənim prezidentlik dövrümdə yetişən gənclər yerinə yetiriblər, 2003-cü ildə uşaq olan gənclər yerinə yetiriblər. İlk növbədə, biz onlara borcluyuq, bütün Azərbaycan xalqına borcluyuq. Bütün xalqımız bu Qələbəni yaxınlaşdırırdı və bütün amillər birləşərək bu müharibənin nəticələrini şərtləndirdi.

Bizim müharibəmiz - İkinci Qarabağ müharibəsi bu gün dünyanın aparıcı ölkələrinin hərbi məktəblərində öyrənilir. Biz XXI əsrin müharibəsini aparmışıq, düşməni məhv etmişik. Erməni ordusu yoxdur, biz onu məhv etmişik. Bu gün Novruz bayramını Cıdır düzündə qeyd edərkən qürur hissi ilə deyirəm: “Şuşa, sən azadsan!”, “Şuşa Azərbaycandır!”, “Qarabağ Azərbaycandır!”

***https://azertag.az***

## Birinci vitse-prezident Mehriban Əliyeva rəsmi “Instaqram” səhifəsində Prezident İlham Əliyevlə Qarabağa növbəti səfərdən görüntülər paylaşıb

12.05.2021

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi “Instaqram” səhifəsində Azərbaycan Prezidenti İlham Əliyevlə Qarabağa növbəti səfərdən görüntülər paylaşıb.

AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir:

“Əziz bacılar və qardaşlar!

Böyük qürurla sizə bildirirəm ki, bu gün əlamətdar gündür. Azərbaycanın mədəniyyət paytaxtı elan olunmuş bizim qədim doğma Şuşa şəhərimizdə “Xarıbülbül” musiqi festivalı dirçəlir. Neçə illik həsrətdən sonra əfsanəvi Cıdır düzündə yenidən Azərbaycan muğamı səslənəcək. Böyük məmnuniyyətlə Qarabağa səfərimizin görüntülərini sizinlə paylaşıram.

Dərin hörmət və sevgilərlə,

Sizin MEHRİBAN”

xxx

Xocavənddə çəkilən videogörüntüdə **Prezident İlham Əliyev** deyir: Biz Şuşaya gedirik. Şuşada “Xarıbülbül” musiqi festivalı keçiriləcək. Dediyim kimi, bu il may ayında “Xarıbülbül” musiqi festivalı uzun fasilədən sonra keçiriləcəkdir. Yolüstü Azərbaycanın dilbər guşələrindən bir olan Xocavənd rayonuna gəldik və burada təbiətin qoynunda armudu stəkanda çay içirik, necə ki, Cıdır düzündə çay içmişdik. İndi isə Xocavənddə çay içirik. Bu qədim Azərbaycan torpağında Azərbaycan xalqı bundan sonra əbədi yaşayacaqdır. Eşq olsun Azərbaycan xalqına, yaşasın Azərbaycan!

Özünü də çək, Mehriban. Operator həmişə olduğu kimi Mehriban xanımdır, amma nədənsə özünü çəkmək istəmir.

**Mehriban Əliyeva:** Mən kadr arxasındayam.

***https://azertag.az***

## Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşada səfərdədirlər. Şuşada 110/35/10 kilovoltluq yarımstansiya istifadəyə verilib

12.05.2021

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva mayın 12-də Şuşada səfərdədirlər.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva əvvəlcə 110/35/10 kilovoltluq “Şuşa” yarımstansiyasının açılışında iştirak ediblər.

Şuşa şəhərinin Azərbaycanın ümumi enerji sisteminə qoşulması, şəhərin etibarlı, dayanıqlı və fasiləsiz elektrik enerjisi ilə təchiz edilməsi məqsədilə ötən ilin dekabrında “Şuşa” yarımstansiyasının və Füzuli rayonunun “Şükürbəyli” yarımstansiyasından başlayaraq 75 kilometr məsafədə 110 kilovoltluq “Şükürbəyli-Şuşa” hava elektrik verilişi xəttinin tikintisinə başlanılıb. Yarımstansiya məsafədən idarə olunan SCADA Dispetçer İdarəetmə sisteminə qoşulmaqla tam rəqəmsallaşıb. Burada perspektiv inkişaf da nəzərə alınıb. Yarımstansiya və elektrik verilişi xəttinin tikintisinin çətin coğrafi şəraitdə aparılmasına baxmayaraq, ən qısa zaman ərzində yekunlaşıb. Füzulidəki “Şükürbəyli” yarımstansiyasından Şuşaya 110 kilovoltluq ikidövrəli elektrik verilişi xətti çəkilişi fasiləsiz, növbəlilik prinsipi ilə 73 günə icra olunub ki, bu da nəinki Azərbaycan energetikası, regionun energetika tarixində rekorddur.

Ümumilikdə işğaldan azad olunmuş ərazilərin fasiləsiz və keyfiyyətli elektrik enerjisi ilə təchiz edilməsi istiqamətində işlər uğurla davam edir. Hazırda Kəlbəcər, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Ağdamda, ümumilikdə, 9 yarımstansiya və onları əlaqələndirən 110 kilovoltluq ötürmə xətlərinin tikintisi gedir. Prezident İlham Əliyevin işğaldan azad olunmuş ərazilərin “Yaşıl enerji” zonasına çevrilməsi ilə bağlı qarşıya qoyduğu tələblərə uyğun olaraq, Suqovuşandakı

2 kiçik su elektrik stansiyasında yenidənqurma, təmir və bərpa işləri yekunlaşıb. Yaxın vaxtlarda isə Kəlbəcərdə 2 kiçik su elektrik stansiyasının tikinti və bərpasına başlanılacaq.

***https://azertag.az***

## Şuşada “Xarıbülbül” otelinin yenidənqurmadan sonra açılışı olub
12.05.2021

Mayın 12-də Şuşada “Xarıbülbül” otelinin yenidənqurmadan sonra açılışı olub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva açılışda iştirak ediblər.

Dövlətimizin başçısı oteldə yaradılan şəraitlə tanış oldu.

**Anar Ələkbərov:** Otelin bu əməkdaşları əslən Şuşadandırlar.

**Prezident İlham Əliyev:** Çox yaxşı, mən demişdim ki, buraya Şuşadan olan insanlar cəlb edilsinlər. Sən Şuşada yaşamamısan, eləmi?

**Otelin əməkdaşı:** Xeyr.

**Prezident İlham Əliyev:** İndi yaşayacaqsan.

Məlumat verildi ki, oteldə ümumilikdə 49 otaq var. Onların hamısı qonaqların qalması və rahat istirahət etməsi üçün bütün zəruri infrastrukturla təchiz olunub. Bu cür obyektlərin istifadəyə verilməsi Azərbaycanın mədəniyyət paytaxtı olan Şuşanın turizm potensialının möhkəmləndirilməsində çox mühüm rol oynamaqla yanaşı, işğaldan azad edilmiş ərazilərimizdə, o cümlədən tarixi Şuşa şəhərində icra olunan sosial layihələrin ardıcıl və sürətlə davam etdiyini göstərir.

***https://azertag.az***

## Prezident İlham Əliyev “Xarıbülbül” otelinin nəzdindəki korpusda və kotteclərdə yaradılan şəraitlə tanış olub

12.05.2021

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva mayın 12-də Şuşada “Xarıbülbül” otelinin nəzdindəki 48 mənzilli korpusda və kotteclərdə yaradılan şəraitlə tanış olublar.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına və birinci xanıma korpusda və kotteclərdə görülən işlər barədə məlumat verildi. Qeyd olundu ki, bu obyektlər də müasir səviyyədə yenidən qurulub.

***https://azertag.az***

## Prezident İlham Əliyev Şuşada yeni məscidin təməlini qoyub

12.05.2021

Mayın 12-də Şuşada yeni məscidin təməli qoyulub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva tədbirdə iştirak ediblər.

Qədim Şuşada təməli qoyulan məscid dini ocaq və modern memarlıq nümunəsi kimi göz oxşayacaq. İki minarəli, mozaika ilə bəzədiləcək gümbəzi olan məscidin layihələndirilməsi azərbaycanlı və italyan memarlarla birgə həyata keçirilib. Məscidin xarici səthi Şuşanın qədim məscidinin minarələrində istifadə edilən həndəsi naxışlarla bəzədiləcək. Bu memarlıq elementi Şuşanın firavan və uğurlu gələcəyinə əminliyi, keçmişlə bu gün arasındakı əlaqəni təcəssüm etdirəcək.

Məscidin təməlini qoyan **Prezident İlham Əliyev** çıxış edərək dedi:

- Bu gün Şuşa şəhərində yeni məscidin təməlini qoyduq. Şuşada yeni məscid tikiləcəkdir. Məscidin tikintisi ilə bağlı qərarı mən çoxdan vermişdim. Şuşa şəhəri işğalçılardan azad olunandan sonra artıq bu məscidin memarlığı barədə düşünməyə başlamışdım. Nəzərə alsaq ki, Şuşa şəhərində vaxtilə 17 məscid olub və mənfur düşmən onların hamısını dağıdıb. Üç məscid yarıdağıdılmış vəziyyətdə idi - Yuxarı və Aşağı Gövhərağa və Saatlı məscidləri. Onların da təmiri ilə bağlı göstəriş verilib.

Yuxarı Gövhərağa məscidi artıq təmirdən çıxıb. Nəzərə alsaq ki, Şuşa memarlığının öz xüsusiyyətləri vardır və Şuşada vaxtilə inşa edilmiş məscidlər bir üslubda tikilmişdir. Ona görə fikirləşirdim ki, yeni tikiləcək məscidin memarlığı necə olmalıdır. Demək olar ki, bir neçə ay bu haqda fikirləşirdim. Nəhayət bir fikir ağlıma gəldi ki, bu məscid, bunun memarlığı rəmzi xarakter daşımalıdır. Ona görə təklif etdim ki, məscidin forması 8 rəqəmini əks etdirməlidir. Çünki noyabrın 8-də biz Şuşanı işğalçılardan azad etdik və 8 noyabr Azərbaycanda artıq rəsmi olaraq Zəfər Günüdür. Məscidin iki minarəsi 11 rəqəmini əks etdirmə-

lidir. Onbirinci ayda Şuşa və Qarabağ tam işğaldan azad edildi. Bu fikirlər əsasında memarlar işləməyə başlamışlar və burada göstərilən təqdimatda məscidin görkəmi öz əksini tapır. Bu, ilkin versiyadır, bunun üzərində hələ iş aparılacaq, müəyyən dəyişikliklər ola bilər.

Əlbəttə ki, məscidin daxili dizaynı ilə bağlı təkliflər hələ tam hazır deyil. Ancaq konseptual olaraq məscidin memarlığı 8 noyabr gününü əks etdirəcək. Həm yuxarıdan baxanda 8 rəqəmini görmək mümkün olacaqdır, həm də aşağıdan baxanda. Məscidin yeri də təsadüfən seçilmədi. Bu, Şuşa şəhərinin yuxarı hissəsidir və burada ucaldılacaq məscid şəhərə bir dominant kimi hakim olacaqdır. Belə də olmalıdır. Çünki Şuşa bizim qədim şəhərimizdir, Azərbaycan şəhəridir, azərbaycanlılar tərəfindən salınıb. Azərbaycanlılar həmişə burada yaşayıb. Sadəcə olaraq, işğal dövründə Azərbaycan əhalisi zorla buradan çıxarılmışdı.

Biz Şuşaya qayıtmışıq, əbədi qayıtmışıq! Şəhərə hakim olan bina məscid binası olmalıdır və bu bina şəhərin yuxarı hissəsində yerləşməlidir. Məscidin təməlqoyma günü də təsadüfən seçilmədi. Sabah bütün müsəlman aləmi müqəddəs Ramazan bayramını qeyd edəcək. Fürsətdən istifadə edərək, bütün Azərbaycan xalqını bu mübarək Ramazan bayramı münasibətilə təbrik etmək istəyirəm. Məhz bayram ərəfəsində qədim Şuşa şəhərində yeni məscidin təməlqoyma mərasiminin keçirilməsi böyük tarixi və rəmzi xarakter daşıyır. Bundan sonra artıq memarlar məscidin bütün layihəsi ilə ciddi məşğul olacaqlar və inşaat işləri başlanacaq.

***https://azertag.az***

## Şuşada Xüsusi nümayəndəliyin inzibati binası ilə tanışlıq

12.05.2021

Mayın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva Şuşada Xüsusi nümayəndəliyin yerləşəcəyi inzibati binada oldular.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına və birinci xanıma görülən bərpa işləri ilə bağlı məlumat verildi.

Qeyd olundu ki, burada səmərəli fəaliyyət üçün hərtərəfli şərait yaradılacaq və inzibati bina ən müasir səviyyədə yenidən qurulacaq.

Dövlətimizin başçısı görüləcək işlərlə bağlı tapşırıq və göstərişlərini verdi.

***https://azertag.az***

## Prezident İlham Əliyev Şuşada Xan qızı Natəvanın sarayının qarşısındakı əraziyə baxış keçirib

12.05.2021

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla və Arzu Əliyevalar mayın 12-də Şuşada Xan qızı Natəvanın sarayının qarşısındakı əraziyə baxış keçiriblər.

AZƏRTAC xəbər verir ki, Şuşa şəhərində Xan qızı Natəvanın evi də işğal dövründə dağıdılıb. Azərbaycanda yaradılan ilk uşaq musiqi məktəbi olan Şuşa Musiqi Məktəbi Xan qızı Natəvanın evində fəaliyyətə başlamışdı. XVIII əsrə aid tarix-memarlıq abidəsi erməni vəhşiliyinin, vandalizminin qurbanı olub.

Dövlətimizin başçısına məlumat verildi ki, işğal zamanı binaya dəyən ziyanın qiymətləndirilməsinə artıq başlanılıb. Bu prosesdən sonra burada bərpa işlərinə start veriləcək.

***https://azertag.az***

## Prezident İlham Əliyev Şuşada bərpa edilən “Xan qızı” bulağında olub

12.05.2021

Mayın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva Şuşada “Xan qızı” bulağında olublar.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı və ailə üzvləri bulağın suyundan içiblər.

**Prezident İlham Əliyev** deyib:

Natəvan bulağından yenə su gəlir. Natəvan bulağını bərpa etmişik. Keçən dəfə yanvar ayında Şuşada olarkən demişdim ki, Natəvan bulağını bərpa edəcəyik. Yenə də bulaq Şuşa sakinlərinin, qonaqların sərəncamına veriləcəkdir. Mənfur düşmən bu bulağı qurutmuşdu, bütün bulaqları qurutmuşdu. Bu da onu göstərir ki, Şuşa həmişə ermənilər üçün yad şəhər olub. İndi isə Şuşa dirçəlir və Şuşanın rəmzlərindən biri olan “Xan qızı” bulağı bərpa edilib. Bu gün bu bulaqdan su içmişəm.

***https://azertag.az***

## Şuşa Yaradıcılıq Mərkəzinin yerləşəcəyi bina ilə tanışlıq

12.05.2021

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva mayın 12-də Şuşa Yaradıcılıq Mərkəzinin yerləşəcəyi bina ilə tanış olublar.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya mərkəzdə görüləcək işlər barədə məlumat verildi.

Bildirildi ki, bu binada Ağa Qəhrəman Mirsiyab oğlunun Karvansarası yerləşib. Ölkə əhəmiyyətli memarlıq abidəsi XVIII əsrə aiddir. Dövlətimizin başçısı görüləcək işlərlə bağlı tapşırıqlarını verdi.

***https://azertag.az***

## Prezident İlham Əliyev Şuşa Rəsm Qalereyasında görülən işlərlə tanış olub

12.05.2021

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva mayın 12-də Şuşa Rəsm Qalereyasında görülən işlərlə tanış olublar.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya qalereyada aparılan işlər barədə məlumat verildi.

Bildirildi ki, burada qaytarılmış Qarabağ xalçalarının sərgisi, “Qarabağ işğaldan əvvəl və sonra”, “Azərbaycan rəssamlarının motivlərində Qarabağ” adlı sərgilərin keçirilməsi nəzərdə tutulur.

***https://azertag.az***

## Şuşada 1 saylı ümumtəhsil məktəbinin təməli qoyulub

12.05.2021

Mayın 12-də Şuşada 1 saylı ümumtəhsil məktəbinin təməli qoyulub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva tədbirdə iştirak ediblər.

Dövlətimizin başçısı məktəbin təməlini qoydu.

Prezident İlham Əliyevə məlumat verildi ki, 1830-cu ildə Azərbaycanda və Cənubi Qafqazda ilk dünyəvi məktəbin bünövrəsi məhz burada qoyulub. 1980-ci ildə Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə bu məktəbin 150 illik yubileyi qeyd olunub. İşğala qədər 1 saylı məktəb kimi fəaliyyət göstərən bu təhsil ocağını da erməni vandalları tamamilə dağıdıblar.

Yeni 960 şagird yerlik tam orta məktəbin layihələndirilməsi və tikintisi məqsədilə Prezidentin ehtiyat fondundan Təhsil Nazirliyinə ilkin olaraq 3 milyon manat vəsait ayrılıb.

***https://azertag.az***

## Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşada "Xarıbülbül" festivalının açılışında iştirak ediblər

12.05.2021

Mayın 12-də Azərbaycanın mədəniyyət paytaxtı Şuşa "Xarıbülbül" musiqi festivalına ev sahibliyi edir. Qədim mədəniyyət beşiyi olan Şuşa 29 ildən sonra yenə doğmalarını, qonaqlarını qarşılayır.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva Şuşada Cıdır düzündə təşkil olunan "Xarıbülbül" musiqi festivalına gəldilər.

Dövlətimizin başçısı festivalın açılışında çıxış etdi.

### Prezident İlham Əliyevin çıxışı

- Əziz dostlar, bu gün ölkəmizin tarixində əlamətdar bir gündür. Uzun fasilədən sonra Cıdır düzündə - hər birimiz üçün müqəddəs olan Şuşada "Xarıbülbül" festivalı keçirilir. Bu münasibətlə sizi və bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm.

Biz bu günü 30 il səbirsizliklə gözləmişik, 30 il Vətən həsrəti ilə yaşamışıq. 30 il ədalətsizliklə barışmalı olurduq, amma barışmırdıq və hər dəfə deyirdik ki, bu vəziyyətlə biz heç vaxt barışmayacağıq, nəyin bahasına olursa-olsun öz doğma torpaqlarımızı işğalçılardan azad edəcəyik və bunu etdik. Uzun fasilədən sonra bu il birinci dəfə keçirilən "Xarıbülbül" musiqi festivalı şəhidlərimizin əziz xatirəsinə həsr olunub. Biz bu günü bizim qəhrəman hərbçilərimizə borcluyuq, Azərbaycan xalqına borcluyuq. Xalq birləşdi, xalq həmrəylik göstərdi, bir yumruq kimi birləşdi və bu Qələbəni Azərbaycan xalqı qazandı. Bu, bizim hamımızın qələbəsidir. Mən xahiş edirəm ki, Vətən müharibəsində həlak olmuş qəhrəman şəhidlərimizin əziz xatirəsini bir dəqiqəlik sükutla yad edək.

Allah bütün şəhidlərimizə rəhmət eləsin!

Biz bu gözəl ənənəni bərpa etdik və bundan sonra "Xarıbülbül" festivalı Şuşada hər il keçiriləcək. Builki festival Azərbaycanda yaşayan xalqların nümayəndələrini əhatə edir. Bugünkü festivalda ölkəmizdə yaşayan müxtəlif xalqların nümayəndələri çıxış edəcəklər. Bu tövsiyəni festivalın təşkilatçısı olan Heydər Əliyev Fonduna mən vermişdim, çünki Vətən müharibəsində Azərbaycanda yaşayan bütün xalqların böyük payı vardır. Vətən müharibəsi bir daha onu göstərdi ki, Azərbaycanda bütün xalqlar dostluq, qardaşlıq, həmrəylik şəraitində yaşayır və bu 44 günlük müharibə bir daha onu göstərdi ki, ölkəmizdə milli birlik, milli həmrəylik vardır. Təsadüfi deyil ki, birinci festivalda Azərbaycanda yaşayan xalqların nümayəndələri çıxış edəcəklər və bir daha biz bütün dünyaya buradan – Şuşadan, qədim torpağımızdan mesaj veririk. Ölkələr belə inkişaf etməlidir, ancaq çoxkonfessiyalı, çoxmillətli ölkələrdə, cəmiyyətlərdə inkişaf olur, birlik olur, milli həmrəylik olur, sülh olur. Biz dünyanın müxtəlif yerlərində baş verən hadisələri izləyirik, görürük və deyə bilərəm ki, bir neçə il bundan əvvəl bu gün mövcud olan vəziyyəti görürdük. Ona görə həm ölkə daxilində, həm beynəlxalq müstəvidə, o cümlədən ölkəmizdə keçirilmiş çoxsaylı tədbirlərdə multikulturalizmi təbliğ edirdik, müxtəlif xalqların birgəyaşayışını təbliğ edirdik və deyirdik ki, bu, mümkündür. Azərbaycanın timsalında deyirdik ki, bu, mümkündür və göstərirdik, öz təcrübəmizi bölüşürdük, öz fikirlərimizi bölüşürdük və hesab edirəm ki, bizim bu səylərimiz nəticə verdi. Çünki bu gün dünyada bu məsələ ilə bağlı daha dəqiq təsəvvür vardır.

44 günlük müharibə Azərbaycanın tam Qələbəsi ilə nəticələndi. Azərbaycan tam Qələbə qazandı, işğalçıları qədim Azərbaycan torpaqlarından qovdu və azad edilmiş bütün torpaqlarda Azərbaycan bayrağını ucaltdı. 44 günlük müharibə bizim şanlı tariximizdir. 44 günün hər bir günü qəhrəmanlıq dastanı idi, hər bir gündə biz şəhidlər verirdik, qan tökürdük və irəliyə gedirdik. Hər gün biz irəliyə gedirdik. 44 gün ərzində bir gün də olmayıb ki, biz geriyə addım ataq. Ancaq irəli gedirdik, şəhidlər verərək, qan tökərək, xalqımız birləşərək və biz birləşib bu Qələbəni şərtləndirdik. 300-dən çox şəhər və kənd döyüş meydanında işğalçılardan azad edildi və Şuşanın – alınmaz qalanın alınması ayrıca bir

qəhrəmanlıq dastanıdır. Şuşada olan hər bir insan və artıq Şuşaya gələn Azərbaycan vətəndaşları görürlər ki, Şuşanı götürmək, işğaldan azad etmək böyük qəhrəmanlıq, şücaət, fədakarlıq tələb edirdi. Bizim qəhrəman hərbçilərimiz bu sıldırım qayalara dırmaşaraq əlbəyaxa döyüşdə Şuşanı işğalçılardan azad etdi. Baxmayaraq ki, işğalçılar bizə qarşı tanklardan, toplardan atəş açırdılar. Biz Şuşa uğrunda gedən döyüşlərdə şəhidlər verdik. Ancaq bizi irəliyə aparan milli ruh bu Qələbəni təmin etdi. Şuşanın azad edilməsi faktiki olaraq Ermənistan ordusunun və Ermənistan dövlətinin çökməsi demək idi. Çünki ondan bir gün sonra Ermənistan məcbur olub bizim şərtlərimizə əsasən formalaşmış kapitulyasiya aktına imza atıb və biz bir güllə atmadan Laçın, Kəlbəcər və Ağdam rayonlarını geri qaytardıq. Təsadüfi deyil ki, Şuşanın azad edilməsi günü – 8 noyabr günü Azərbaycanda rəsmi dövlət bayramı elan edildi, Zəfər bayramı elan edildi və biz bu bayramı hər il qeyd edəcəyik.

Şuşa Azərbaycan xalqının milli sərvətidir. Bu yaxınlarda Şuşanın Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi bunu bir daha göstərir. Şuşa qədim Azərbaycan şəhəridir. Gələn il biz Şuşanın 270 illiyini qeyd edəcəyik. Pənahəli xan 1752-ci ildə Şuşanın təməlini qoyub və o vaxtdan işğal dövrünə qədər bu şəhərdə həmişə azərbaycanlılar yaşayıblar. Ermənilər nə qədər çalışsalar da, Şuşadan Azərbaycan ruhunu silə bilmədilər. Bəli, mənfur düşmən tərəfindən binalar dağıdıldı, məscidlərimiz dağıdıldı, tarixi abidələrimiz dağıdıldı. Ancaq Şuşa Azərbaycan ruhunu qoruya bildi. Şuşa 28 il yarım əsarətdə idi, ancaq əyilmədi, sınmadı, öz ləyaqətini qorudu, milli ruhunu qorudu, Azərbaycan ruhunu qorudu.

Əminəm ki, əziz dostlar, sizin bir çoxunuz buraya işğaldan sonra birinci dəfədir ki, gəlirsiniz, bunu görürsünüz, bunu hiss edirsiniz. Mən artıq 3-cü dəfədir Şuşadayam və demişəm ki, hər dəfə bura gələndə burada qalmaq istəyirəm, buradan ayrılmaq istəmirəm. Şuşanın özünəməxsus aurası var. Mən dünyada Şuşaya bənzər şəhər görməmişəm, bəlkə də yoxdur. Bu gün biz uzun fasilədən sonra azad Şuşada yığışmışıq. Bu gün Cıdır düzündə Azərbaycan muğamı səslənəcək. Uzun fasilədən sonra biz Şuşada bu gözəl musiqi bayramını qeyd edə-

cəyik. Bu gün, sözün əsl mənasında, musiqi bayramıdır. Bəli, biz 8 noyabrda Şuşaya döyüşərək, vuruşaraq, qan tökərək qayıtmışıq. Ancaq bu gün Azərbaycan mədəniyyəti, Azərbaycan mədəniyyətinin görkəmli nümayəndələri Şuşaya qayıdıblar və bu qayıdış reallıqdır, bu reallıqla hər kəs hesablaşmalıdır.

Bundan sonra biz Şuşada əbədi yaşayacağıq və Şuşanın bərpa edilməsi artıq başlanmışdır. Verilən göstərişlər yerinə yetirilir. Artıq Yuxarı Gövhərağa məscidi təmir edilib və sabah orada bayram namazı qılınacaq.

Festivalın məhz Ramazan bayramı ərəfəsində təşkil edilməsi də təsadüfi deyil. Biz öz dini, milli, mənəvi köklərimizə bağlı olan xalqıq. Əks-təqdirdə, biz heç vaxt işğala son qoya bilməzdik. Biz bütün bu illər ərzində bir amalla yaşamışıq - torpaqları azad edək, ədaləti bərpa edək, milli ləyaqətimizi qoruyaq və buna nail olduq. Bugünkü tədbir bir daha onu göstərir ki, biz Şuşaya qayıtmışıq və bundan sonra burada əbədi yaşayacağıq. Şəhərdə bərpa işləri başlayıb, mən qeyd etdim ki, Yuxarı Gövhərağa məscidi artıq təmir olunubdur. Beş il bundan əvvəl Cocuq Mərcanlı işğaldan azad olunandan sonra orada mən Şuşa məscidinin bənzəri olan məscidi tikdirdim. O vaxt məscidin açılışında demişdim ki, gün gələcək biz Şuşada məscidləri bərpa edəcəyik və yeni məscidlər tikiləcəkdir. Bu gün Ramazan bayramı ərəfəsində Şuşada yeni möhtəşəm məscidin təməli qoyuldu. Ermənilər tərəfindən qurudulmuş "Xan qızı Natəvan" bulağından bu gün su gəldi. Bütün bunlar böyük rəmzi məna daşıyır. Bax, bizim qayıdışımız budur. Biz Şuşanı quracağıq, bərpa edəcəyik, mənfur düşmən isə Şuşanı dağıdırdı. İndi siz - burada olan vətəndaşlar, dostlar gəzəcəksiniz, görəcəksiniz ki, Şuşa hansı dağıntılara məruz qalıb. Amma yenə də deyirəm, biz Şuşamızı, Ağdamımızı, Cəbrayılımızı, Füzulimizi, Zəngilanımızı, Qubadlımızı, Laçınımızı, Kəlbəcərimizi qəlbimizdə yaşatmışdıq. Dağıdılmış məscidləri biz bərpa edəcəyik, amma o məscidlər işğal dövründə bizim qəlbimizdə ucaldılmışdı. İndi isə biz burada, Cıdır düzündə - hər bir azərbaycanlı üçün müqəddəs olan yerdə yığışmışıq və bu musiqi bayramını, bu birlik bayramını, bu qayıdış bayramını, bu ləyaqət bayramını qeyd edirik. Yaşasın Şuşa! Yaşasın Qarabağ! Yaşasın Azərbaycan!

xxx

Sonra “Xarıbülbül” festivalı başladı.

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva festival ifaçılarının çıxışlarını dinlədilər.

xxx

Konsertdən sonra jurnalistlərlə görüşən **Prezident İlham Əliyev** dedi: Sağ olun, siz ki, burada olmusunuz, ağır günlərdə. Salam Mirşahin.

**Mirşahin:** Eşq olsun Sizə cənab Prezident. Mən Sizi təbrik edirəm.

**Prezident İlham Əliyev**: Sağ olun, çox sağ olun, mən də sizin hamınızı təbrik edirəm.

xxx

Dövlətimizin başçısı jurnalistlərlə xatirə şəkli çəkdirdi.

xxx

**Prezident İlham Əliyev:** Anar mənim yadıma saldı, siz mətbuat konfransında demişdiniz ki, gəlmək istəyirsiniz. Biz də xahişinizi yerinə yetirdik. Mən istəyirdim ki, birinci bizim jurnalistlər gəlsin, bu festivalı keçirək. Siz harada qalırsınız?

**Jurnalist:** Birbaşa buraya gəldik.

**Prezident İlham Əliyev:** Hə, birbaşa.

**Anar Ələkbərov:** Bu gün qalacaqlar.

**Prezident İlham Əliyev:** İndi burada qalmaq üçün imkan var. Xarici jurnalistləri də dəvət edək gəlsinlər və görsünlər.

**Jurnalist:** Cənab Prezident, diqqətinizə görə təşəkkür edirik. Həmişə dəstəyinizi hiss edirik, çox sağ olun.

**Prezident İlham Əliyev:** Bəli, sizi həmişə dəstəkləmişəm. Sizə təşəkkür edirəm ki, belə çox aktual mövzuları qabardırsınız. Bir çox hallarda ölkədə gedən prosesləri mən sizdən eşidirəm, sizdən görürəm. Bu, özlüyündə artıq icra orqanlarını daha da məsuliyyətli olmağa sövq edir.

**Jurnalist:** Müharibədən sonra Sizinlə birinci görüşümüzdür.

**Prezident İlham Əliyev:** Elədir.

**Jurnalist:** Mən də icazənizlə istəyirdim deyim ki, 40 ildir dünyanın müharibələrini görmüşəm. Bu, birinci müharibə idi ki, bir nəfər həm hərbi istiqamətdə işi, həm siyasi, həm də informasiya işini aparırdı.

**Prezident İlham Əliyev:** Çünki əgər siz bu müharibə ilə bağlı həqiqətləri dünya ictimaiyyətinin diqqətinə çatdırmasaydınız, ümumiyyətlə, məsələ ilə bağlı fikir elə təhrif edilmiş kimi qalacaqdı. Siz yaxşı xatırlayırsınız, o vaxt dünya mediasına bizim çıxışımız yox idi. Tək siz gəlmişdiniz, siz də foto çəkirdiniz. Amma ermənilər bütün imkanlardan istifadə edib bütün ölkələrdə olmazın yalanlar yayırdılar. İndi isə artıq müharibə ilə bağlı həqiqətləri siz çatdırmısınız, mən çatdırmışam. Qəhrəman hərbçilərimiz də bax, o qayalara dırmaşaraq düşməni buradan qovub. Mirşahin sən çoxdan olmusan da burada, işğala qədər. Bəziləri heç olmayıb yəqin ki, ilk dəfədir.

**Mirşahin:** İşğala qədər də olmuşam.

**Prezident İlham Əliyev:** İndi ilk dəfə gələn burada görür ki, Şuşanı azad etmək, ümumiyyətlə, mümkünsüz hesab olunurdu. Özü də hələ piyada qalxmaq çətindir, bir də ki, əlində avtomat, yuxarıda düşmən, özü də düşmənin tankı, topu, mövqeyi. Doğrudan da misli görünməmiş qəhrəmanlıq dastanıdır.

**Jurnalist:** Əfqanıstan dağlarında da müharibələri görmüşəm. Buna inanmırdım. Azad ediləndən sonra gəldim, gedib baxdım, izlədim. Özüm də 1992-ci ildə buradan ayaqla çıxmışdım, bura bağlı idi, maşın gələ bilmirdi.

**Prezident İlham Əliyev:** Siz hansı yolla çıxdınız?

**Jurnalist:** Elə buradan, Daşaltıdan gəldim. Buraya kimi 4 saat piyada yol gəldim, 3 dəfə də snayperlər atdılar, amma vura bilmədilər.

**Prezident İlham Əliyev:** Bu yaxınlarda o şəkli siz paylaşdınız, gördüm

mən. O vaxt Azərbaycan əsgəri necə vəziyyətdə idi? Nə forması var idi, nə silahı var idi, nə də bir idarəetmə imkanları. İndi aslan kimi əsgərlərdir, aslan kimi. Onlar möcüzə yaradıblar.

**Jurnalist:** Burada demək olar ki, yaşayış yox idi.

**Prezident İlham Əliyev:** Yox idi.

**Jurnalist:** Ancaq şəhərin girəcəyində, o da çox az.

**Mirşahin:** Amma mən Zəngəzurda evlərin birində oldum.

**Prezident İlham Əliyev:** Bəli, bəli, Şurnuxu kəndində.

**Mirşahin:** O kişi də yaxşı təkziblər verirdi, Ermənistan hakimiyyəti barədə. Yaxşı oldu, çox yaxşı oldu. Beş dənə punkt üzrə öz ölkəsini təkzib etdi. Pensiyasının azlığından da danışdı. Dedi ki, Qarabağ Azərbaycanındır.

**Prezident İlham Əliyev:** Özü də dedi ki, azərbaycanlının evinə girib.

**Mirşahin:** Bəli, çox vacib bəyanatlar verdi.

**Jurnalist:** Cənab Prezident, Şuşa qələbəsinə görə Sizə xüsusi təşəkkür edirik. Doğrudan da bu, çox möcüzəvi bir qələbədir. Bu, doğrudan da çox böyük qələbədir. Siz Azərbaycan xalqına sanki bir həyat qaytardınız. Siz bizə nəfəs verdiniz. İnanın ki, bir il bundan əvvəl yatsaq yuxumuza girməzdi ki, biz Cıdır düzündə ola bilərik, burada konsertdə iştirak edə bilərik. Çox böyük bir möcüzədir, cənab Prezident. Allah Sizi qorusun, Ordumuzu qorusun.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Jurnalist:** Cənab Prezident, səmimi-qəlbdən deyirəm, dünyada belə ölkə başçısı yoxdur.

**Prezident İlham Əliyev:** Sağ olun, çox sağ olun. Bir il bundan əvvəl burada başqa musiqi səslənirdi, başqa hərəkətlər edilirdi. O hərəkətlərə görə, bütün cinayətlərə görə düşmən öz layiqli payını aldı. Bundan sonra burada ancaq Azərbaycan musiqisi, Azərbaycanda yaşayan xalqların musiqisi səslənəcək. Doğrudan da böyük tarixi nailiyyətdir. Hər dəfə buraya gələndə xüsusi hisslər keçirirəm. Əminəm ki, siz də bu hissləri keçirirsiniz. Çünki Şuşanı yenidən görmək bizə nəsib oldu. Bu, böyük xoşbəxtlikdir. Əlbəttə, bir daha görürük ki, Şuşa əsl Azərbaycan şəhəridir. Çünki burada Azərbaycan ruhu hiss olunur. Memarlıq

abidələri, bulaqlar, - baxmayaraq ki, ermənilər o bulaqların naxışlarını dəyişmişdilər, yazıları da silmişdilər, - amma yenə də burada hər tərəf, necə deyərlər, Azərbaycan mədəniyyəti ilə qaynayır. Biz əbədi qayıtmışıq, burada əbədi yaşayacağıq. Demişəm ki, Şuşa dünyanın ən gözəl şəhərinə çevriləcək. Təkcə Şuşa yox, azad edilmiş bütün başqa şəhərlər.

**Jurnalist:** Mən altı aydır Qarabağı gəzirəm, özüm də mühəndis memaram. Doğrudan deyirəm, mən dünyada bu cür gözəl yer görməmişəm. Doğrudan da Şuşanın, Kəlbəcərin gözəlliyi dünyada təkdir.

**Prezident İlham Əliyev:** Burada az da olsa, yaşayıblar. Bizdə olan məlumata görə, - sonra bu məlumatı biz dəqiqləşdirdik, - burada 1 600-ə yaxın erməni yaşayıb, onların da çoxu hərbçilər idi, onların ailə üzvləri idi. Yəni, burada erməni əhalisi heç vaxt olmayıb. İndi görürsünüz, işğal dövründə nə gündə idi. İndi biz əl gəzdirmişik, 6 aydır ki təmizləyirik, necə deyərlər, səliqə-sahman yaradırıq. Bütün binalar belə dağıdılmış idi, yarımçıq tikili idi. Yeni bina yoxdur, bir neçə dənə villa tikdirmişdilər özləri üçün, onları da yəqin ki, görmüsünüz. Tarixi binalar sökülüb, şəhər infrastrukturu yoxdur. Baxın, o dirəklər yox idi, hamısı belə köhnədən qalan idi. Deyirdilər ki, erməni şəhəridir, erməni şəhəridirsə, niyə bu günə qoymusan onu? Niyə yaşamamısan, niyə qurmamısan, niyə dağıtmısan?

**Jurnalist:** Heç kəs öz evini yandırmaz gedəndə.

**Prezident İlham Əliyev:** Əlbəttə.

**Jurnalist:** Onlar yandırdılar, yəni, öz evləri deyildi.

**Prezident İlham Əliyev:** Bizim azad edilmiş digər yerlərdə, torpaqlarda siz də olmusunuz, orada təbiət toxunulmaz kimidir, o ağacların rəngi, səmanın rəngi. Belə bir rənglər mən görməmişəm.

**Jurnalist:** Ağdam, ümumiyyətlə, viran qoyulub. Bu mənzərəni görəndə düşünürsən ki, söhbət ancaq yaddaşı silməkdən gedə bilər. Axı, qəbirlə insanın nə işi ola bilər? Məhz onlar tarixi silmək, yaddaşı silmək istəyiblər. Məncə məqsədləri yalnız bu olub.

**Prezident İlham Əliyev:** Əlbəttə, elədir, tarixi silmək istəyiblər ki, biz heç vaxt qayıtmayaq. Hesab edirdilər ki, Azərbaycan heç vaxt ayağa qalxmayacaq.

İnanmırdılar ki, biz ayağa dura bilərik. İnanmırdılar ki, bizdə həm güc, həm də iradə ola bilər. Ona görə deyirdilər ki, hər şeyi dağıdaq, daha heç vaxt bunlar qayıtmasın, tarixi də silək, abidələri, qəbirləri də dağıdaq. Sabah deyək ki, bura erməni torpağı olub və elə də deyirdilər. Şahbulağı yalandan "Tigranakert" adlandırmışdılar. Belə saxtakarlıq olmaz. Deyirdilər ki, Şuşa erməni şəhəridir. Axı, bu şəhərin təməlini Pənahəli xan qoyub, hamımız yaxşı bilirik, adını da verib - Pənahabad. Necə erməni şəhəri olub, əgər 275 il bundan əvvəl Pənahəli xan Ağdamdan buraya gəlib.

**Jurnalist:** Özü də təzə daşlar atıb ora, cənab Prezident, mən getdim özüm baxdım.

**Prezident İlham Əliyev:** Bəli.

**Jurnalist:** Guya dırnaqarası "Tigranakert" olub.

**Prezident İlham Əliyev:** Hə, orada?

**Jurnalist:** Bəli, Şahbulağın düz yanında.

**Jurnalist:** Mən Kəlbəcərdə neçə kilsə gördüm, çox qədim kilsələr imiş, amma ermənilər onlara təzə daşlar qoyublar. Elə qoyublar ki, dərhal bilinir. Mən özüm görəndə tez dedim ki, bunlar hamısı saxta daşlardır, adamlardan soruşdum, bildirdilər ki, bu daşları buraya 10-15 ildir gətiriblər.

**Hərbçi:** Cənab Ali Baş Komandan, icazə versəydiniz xüsusi təyinatlılar Sizinlə xatirə şəkli çəkdirərdilər.

**Prezident İlham Əliyev:** Bəli, mütləq.

xxx

Xüsusi təyinatlılarla xatirə şəkli çəkdirildi.

xxx

**Hamı birlikdə dedi:** Qarabağ Azərbaycandır!

***https://azertag.az***

## Qarabağ səmasında, Şuşada atəşfəşanlıq
12.05.2021

Azərbaycanın mədəniyyət paytaxtı Şuşa “Xarıbülbül” musiqi festivalına ev sahibliyi edir. Qədim mədəniyyət beşiyi olan Şuşa 29 ildən sonra mayın 12-də yenə doğmalarını, qonaqlarını qarşılayıb.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyevanın iştirak etdikləri, Şuşada Cıdır düzündə təşkil olunan “Xarıbülbül” musiqi festivalı çərçivəsində möhtəşəm atəşfəşanlıq olub.

Festival iştirakçıları Qarabağın, qədim Şuşanın səmasını al-əlvan rənglərə boyayan bayram atəşfəşanlığını böyük maraqla seyr ediblər.

Həmçinin Şuşanın əzəmətli qala divarlarında Azərbaycanın üçrəngli bayrağı proyeksiya olunub. Festival iştirakçıları bu mənzərəni də qürurla izləyiblər.

***https://azertag.az***

## Birinci vitse-prezident Mehriban Əliyeva rəsmi “Instaqram” səhifəsində Şuşada təşkil olunan atəşfəşanlığın görüntülərini paylaşıb

12.05.2021

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi “Instagram” səhifəsində “Xarıbülbül” musiqi festivalı çərçivəsində Şuşada təşkil olunan atəşfəşanlığın görüntülərini paylaşıb.

AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir:

“Arzular gerçəkləşir! Bütün Azərbaycan xalqını təbrik edirəm!
Dərin hörmət və sevgilərlə,
Sizin MEHRİBAN”.

***https://azertag.az***

## Birinci vitse-prezident Mehriban Əliyeva Ramazan bayramı ilə bağlı paylaşım edib

13.05.2021

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi “Instagram” səhifəsində Ramazan bayramı ilə bağlı paylaşım edib.

AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir:

“Əziz həmvətənlər!

Təsviredilməz qürur və sevinc hissi ilə bizim doğma Şuşa şəhərimizdən hər birinizə ən xoş arzularımı və müqəddəs Ramazan bayramı münasibətilə səmimi təbriklərimi çatdırıram! Qoy, insanları sülhə, birliyə, həmrəyliyə, xeyirxahlığa və mənəvi kamilliyə dəvət edən bu bayram hər birinizin ocağına sağlıq, qarşılıqlı anlaşma və əmin-amanlıq gətirsin!

Vətən uğrunda həlak olmuş şəhidlərimizin xatirəsini ehtiramla yad edirəm. Onların doğma və yaxınlarına səbir diləyirəm. Uca Tanrı mərhəmətini xalqımızdan heç zaman əsirgəməsin!

Bütün dünya müsəlmanlarını Ramazan bayramı münasibətilə ürəkdən təbrik edirəm, Allahdan onların dua və oruclarının qəbul olunmasını diləyirəm.

Dərin hörmət və sevgilərlə,

Sizin MEHRİBAN”.

***https://azertag.az***

## Prezident İlham Əliyev Şuşada Yuxarı Gövhərağa məscidində olub

13.05.2021

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva mayın 13-də Şuşada Yuxarı Gövhərağa məscidində olublar.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına və birinci xanıma məsciddə aparılan bərpa işləri ilə bağlı məlumat verildi.

Bildirildi ki, burada bərpa işləri Heydər Əliyev Fondu tərəfindən həyata keçirilir. 1768-1769-cu illərdə inşa edilən bu məscid də işğal dövründə erməni vandalizminin qurbanı olmuşdu.

***https://azertag.az***

## Birinci vitse-prezident Mehriban Əliyeva rəsmi “Instagram” səhifəsində “Xarıbülbül” musiqi festivalının qala-konsertindən görüntü paylaşıb

13.05.2021

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi “Instagram” səhifəsində “Xarıbülbül” musiqi festivalının qala-konsertindən görüntü paylaşıb.

AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir:

"Şükür Allaha! Ulu Tanrı, Azərbaycanı və Azərbaycan xalqını daim qoru!
Dərin hörmət və sevgilərlə,
Sizin MEHRİBAN".

***https://azertag.az***

## Şuşanın Cıdır düzündə “Xarıbülbül” musiqi festivalı qala-konsertlə başa çatıb

13.05.2021

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü və Heydər Əliyev Fondunun təşkilatçılığı ilə ölkəmizin mədəniyyət paytaxtı Şuşanın Cıdır düzündə keçirilən “Xarıbülbül” musiqi festivalı mayın 13-də qala-konsertlə başa çatıb.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva festival ifaçılarının çıxışlarını dinləyiblər.

Qala-konsertdə Xalq artistləri Rauf Abdullayev, Yalçın Adıgözəlov, Əməkdar artist Fuad İbrahimov və Murtuza Bülbülün dirijorluğu ilə Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri, Xalq artisti Gülbacı İmanovanın bədii rəhbərliyi ilə Azərbaycan Dövlət Xor Kapellası çıxış ediblər. Konsertdə Üzeyir Hacıbəylinin, Fikrət Əmirovun, Qara Qarayevin, Ələkbər Tağıyevin, Müslüm Maqomayevin, Niyazinin, Tofiq Quliyevin, Vasif Adıgözəlovun və digər bəstəkarların əsərləri təqdim olunub.

Festival çərçivəsində Xalq artistləri Alim Qasımov, Azərin, Dinarə Əliyeva, Elçin Əzizov, Əlixan Səmədov, Fərhad Bədəlbəyli, Mənsum İbrahimov, Murad Adıgözəlzadə, Natiq Şirinov, Polad Bülbüloğlu, Samir Cəfərov, Teyyub Aslanov, Yusif Eyvazov, Əməkdar artistlər Fərqanə Qasımova, Mirələm Mirələmov, Sahib Paşazadə, Şəhriyar İmanov, Şirzad Fətəliyev və digər ifaçıların çıxışları da alqışlarla qarşılandı.

Konsertdə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin vaxtı ilə işğal altında olan ərazilərimiz haqqında söylədiyi “Arzu edirəm ki, sizinlə birlikdə gedək Şuşaya. Gedəcəyik, inanın ki, gedəcəyik. Şuşa Azərbaycanın gözüdür, hər bir azərbaycanlı üçün bu, iftixar mənbəyidir. Şuşa bizim mədəniyyətimizin, tariximizin rəmzidir. Şuşa hamı üçün əzizdir. Amma tək Şuşa yox, Laçın dağları

da belə əzizdir. Heç vaxt biz Laçınsız yaşaya bilmərik. Ağdam kimi gözəl bir şəhər, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Kəlbəcərin o bulaqları, Kəlbəcərin o İsti suyu. Biz onlarsız yaşaya bilmərik” fikirlərini və Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı, Prezident İlham Əliyevin Şuşa şəhərinin 2020-ci il noyabrın 8-də işğaldan azad edildiyi gün xalqımıza müraciətində dediyi “Xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları! Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik! Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!” sözlərini əks etdirən videoçarx təqdim edilib.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun torpaqlarımızı işğaldan azad etməsindən sonra ilk dəfə keçirilən “Xarıbülbül” musiqi festivalı incəsənət xadimlərinin “Azərbaycan” mahnısının birgə ifası ilə yekunlaşdı.

Konsert bitəndən sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva festivalda iştirak edən incəsənət xadimləri ilə görüşdülər. Cıdır düzündə hamı birlikdə “Qarabağ Azərbaycandır!” söylədi.

x x x

Qeyd edək ki, mayın 12-də - “Xarıbülbül” musiqi festivalının ilk günündə ölkəmizdə yaşayan müxtəlif xalqların musiqi yaradıcılığı “Azərbaycan musiqisində multikulturalizm” mövzusunda təqdim edilib. Ölkəmizin müxtəlif bölgələrində yaşayan ayrı-ayrı xalqların musiqi qrupları və ifaçıları öz çıxışları ilə Azərbaycanın millətindən, dinindən asılı olmayaraq hər bir kəsin vahid Vətəni olduğu mesajını bütün dünyaya çatdırıb. Festivalın açılışındakı çıxışında bu mesajın əhəmiyyətini xüsusi vurğulayan Azərbaycan Prezidenti İlham Əliyev deyib: “Azərbaycanda bütün xalqlar dostluq, qardaşlıq, həmrəylik şəraitində yaşayır və bu 44 günlük müharibə bir daha onu göstərdi ki, ölkəmizdə milli birlik,

milli həmrəylik vardır. Təsadüfi deyil ki, birinci festivalda Azərbaycanda yaşayan xalqların nümayəndələri çıxış edəcəklər və bir daha biz bütün dünyaya buradan – Şuşadan, qədim torpağımızdan mesaj veririk".

Xatırladaq ki, 44 günlük Vətən müharibəsində Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə qəhrəman Azərbaycan Ordusu Ermənistanın işğalı altında olan torpaqlarımızı azad etməyə və ərazi bütövlüyümüzü bərpa etməyə müvəffəq oldu. Hazırda işğaldan azad olunan ərazilərdə böyük quruculuq layihələri həyata keçirilməkdədir. Bu layihələr azad olunan ərazilərin, inzibati, tarixi və mədəni abidələrin bərpası ilə yanaşı, həm də tarixi torpaqlarımızda illərdir keçirilməyən mədəni tədbirlərimizin, ənənələrimizin bərpasını əhatə edir. Beləliklə, işğaldan azad olunan torpaqlarımız hazırda mənən də dirçəlir. Mayın 12-13-də Cıdır düzündə keçirilən "Xarıbülbül" musiqi festivalı bunun əyani təsdiqidir.

***https://azertag.az***

## Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun və Zəfər yolunun tikintisi ilə tanışlıq

14.06.2021

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 14-də Əhmədbəyli-Füzuli-Şuşa yolunda və Zəfər yolunda görülən işlərlə tanış olub.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına avtomobil yollarında tikinti işlərinin gedişi barədə məlumat verildi.

Bildirildi ki, 4 və 6 hərəkət zolaqlarından ibarət Əhmədbəyli-Füzuli-Şuşa yolunun uzunluğu 81 kilometr, Zəfər yolunun uzunluğu isə 101 kilometr olacaq. Hər iki yol boyunca tunellər, körpülər inşa ediləcək, bütün zəruri infrastruktur yaradılacaq.

***https://azertag.az***

## Zəfər yolu üzərində körpünün inşası ilə tanışlıq

14.06.2021

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 14-də Zəfər yolunun Xocavənd rayonundan keçən hissəsində inşa edilən körpüdə görülən işlərlə tanış olub.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına körpünün texniki göstəriciləri barədə məlumat verildi.

Bildirildi ki, Quruçay üzərində inşa olunan üçaşırımlı körpünün uzunluğu 86 metr olacaq. İşğaldan azad edilən ərazilərimizdə görülən bütün bərpa və yenidənqurma işləri kimi, burada da tikinti yüksək sürətlə aparılır və yol istismara verilənədək bu körpü də hazır olacaq.

***https://azertag.az***

## Prezident İlham Əliyev Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunda inşa olunacaq tunelin təməlini qoyub

14.06.2021

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 14-də Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun Daşaltı kəndinin ərazisindən keçən hissəsində inşa olunacaq tunelin təməlini qoyub.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına tunelin texniki göstəriciləri barədə məlumat verildi.

Bildirildi ki, burada ümumilikdə iki tunel tikiləcək və onların hər biri ikizolaqlı olacaq. Tunellərin hər birinin uzunluğu 530 metr, eni isə 12 metr olacaq.

***https://azertag.az***

## Azərbaycan Prezidenti İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanı Füzuli rayonunda qarşılayıb

15.06.2021

İyunun 15-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Şuşa şəhərinə yola düşüb.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanı və xanımı Əminə Ərdoğanı Füzuli rayonunda qarşıladı.

**Prezident İlham Əliyev:** Əziz qardaşım, Qarabağ torpağına xoş gəlmisiniz.

**Prezident Rəcəb Tayyib Ərdoğan:** Xoş gördük. Ancaq Qarabağ torpaqlarını yaxıb-yıxıblar.

**Prezident İlham Əliyev:** İndi daha da görəcəksiniz. Gördünüz də?

**Prezident Rəcəb Tayyib Ərdoğan:** Gördük.

**Prezident İlham Əliyev:** Əminə xanım, xoş gəlmisiniz.

**Əminə Ərdoğan:** Xoş gördük.

**Prezident İlham Əliyev:** Bura Füzuli bölgəsidir, yəni, Aşağı Qarabağ bölgəsidir. Bakıdan gələndə birinci Qarabağ bölgəsi Füzulidir.

**Prezident Rəcəb Tayyib Ərdoğan:** Burada yol tikintisi layihələri var.

**Prezident İlham Əliyev:** Bəli, başladıq. Bu da artıq Qarabağ dağlarıdır, meşələrdir.

x x x

Sonra dövlət başçıları Şuşa şəhərinə yola düşdülər.

**Prezident İlham Əliyev:** İndi Füzulinin baş planı hazırlanır. Yəqin ki, bir neçə aya onu biz artıq təsdiqləyəcəyik. Ondan sonra isə bərpa işlərinə başlayacağıq.

x x x

Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan yolüstü Şuşa şəhərinin ətraf ərazilərini seyr etdilər.

x x x

**Prezident İlham Əliyev:** Buradan Şuşanın yerini göstərim.

**Prezident Rəcəb Tayyib Ərdoğan:** Göstər, baxaq.

**Prezident İlham Əliyev:** Bax, oradır, o qayanın başı, soldan sağa qədər. O da kənddir, Şuşanın altında, bu kəndin adı Daşaltıdır.

**Prezident Rəcəb Tayyib Ərdoğan:** Daşaltı, daş orada, o da altı.

**Prezident İlham Əliyev:** Daşaltı, yəni, daşın altı.

**Əminə Ərdoğan:** Şuşa onun arxasındadır?

**Prezident İlham Əliyev:** Şuşa düz onun üstündədir.

**Əminə Ərdoğan:** Düzənliyin üstündə.

**Prezident İlham Əliyev:** Bəli, o düzənliyin üstündə. Sağdakı o dağ çıxıntısı Cıdır düzüdür. At yarışları keçirilən məşhur Cıdır düzü. Biz də gedib oraya baxacağıq.

x x x

Burada xatirə şəkilləri çəkdirildi.

***https://azertag.az***

## Şuşada Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın rəsmi qarşılanma mərasimi olub

15.06.2021

Azərbaycan Respublikasına rəsmi səfərə gələn Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın iyunun 15-də Şuşada rəsmi qarşılanma mərasimi olub.

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda Türkiyə Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanı və birinci xanım Əminə Ərdoğanı qarşıladılar.

Fəxri qarovul dəstəsinin rəisi Türkiyə Prezidentinə raport verdi.

Türkiyə Prezidenti Azərbaycan əsgərlərini salamladı.

President İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

Türkiyə Respublikasının və Azərbaycan Respublikasının dövlət himnləri səsləndi.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın qarşısından keçdi.

Dövlət başçıları rəsmi foto çəkdirdilər.

***https://azertag.az***

## Azərbaycan və Türkiyə prezidentlərinin təkbətək görüşü

15.06.2021

İyunun 15-də Şuşada rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə təkbətək görüşü olub.

xxx

AZƏRTAC xəbər verir ki, görüşdən sonra Prezident İlham Əliyev "Baykar" şirkətinin baş direktoru Lutfi Haluk Bayraktara "Qarabağ" ordeni təqdim etdi.

Prezident İlham Əliyevin Sərəncamına əsasən Lutfi Haluk Bayraktar bu yüksək mükafata Azərbaycanla Türkiyə arasında qardaşlıq əlaqələrinin möhkəmləndirilməsinə, əməkdaşlığın inkişafına, Azərbaycan Respublikasının ərazi bütövlüyünün və suverenliyinin təmin olunması istiqamətindəki haqq işinə verdiyi töhfəyə görə layiq görülüb.

***https://azertag.az***

## Şuşada Azərbaycanın tanınmış şəxsiyyətləri Natəvan, Bülbül və Üzeyir Hacıbəylinin heykəlləri də ziyarət olunub

15.06.2021

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan, birinci xanım Əminə Ərdoğan Şuşada Azərbaycanın tanınmış şəxsiyyətləri Natəvan, Bülbül və Üzeyir Hacıbəylinin heykəlləri önünə gəldilər.

AZƏRTAC xəbər verir ki, işğal zamanı ermənilərin həmin heykəlləri Ermənistana apararaq əritmək istədikləri qonaqların diqqətinə çatdırılıb. Bildirilib ki, Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə həmin heykəllər Ermənistandan alınaraq Azərbaycana gətirilib və Bakıda İncəsənət Muzeyinin həyətində saxlanılıb. Şuşa işğaldan azad olunduqdan sonra həmin heykəllər öz əvvəlki yerlərinə qoyulub.

***https://azertag.az***

## Azərbaycan ilə Türkiyə arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi imzalanıb

15.06.2021

İyunun 15-də Şuşada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın təkbətək görüşündən sonra “Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi” imzalanıb.

AZƏRTAC xəbər verir ki, Şuşa Bəyannaməsini Prezident İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan imzalayıblar.

***https://azertag.az***

## Azərbaycan və Türkiyə prezidentləri mətbuata birgə bəyanatlarla çıxış ediblər

15.06.2021

İyunun 15-də Şuşa Bəyannaməsinin imzalanmasından sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan mətbuata birgə bəyanatlarla çıxış ediblər.

AZƏRTAC xəbər verir ki, əvvəlcə dövlətimizin başçısı bəyanatla çıxış etdi.

### Prezident İlham Əliyevin bəyanatı

- Hörmətli cənab Prezident, əziz qardaşım Rəcəb Tayyib Ərdoğan.

Türkiyədən gəlmiş hörmətli qonaqlar.

Xanımlar və cənablar.

Bu gün həyatımızda əlamətdar gündür, tarixi bir gündür. Bu gün biz qardaş ölkənin əziz Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğanı Qarabağ torpağında, Şuşa torpağında salamlayırıq. Mən fürsətdən istifadə edərək, bütün Azərbaycan xalqı adından əziz qardaşımı Şuşada, Qarabağda salamlamaq istəyirəm.

Əziz qardaşım Azərbaycanda dəfələrlə olub, ancaq biz ilk dəfə Qarabağ torpağında - Şuşada bir yerdəyik. Bu səfərin tarixi əhəmiyyəti var. Çünki bu gün imzalanmış Birgə Bəyannamə - Müttəfiqlik haqqında Bəyannamə əlaqələrimizi ən yüksək zirvəyə qaldırır. Bəyannamənin adı Müttəfiqlik haqqında Bəyannamədir və bu ad özü-özlüyündə hər şeyi göstərir, hər şeyi deyir. Biz bu gün keyfiyyətcə yeni əlaqələr qurmuşuq və bu Bəyannamədə göstərilən bütün müddəalar bizim gələcək iş birliyimizin təminatçısıdır.

Mən mətbuat konfranslarında, öz çıxışlarımda dəfələrlə demişəm ki, bu gün Türkiyə və Azərbaycan bir-birinə dünya çapında ən yaxın olan ölkələrdir. Bizi birləşdirən bir çox amillər var, ilk növbədə, tarix, mədəniyyət, ortaq etnik

köklər, dilimiz, dinimiz, milli dəyərlərimiz, milli maraqlarımız, xalqlarımızın qardaşlığı bu birliyi təmin edib. Bu gün biz dünya miqyasında, dünya çapında nadir əməkdaşlıq, iş birliyi, müttəfiqlik nümunəsi göstəririk.

İmzalanmış Bəyannamə tarixə əsaslanır. Bəyannamədə xalqlarımızın böyük liderləri, öndərləri Mustafa Kamal Atatürkün və Heydər Əliyevin kəlamları öz əksini tapıb. XX əsrin əvvəllərində Mustafa Kamal Atatürk demişdir: "Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir". XX əsrin sonlarında Heydər Əliyev demişdir: "Türkiyə və Azərbaycan bir millət, iki dövlətdir". Bu tarixi sözlər, kəlamlar bizim fəaliyyətimiz üçün əsas amildir. Biz bu vəsiyyətə sadiqik və XXI əsrdə azad edilmiş Şuşada Müttəfiqlik Bəyannaməsini imzalayarkən əcdadlarımıza sadiqliyimizi nümayiş etdiririk və gələcək nəsillərə yol göstəririk.

Birgə Bəyannamədə tarixi Qars müqaviləsinə istinad edilir. Tarixi Qars müqaviləsi düz 100 il bundan əvvəl imzalanmışdır. Bu da böyük rəmzi məna daşıyır. Azad edilmiş Şuşa şəhərində 100 ildən sonra müttəfiqlik haqqında imzalanan Birgə Bəyannamə bizim gələcək iş birliyimizin istiqamətini göstərir.

Bəyannamədə bir çox önəmli məsələlər öz əksini tapır. Beynəlxalq müstəvidə birgə əməkdaşlığımız, fəaliyyətimiz, siyasi əlaqələr, iqtisadi-ticarət əlaqələri, mədəniyyət, təhsil, idman, gənclər siyasəti, demək olar ki, bütün sahələr əhatə olunur. Enerji təhlükəsizliyinin, Cənub Qaz Dəhlizinin önəmi Türkiyə, Azərbaycan və Avropa üçün göstərilir və hər bir məsələ çox böyük önəm daşıyır. Mən onların arasında iki məsələni xüsusilə qeyd etmək istərdim. Birincisi, müdafiə sahəsində əməkdaşlıq, iş birliyi məsələsi. Müdafiə sənayesi sahəsində və qarşılıqlı hərbi yardım məsələləri bu Bəyannamədə öz əksini tapır. Bu, tarixi nailiyyətdir. Biz bir daha göstəririk ki, bundan sonra da hər zaman bir yerdə olacağıq. Bundan sonra da bir-birimizin təhlükəsizliyini təmin edəcəyik, necə ki, bu günə qədər Türkiyə və Azərbaycan bütün məsələlərdə bir yerdədir, bundan sonra da bu, belə olacaq.

İkinci önəmli məsələ nəqliyyat məsələsidir. Bəyannamədə Zəngəzur dəhlizinin açılması ilə bağlı çox açıq ifadələr öz əksini tapmışdır. Bu da İkinci Qarabağ savaşından sonra yaranmış yeni geosiyasi vəziyyətin nəticəsidir. Bu gün biz Tür-

kiyəni və Azərbaycanı dəmir yolu ilə, avtomobil yolu ilə birləşdirəcək Zəngəzur dəhlizi haqqında nəinki danışırıq, bu dəhlizi əməli işlərlə yaradırıq. Müttəfiqlik haqqında imzalanmış Birgə Bəyannamədə bu məsələnin əks olunması böyük məna daşıyır.

Bu gün biz azad edilmiş Şuşada görüşürük. Bu gün bütün Azərbaycan xalqının, əminəm ki, türk xalqının gözü buradadır, dünyanın gözü buradadır. Çünki bu səfər Azərbaycanda səbirsizliklə gözlənilirdi və bilirəm ki, böyük maraq doğurur. Bu gün buradan - qədim şəhərimiz olan Şuşadan verilən açıqlamalar bütün dünyaya səs salacaq, bunun böyük əks-sədası olacaqdır. Bu səfərin tarixi əhəmiyyəti bundan sonra uzun illər ərzində dillərdə olacaqdır.

Şuşa şəhəri işğaldan keçən il noyabrın 8-də azad edilmişdir. Şuşa şəhərini azad etmək böyük qəhrəmanlıq tələb edirdi. Şuşaya gələn hər bir insan bu sıldırım qayalara baxarkən görür ki, bu şəhəri, alınmaz qala sayılan şəhəri götürmək, azad etmək böyük qəhrəmanlıq, peşəkarlıq, şücaət, fədakarlıq tələb edir. Qəhrəman Azərbaycan əsgərləri qan tökərək, şəhid olaraq, sıldırım qayalara dırmaşaraq, demək olar ki, yüngül silahlarla, əliyalın Şuşanı düşmənin əlindən aldı və Azərbaycan bayrağını ucaltdı.

Bu gün Şuşada dalğalanan Azərbaycan və Türkiyə bayraqları bizim birliyimizi göstərir. İkinci Qarabağ müharibəsi başlanan gündən, ilk saatlardan əziz qardaşım, sayın Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan Azərbaycana birmənalı, dəqiq və açıq dəstək ifadə etmişdir. Müharibənin ilk saatlarından o demişdir ki, Azərbaycan tək deyil. Bu, həm bizi ruhlandırdı, eyni zamanda, müdaxilə etmək fikrində olan bütün qüvvələri, dairələri dayandırdı, durdurdu. Dedi ki, Türkiyə Azərbaycanın yanındadır və müharibənin ilk saatlarından son dəqiqələrinə qədər əziz qardaşımın və Türkiyə Cümhuriyyətinin, qardaş türk xalqının dəstəyi bizə əlavə güc verirdi. Bu siyasi və mənəvi dəstək bizi ruhlandırırdı. Türkiyənin bütün yerlərindən gələn mesajlar, təbriklər, dəstək, həmrəylik ifadələri bir daha bütün dünyaya bizim birliyimizi nümayiş etdirmişdir.

Bu gün Türkiyənin mətbuat nümayəndələri burada - Şuşadadırlar, onların fəaliyyətini xüsusilə qeyd etmək istəyirəm. Onlar müharibənin ən təhlükəli an-

larında real vəziyyəti əks etdirmək, tamaşaçılara və dünyaya çatdırmaq üçün öz həyatlarını risk altına atırdılar. Mən özüm şəxsən müharibə dövründə bir çox hallarda Türkiyə televiziya kanallarında gedən reportajları izləmişdim və bir daha görürdüm ki, burada təkcə peşəkarlıq məsələləri deyil, burada həmrəylik, sevgi ilə dolu reportajlar verilir. Azərbaycanın haqq səsi, Azərbaycanın haqlı olması dünyaya çatdırılır və ən təhlükəli yerlərdən, bombalar düşdüyü yerlərdən Türkiyənin mətbuat nümayəndələri dərhal oraya gəlmişlər, reportajlar hazırlamışlar. Onlar yaxşı bilirdilər ki, Ermənistan döyüş meydanında qarşımızda duruş gətirmədiyi üçün bizim mülki vətəndaşları uzaqmənzilli raketlərlə, "Toçka-U", "İskəndər M" raketləri ilə atəşə tutub və bu namərd atəş nəticəsində 100-dən çox mülki şəxs, o cümlədən uşaqlar, qadınlar həlak olmuşlar. Biz müharibə dövründə bütün türk xalqının məhəbbətini, sevgisini, həmrəyliyini bir daha gördük. Onsuz da bilirdik ki, biz bir millət, iki dövlətik, necə ki, rəhmətlik atam demişdir. Ancaq müharibə bir daha bütün dünyaya bunu göstərdi və biz heç vaxt bu dəstəyi unutmayacağıq.

İkinci Qarabağ müharibəsi tarixdə qaldı, 44 günlük müharibə nəticəsində Ermənistan ordusu tam məhv edildi. Ermənistan diz çökdü, ağ bayraq qaldırdı, təslim oldu və məcbur olub Şuşa alınandan sonra kapitulyasiya aktına imza atdı və bizim digər bölgələrimiz bir atəş açmadan bizə qaytarıldı. Otuz ilə yaxın davam edən işğala son qoyuldu. Azərbaycan buna qardaş Türkiyənin dəstəyi ilə son qoydu. Otuz il ərzində aparılan danışıqlar heç bir nəticə vermədi. Bu, bir daha onu göstərir ki, iradə, əzmkarlıq, güc və ədalət olan yerdə hər şey əldə etmək mümkündür. Əlbəttə, Türkiyə kimi müttəfiqi olan Azərbaycan İkinci Qarabağ savaşında bundan ruhlanaraq tarixi missiyanı yerinə yetirdi, ədaləti bərpa etdi, ərazi bütövlüyünü bərpa etdi.

İndi isə yeni dövr başlayır. Əziz qardaşımla bu gün Füzuli şəhərində görüşərək, onu orada qarşılayaraq Füzulinin dağılmış mənzərəsini göstərdim, Füzuli şəhəri yoxdur. Siz də oradan keçmisiniz, görmüsünüz, bir dənə də salamat bina yoxdur. Mənfur düşmən bütün binalarımızı yerləbir edib. Ağdam da belə vəziyyətdədir. Bizim tarixi abidələrimizi dağıdıb, söküb və talan ediblər. Şuşa

şəhəri görün nə gündədir. Şuşa tarixi şəhərdir və 28 il işğal dövründə burada bir dənə də bina tikilməmişdir. Mən əziz qardaşıma bax, bu binanı göstərdim, Şuşa valiliyinin binası, mənim rəhmətlik atamın dövründə tikilmişdir. Şuşadakı binalar həm onun dövründə, həm də Pənahəli xanın, İbrahimxəlil xanın dövründə tikilmişdir. Mənfur düşmən bir daşı daş üstə qoymamışdır. İndi Şuşanın dağılmış yerlərini siz görürsünüz, hələ biz bura əl gəzdirmişik. İlk dəfə mən bu ilin əvvəlində buraya gələndə şəhər tamamilə dağılmış vəziyyətdə idi.

Şuşa tarixi Azərbaycan şəhəridir. Çünki 1752-ci ildə Pənahəli xan bu şəhərin təməlini qoydu və ondan sonra bütün dövrlərdə Şuşada yaşayan əhalinin 98 faizi azərbaycanlılar idi və 30 il işğal altında qalmasına baxmayaraq Şuşa əyilmədi, öz milli ruhunu qoruya bildi, ləyaqətini qoruya bildi və bizi gözləyirdi. Biz də gəldik və Şuşanı azad etdik.

Bu gün qardaş ölkənin Cümhurbaşqanı tarixi şəhərdə bizim qonağımızdır və hiss etdiyimiz duyğuları sözlərlə ifadə etmək mümkün deyil. Mən əminəm ki, buraya gələn hər bir insan eyni duyğuları hiss edir və bu çox duyğusal günləri yaşadığımız üçün Ulu Tanrıya minnətdarıq.

Əziz qardaşım, biz Sizi səbirsizliklə Şuşada gözləyirdik, Sizi mən dəvət etmişdim. Biz - iki dövlətin Cümhurbaşqanı keçən ilin dekabr ayında hərbi paradı birlikdə qəbul edərkən razılaşdıq ki, növbəti görüş burada olacaq və belə də oldu. Bir daha xoş gəlmisiniz, doğma Vətəninizə xoş gəlmisiniz, Şuşamıza xoş gəlmisiniz!

Türkiyə-Azərbaycan birliyi, qardaşlığı əbədidir!

xxx

Sonra Türkiyə dövlətinin başçısı bəyanatla çıxış etdi.

## Prezident Rəcəb Tayyib Ərdoğanın bəyanatı

- Hörmətli cənab Prezident, əziz qardaşım.

Hörmətli heyət üzvləri.

Sizləri ən səmimi hisslərimlə, sevgi ilə salamlayıram.

Bu gün təbii ki, fərqli bir həyəcanın, hisslərin içindəyik. Allaha şükür olsun ki, daha əvvəl verdiyimiz sözümüzü bu gün yerinə yetiririk. Qırx dörd günlük məlum müharibənin nəticəsində Qarabağ, çox şükürlər olsun ki, sahiblərinə qovuşdu və erməni zülmündən, erməni işğalından azad edildi.

Hazırda arxa fonda görünən bina, əslində, erməni zülmünün təəssüf ki, bu şah əsərləri nə hala gətirdiyinin bir ifadəsidir. Qardaşım da fon olaraq mətbuat konfransı üçün olduqca anlamlı bir yer seçib. Bir tərəfdə valilik binası, o biri tərəfdə də təəssüf ki, ermənilərin, necə deyərlər, yerlə-yeksan etdikləri bir bina.

15 İyun – Azərbaycanın Milli Qurtuluş Günü münasibətilə ümummilli lider Heydər Əliyevi rəhmətlə anırıq, ruhu şad olsun deyirik.

Bildiyiniz kimi, qəhrəman Azərbaycan Ordusunun Qarabağ Zəfərinin sevincini qardaşım cənab Əliyevlə keçən il dekabrın 10-da Bakıda birlikdə bölüşmüşdük. O gün tamamilə başqa bir coşqu, başqa bir həyəcan var idi. Altı ay sonra qədim Şuşa şəhərində onunla bir yerdə olmaqdan böyük məmnunluq duyuram. Verdiyimiz söz, çox şükür, yerinə yetirildi.

Azərbaycan xalqının Qarabağ Zəfərini bir daha təbrik edirəm. Tarixdə bir çox incəsənət xadimi yetişdirmiş Azərbaycanın mədəniyyət paytaxtı Şuşadan bölgəmizə və dünyaya verəcəyimiz mesajların çox önəmli olduğuna inanıram. Qardaşım Əliyevin uzaqgörən liderliyi və Müzəffər Ali Baş Komandanlığı ilə azadlığına qovuşan Qarabağın yenidən dirçəldilməsi işlərini yaxından izləyirik. Şuşaya gələrkən bu işləri gördük və siz də gördünüz. Fasiləsiz iş görülür, infrastruktur sahəsində intensiv iş aparılır. Bir tərəfdən yollar salınır, bir tərəfdən enerji stansiyaları açılır, bir tərəfdən yüksəkgərginlikli xətlər çəkilir. Bütün bunlarla yanaşı, susuz olan bu bölgə suya qovuşur. Bu işlər hazırda fasiləsiz davam edir.

İnşallah, ən qısa vaxtda bölgə hava limanına, hava limanlarına da qovuşacaq. Təkbətək görüşdə də əziz qardaşım bunları mənə xüsusilə danışdı. Hava limanına, hava limanlarına da qovuşduqdan sonra buralara gəliş-gediş daha da artacaq və inanıram ki, bu bölgə o dövrdə turizmdə də ciddi bir sıçrayışı yaşayacaq.

Təbii ki, Qarabağ əvvəlki ehtişamına və öz kimliyinə qovuşacaq. Buna heç şübhəmiz yoxdur. Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Laçın, Şuşa, Kəlbəcər, Ağdam, Xocavənd kimi Qarabağın qədim yaşayış məntəqələrinin yenidən inkişaf etdiyi günləri yaxın vaxtlarda hamımız birlikdə görəcəyik.

Türkiyə olaraq, azadlıq mübarizəsində olduğu kimi, bərpa işlərində də qardaşlarımıza hər cür dəstəyi veririk, verməkdə də davam edəcəyik. Ən qısa müddətdə evlərinə qayıtmalarını gözlədiyimiz azərbaycanlı qardaşlarımız üçün də hər cür səy göstərəcəyik. Təbii ki, bu məsələdə hörmətli qardaşımın xüsusi fəaliyyəti var. Yetər ki, buranın əsl sahibləri evlərinə, məskənlərinə qayıtsın. Onlara istər maliyyə köməyi, istərsə də iş imkanı ilə bağlı hər cür dəstəyi verməklə azərbaycanlı qardaşlarımızın öz evlərinə, öz məkanlarına geri qayıtmaları buraları ciddi mənada zənginləşdirəcək.

Təbii ki, bir tərəfdən dağıntıların fəsadlarını aradan qaldırarkən, digər tərəfdən də Qarabağın və Azərbaycan torpaqlarının bir daha belə bir fəlakət yaşamaması üçün lazımi tədbirləri birlikdə görəcəyik. Bizim də bu sahədə, inşallah, Mənzil İnşaat İdarəmizlə birlikdə burada bütün bölgədə planlaşdırdığımız addımlar var. Mənzil İnşaat İdarəmizlə buradakı aidiyyəti qurumla birlikdə çalışaraq bu addımları atacağıq.

Bölgədə təsiri olan hər kəsi həqiqətləri görməyə, Azərbaycan xalqının Zəfərini qəbul etməyə və gələcəyə baxmağa dəvət edirik. Atəşkəs razılaşmasından sonra artıq bölgədə bütün tərəflər üçün yeni əməkdaşlıq imkanları yaranıb. Azərbaycanlı qardaşlarımın bu məsələdə son dərəcə istəkli olmalarının ən yaxın şahidiyik.

Türkiyə olaraq biz də coğrafi qonşuluq əlaqələrimizi daha dərin əməkdaşlıqlara yönəltmək istəyirik. Ermənistanın ona xoş niyyətlə uzadılan həmrəylik əlini tutmasını, ortaq gələcəyi birlikdə formalaşdırmaq fürsətindən yaxşı istifadə

etməsini arzu edirik. Altılı platforma dedik. Bu altılı platformada bildiyiniz kimi, Rusiya, Türkiyə, Azərbaycan, Ermənistan, Gürcüstan və İran var. Bu altılı platforma ilə birlikdə artıq istəyirik ki, bölgə rahatlıqla, sülh içində yaşanan bir bölgə olsun. Bu addımı atmaq üçün biz qardaşımla birlikdə hər cür fədakarlığa hazırıq. Cənab Putin eyni qaydada bu cür fədakarlığa hazırdır. Bu istiqamətdə atılacaq addımlarla bölgə bir sülh bölgəsinə çevriləcək.

Bu tarixi fürsətin reallığa söykənməyən həvəslər, ifadələr və fəaliyyətlərlə qaçırılmaması ən böyük arzumuzdur. Bölgədəki yeni reallığa fayda vermək istəyən hər kəsin nifrət və təhrik siyasətindən əl çəkərək sülh və əməkdaşlığı təşviq etməyə istiqamətlənməsi əsas şərtdir. Belə bir mühit formalaşanda Ermənistan ilə münasibətlərin normallaşması üçün biz də üzərimizə düşəni edəcəyimizi hər fürsətdə deyirik. Bu ümidverici proses Azərbaycan ilə Ermənistanın imzaladıqları atəşkəs razılaşmasını əhatəli və uzaqgörən bir sülh müqaviləsi ilə tamamladıqları halda çox sağlam şəkildə davam edəcəyinə inanırıq.

Hörmətli mətbuat nümayəndələri, hörmətli qonaqlar qardaşım Əliyev ilə bir az əvvəl baş tutan görüşdə əlaqələrimizi bir daha ətraflı nəzərdən keçirmək fürsətimiz oldu. Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının iclasını qarşıdakı aylarda Türkiyədə keçirəcəyik. Bildiyiniz kimi, 2021-ci il aprelin 1-dən etibarən iki ölkə arasında gediş-gəlişi şəxsiyyət vəsiqəsi ilə başlatmışıq. Bu addım qarşılıqlı əlaqələrimizi asanlaşdıraraq bizi bir-birimizə daha da yaxınlaşdıracaq.

Son dövrdə ikitərəfli ticarətimizdə mühüm addımlar atdıq. Preferensial Ticarət Sazişi 2021-ci il martın 1-də qüvvəyə mindi. Ticarət dövriyyəmizi 2023-cü ildə 15 milyard dollara çatdırmaq hədəfimizə doğru addım-addım irəliləyirik.

"Türkiyə Petrolları" başda olmaqla, bir çox şirkətimizin Azərbaycanda mühüm investisiyaları var. Eyni qaydada, SOCAR başda olmaqla, Azərbaycan şirkətlərinin Türkiyədəki sərmayələri bizi məmnun edir. Təkcə Türkiyədə deyil, lazım gələrsə, SOCAR ilə "Türkiyə Petrolları"nın üçüncü ölkələrdə də investisiya qoymaq məsələsini qardaşımla birlikdə müzakirə etdik. İnşallah, bunun üzərində də işləyirik və işləyəcəyik.

Qarşıdakı dövrdə ticari və iqtisadi əməkdaşlığımızın miqyasını daha da

genişləndirəcəyik. Azərbaycan ilə Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Qars və TANAP kimi nəhəng layihələri birlikdə tamamladıq. Bu layihələr ölkələrimizlə birlikdə bütün bölgənin rifahına və sabitliyinə töhfə verir. Trans-Adriatik boru kəməri layihəsi – TAP-ın tamamlanması ilə ölkəmiz ərazisindən keçən Azərbaycan təbii qazı Avropa bazarındakı yerini almışdır.

Bu gün, əziz qardaşımın da dediyi kimi, xüsusilə "bir millət, iki dövlət" təməli üzərində yüksəltdiyimiz əlaqələrimizi daha da inkişaf etdirəcək yeni bir tarixi addımı atdıq. Bu addım çox önəmlidir. Bunu bundan sonrakı prosesdə daha da gücləndirəcəyik və gücləndirərək yolumuza da davam edəcəyik.

Bir az əvvəl qardaşımın ifadə etdiyi kimi, Şuşa Bəyannaməsi ilə əlaqələrimizin yeni dövrdəki yol xəritəsini müəyyənləşdirdik. On bir A4 səhifəsindən ibarət bu Bəyannamə Şuşada bu gün reallığa çevrilir. Bu, son dərəcə önəmlidir. Türkiyə ilə Azərbaycan arasındakı bu Bəyannamə bir sıra məsələləri əhatə edir. Gələcəklə bağlı addımları atarkən, artıq təkcə iki ölkəni deyil, bölgəni əhatə edən bir qətiyyətin bu sənəddə ifadə olunduğunu görürük.

Türkiyə olaraq qədim Şuşa şəhərində ən qısa müddətdə, İnşallah, baş konsulluq açmağı planlaşdırırıq. Beləliklə, bölgədə həyata keçirəcəyimiz fəaliyyətlərin daha sürətli və səmərəli şəkildə icra olunmasını da təmin edəcəyik.

Digər tərəfdən, Azərbaycanın Cənubi Zəngəzur dəhlizi layihəsini çox əhəmiyyətli hesab edir və onu da dəstəkləyirik. Bu layihənin həyata keçirilməsi ilə Şərqdən Qərbə hər kəsin istifadə edə biləcəyi yeni bir ortaq dəhliz açılacaqdır. Bu, çox böyük əhəmiyyət kəsb edir.

Pandemiyaya baxmayaraq, kənd təsərrüfatından enerjiyə, nəqliyyatdan turizmə, müdafiədən təhsil və mədəniyyətə qədər hər sahədə əməkdaşlığımızı inkişaf etdirmək üçün birgə səylərimizi qətiyyətlə davam etdiririk. Təbii ki, bütün bunlardan başqa, müdafiə sənayesi sahəsində əlaqələrimizi texnologiya transferi və birgə istehsal layihələri ilə daha da gücləndiririk. Bir az əvvəl "Baykar" şirkətinin baş direktoru Haluk bəyə qardaşım "Qarabağ" ordeni təqdim etdi. Mən də ailə adından ona xüsusilə təşəkkür edirəm. Təbii ki, pilotsuz uçuş aparatları burada ciddi işlər gördü. Müdafiə sənayesi sahəsindəki əlaqələrimiz bundan sonra

daha da fərqli şəkildə inkişaf edəcək. Bu fərqli inkişafla yanaşı, Azərbaycan bir bazar deyil, eyni zamanda, bu prosesdə bir istehsal mərkəzi olmaq imkanı da əldə edəcək. Bizim gücümüz Azərbaycanın gücü, Azərbaycanın gücü də bizim gücümüzdür.

Bu düşüncələrlə cənab Prezident Əliyevə mənə və nümayəndə heyətimə göstərdiyi yüksək qonaqpərvərliyə görə təşəkkürümü bildirirəm. Toplantımızda qəbul etdiyimiz qərarların xeyirli olmasını arzu edirəm. Hamınızı sevgi və hörmətlə salamlayıram. Sağlıqla qalın.

***https://azertag.az***

## Azərbaycan və Türkiyə prezidentləri Şuşada "Xan qızı" bulağında olublar

15.06.2021

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan, birinci xanım Əminə Ərdoğan iyunun 15-də Şuşada "Xan qızı" bulağında olublar.

AZƏRTAC xəbər verir ki, Türkiyə Prezidentinə "Xan qızı" bulağı haqqında məlumat verildi.

Bildirildi ki, Şuşa işğaldan azad olunandan qısa müddət sonra istifadəyə verilən "Xan qızı" bulağı şəhərin məşhur məkanlarından biridir. Xan qızı Xurşidbanu Natəvan təkcə şairə kimi deyil, xeyirxahlığı ilə də tanınırdı. Natəvanın vaxtilə şəhərə çəkdirdiyi su xətti "Xan qızı" bulağı adı ilə məşhur idi. Ermənistanın işğalı altında olduğu müddətdə suyu quruyan bulaq yenə də sakinlər və şəhərin qonaqlarının istifadəsindədir.

Diqqətə çatdırıldı ki, yaxın vaxtlarda bulağın ətrafı tamamilə abadlaşdırılacaq.

Sonda "Xan qızı" bulağının qarşısında xatirə şəkli çəkdirildi.

xxx

Sonra prezidentlər və ailə üzvləri avtobusla Cıdır düzünə yola düşdülər.

**Prezident İlham Əliyev:** Bu, "Qarabağ" otelidir. Bu da atamın dövründə tikilmişdi. Ermənilər ancaq onun iki mərtəbəsindən istifadə edirdilər.

**Prezident Rəcəb Tayyib Ərdoğan:** Bəs, digər mərtəbələr?

**Prezident İlham Əliyev:** Bərbad durumda idi.

**Prezident Rəcəb Tayyib Ərdoğan:** İndi bərpa olunur?

**Prezident İlham Əliyev:** Bəli, bərpa işləri başlayıb. Üç-dörd aya başa çatdırılacaq.

**Prezident Rəcəb Tayyib Ərdoğan:** Bu binada, hava limanında işlər başa

çatandan sonra buraya turistlər də gəlməyə başlayacaq.

**Prezident İlham Əliyev:** Siz qaldığınız da işləmirdi.

**Bilal Ərdoğan:** O da var idi?

**Prezident İlham Əliyev:** Sovetlər dönəmində o da var idi. Bu, yaşayış yeridir. Bu, müharibədən qalan yerlərdir. Bu isə Gövhərağa məscididir. Bunu da biz təmir etmişik.

**Prezident Rəcəb Tayyib Ərdoğan:** İndi istifadə edilirmi?

**Prezident İlham Əliyev:** Bəli. Keçən dəfə biz Mehribanla gəlib burada dualar etdik. Burada bir məscid yarıdağılmış vəziyyətdə idi. Bu da bulaqdır.

**Əminə Ərdoğan:** Burada nə qədər bulaq var imiş?

**Prezident İlham Əliyev:** Burada 17 bulaq var. Çünki Şuşada 17 məhəllə olub, 17 məscid olub, 17 bulaq olub. Ermənilər bizim binalarımızı bax, bu vəziyyətə salıblar.

**Bilal Ərdoğan:** Yəni, səfalət içində yaşayırdılar?

**Prezident İlham Əliyev:** Bəli, səfalət içində yaşayırdılar. Bu binaların hamısı sovetlər dönəmindən qalanlardır. Baxın, bunlar müharibənin izləridir. Burada küçə döyüşləri gedirdi. Buralar hamısı belə dağılmış vəziyyətdir.

**Prezident Rəcəb Tayyib Ərdoğan:** Xarıbülbül.

**Prezident İlham Əliyev:** Xarıbülbül bu gülün, çiçəyin adıdır.

**Bilal Ərdoğan:** Sadəcə, burada bitir?

**Prezident İlham Əliyev:** Bəli, biz onu orada göstərəcəyik. O da Vaqifin məqbərəsidir. Qarabağ xanının vəziri olub.

**Prezident Rəcəb Tayyib Ərdoğan:** Yeni inşa edilib?

**Prezident İlham Əliyev:** Onu mənim atam tikdirmişdi. Ermənilər sökdülər. Biz indi bərpa edirik. Bir aya hazır olacaq. Molla Pənah Vaqif İbrahimxəlil xanın vəziri, eyni zamanda, çox məşhur şair olub. 1982-ci ildəh mənim atam onun məzarı üstündə bax, bu məqbərəni inşa etdirmişdi. Ermənilər də onu sökmüşdülər.

İndi biz Şuşanın tarixi bir yerinə - Cıdır düzünə gedirik.

***https://azertag.az***

## Şuşada Azərbaycanın və Türkiyənin birinci xanımlarının görüşü olub

15.06.2021

İyunun 15-də Şuşada Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyevanın Türkiyə Respublikasının birinci xanımı Əminə Ərdoğan ilə görüşü olub.

***https://azertag.az***

## Şuşada Heydər Əliyev Fondunun təşkilatçılığı ilə "Musiqi irsi və Qarabağ atları Cıdır düzündə" adlı kompozisiya təqdim olunub

15.06.2021

İyunun 15-də Şuşada Heydər Əliyev Fondunun təşkilatçılığı ilə "Musiqi irsi və Qarabağ atları Cıdır düzündə" adlı musiqili kompozisiya təqdim edilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan, birinci xanım Əminə Ərdoğan musiqili kompozisiyaya baxıblar.

Musiqili kompozisiyada Azərbaycan Atçılıq Federasiyasının təqdim etdiyi Qarabağ atlarının möhtəşəm çıxışının müşayiəti ilə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının balet truppasının, F.Əmirov adına Azərbaycan Dövlət Mahnı və Rəqs ansamblının, Azərbaycan Dövlət Rəqs ansamblının, "Mirvari" rəqs ansamblının və Bakı Xoreoqrafiya Akademiyasının tələbələrinin rəqsləri, "Natiq" ritm qrupunun ifaları təqdim olunub. Proqramda Azərbaycanın və Türkiyənin xalq və bəstəkar mahnıları səslənib.

Tədbir zamanı Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana ən qədim at cinslərindən olan "Zəfər" adlı Qarabağ atı və "Xarıbülbül" kompozisiyası hədiyyə edilib. "Xarıbülbül" kompozisiyasında Qarabağın rəmzi sayılan iki xarıbülbül gülü birləşərək Azərbaycan ilə Türkiyə arasındakı əbədi dostluq və qardaşlıq münasibətlərini təcəssüm etdirir.

Şuşada təşkil olunan tədbirin qonaqlarına, həmçinin Heydər Əliyev Fondunun "Qarabağın mədəni irsi" adlı nəşrlər toplusu hədiyyə olunub. Topluya ədəbiyyat, musiqi, memarlıq sahələrini, xalq sənətkarlığını və xalçaçılıq sənətini əks etdirən ayrı-ayrı nəşrlər daxildir. Qonaqlara, həmçinin Şuşa səfəri ilə bağlı xatirə medalları təqdim edilib.

***https://azertag.az***

## Azərbaycan və Türkiyə prezidentləri Şuşada birgə nahar ediblər
15.06.2021

İyunun 15-də Şuşada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan birgə nahar ediblər.

***https://azertag.az***

## Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Milli Məclisdə çıxış edib

16.06.2021

Azərbaycan Respublikasında rəsmi səfərdə olan Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan iyunun 16-da Milli Məclisdə olub.

AZƏRTAC xəbər verir ki, ali qonağı Milli Məclisin sədri Sahibə Qafarova qarşılayıb.

Əvvəlcə təkbətək görüş keçirilib.

Təkbətək görüşdən sonra Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan parlamentdə çıxış edib.

**Prezident Rəcəb Tayyib Ərdoğanın**
**çıxışı**

- Azərbaycan Milli Məclisinin hörmətli sədri.

Əziz millət vəkilləri, xanımlar və cənablar.

Sizləri – müzəffər ölkənin parlamentinin bütün üzvlərini Türkiyədəki 84 milyon qardaşınızın adından bir millət, iki dövlət anlayışı ilə sevgi və bəxtiyarlıqla salamlayıram. Xoşbəxtəm, çünki Can Azərbaycandayam. Xoşbəxtəm, çünki Qarabağı azad etmiş qardaş Azərbaycanın Milli Məclisində sizlərlə birlikdəyəm. Xoşbəxtəm, çünki müstəqilliyinin otuzuncu ilinə çatan Azərbaycandayam. Qarabağın azad edilməsi Azərbaycanın müstəqil keçən otuz ilinin ən önəmli hadisəsidir.

Bu Zəfərlə Qafqazda qanayan bir yara qapanmış, bölgədə davamlı sülh və sabitlik üçün böyük fürsət yaranmışdır. Qafqazdakı sülh və sabitlikdən təkcə Azərbaycan deyil, Ermənistan da daxil olmaqla, bütün bölgə ölkələri, hətta bütün dünya qazanacaq. Biz də azərbaycanlı qardaşlarımızla bölgənin tamamilə inkişafı, rifahın yüksəlməsi, sabitliyin möhkəmlənməsi üçün üzərimizə düşəni yerinə yetirməyə bütün səmimiyyətimizlə hazırıq.

Geridə qoyduğumuz otuz ildə - Qarabağda yaşanan böhranlı dövrdə kimlərin əlinə nə keçdiyi, kimlərin bu işdən qazanclı çıxdığı, kimlərin də itirdiyi çox yaxşı bilinir. Canı yananlar, qanı tökülənlər, acı çəkənlər, maddi və mənəvi olaraq itirənlər ancaq Qarabağda yaşayan insanlardır. Asan deyil, otuz il. Mənim azərbaycanlı qardaşlarım öz məskənlərindən təəssüf ki, otuz ildir köçkün düşüblər. O torpaqlar işğal altında idi. İşğal altındakı həmin torpaqlar otuz il sonra, çox şükür, yenidən sahiblərinə qovuşdu.

Qarabağda otuz ildir davam edən münaqişənin həll olunmamasına müşahidəçi qalanlar, daha doğrusu, münaqişənin davam etməsi üçün səy göstərənlər daim qazananın tərəfində olublar. Davamlı sülhə gedən yolun bölgədəki bütün xalqların və dövlətlərin qarşılıqlı etimada əsaslanaraq inkişaf etdirəcəkləri əmək-

daşlıqdan keçdiyinə inanırıq.

Böyük bir liderlik göstərərək bu Zəfəri və sülhü Azərbaycana qazandıran Azərbaycan Ordusunun Ali Baş Komandanı və Azərbaycan Prezidenti hörmətli qardaşım İlham Əliyevi bir daha təbrik edirəm. Liderlərinin arxası ilə Qarabağda Zəfər qazanmaq üçün tək yumruq, tək ürək olan, milli birlik və bərabərlik hisslərini ən yüksək səviyyədə nümayiş etdirən Azərbaycan xalqını təbrik edirəm. Gözlərini qırpmadan Vətən üçün, Qarabağ üçün, Qarabağın azadlığı üçün qəhrəmancasına mübarizə aparan Azərbaycan Silahlı Qüvvələrini təbrik edirəm. Şəhidlərimizin hər birinə Allahdan rəhmət diləyir, yaxınlarına başsağlığı verirəm.

Bu müqəddəs Vətən müharibəsi dövründə Türkiyə həm dövlət, həm də millət olaraq bütün qəlbi ilə Azərbaycanın yanında yer almışdır. Bu gün də bütün imkanlarımızla Azərbaycanın yanındayıq, bütün dünya bilsin ki, İnşallah, sabah da yanında olacağıq. Necə ki, Balkan müharibəsi zamanı Azərbaycanın Dövlət Himninin sözlərinin müəllifi Əhməd Cavad azərbaycanlı gənclərlə birlikdə Osmanlı ordusunun sıralarında döyüşübsə, necə ki, Çanaqqalada Azərbaycandan gələn igidlərlə Anadolunun dəliqanlıları birlikdə mübarizə aparıb, birlikdə şəhadətə ucalıb zəfər qazanıblarsa, necə ki, Qafqaz İslam Ordusunun aslanları – Nuru Paşanın əsgərləri o gün azərbaycanlı qardaşlarımızın yardımına gəlibsə, biz də bu gün və gələcəkdə bir və bərabər olacağıq. Azərbaycanın aydınlığı aydınlığımız, sevinci sevincimiz, azadlığı azadlığımız, taleyi taleyimiz, kədəri kədərimizdir.

Hörmətli qardaşlarım, Nuru Paşanın Qafqaza gəldiyi dövrdə ermənilər 12 mindən çox türkü, müsəlmanı qətlə yetirmişdilər. Qafqazda tarixin qara səhifələrinə yazılacaq bir qətliam yaşanmışdır. Türk millətinə hər cür iftira atanlar, əvvəlcə, buralara, Qafqaza, Azərbaycana baxmalıdırlar. Həm də təkcə yüz il əvvələ deyil, otuz il bundan əvvəl Qarabağda yaşananlara, Xocalıda yaşananlara baxmalıdırlar. Sonra vicdanları imkan verərsə, bizə yönəltdikləri ittihamları oturub onlarla ayrıca danışarıq. Amma onların gözləri var, görməz, qulaqları var, eşitməz. Ürəkləri onsuz da duyğularını itirib. Qarabağı, Azərbaycanın işğal altın-

dakı torpaqlarını otuz il ərzində yaxıb-yıxanları, gedərkən də geridə qalan hər şeyi yandıranları görməyənlər azadlıq mübarizəsinə mane olmaq üçün səfərbər oldular. İndi gəlsinlər, Füzulini görsünlər. Bu yerlərin hər tərəfi dağıdılmış, yandırılmış, tar-mar edilmişdir. Gəlsinlər, Qarabağı görsünlər. Hər şey ortadadır. Dünən yol boyunca buraların halını gördük. Oraları nə hala salıblar. Buraları necə bombalayıb, yandırıb gediblər. Onlar gələrkən işğalçı, gedərkən isə tarmaredici idilər.

Təkcə bu davranış belə Qarabağın kimin Vətəni olduğunu göstərmək üçün kifayətdir. Azərbaycanlılar otuz il əvvəl Qarabağdan çıxmaq məcburiyyətində qalanda heç bir yeri dağıtmadılar, heç bir evi yandırmadılar. Çünki insan öz Vətənini dağıda bilməz, öz Vətənini yandıra bilməz. Amma Qarabağ onların (ermənilərin - red.) vətəni olmadığı üçün hər şeyi yandıraraq, dağıdaraq getdilər. Onların yandırdıqları kəndləri, dağıtdıqları şəhərləri Azərbaycan indi yenidən inşa edir və İnşallah, buraları birlikdə inşa edəcəyik və yeni bir Qarabağ meydana gətirəcəyik.

Qardaşlarım, mədəniyyət ilə vandallıq arasındakı fərqi görmək istəyən gəlsin Qarabağda iki dönəm arasındakı fərqə baxsın. Qarabağ coğrafi baxımdan dünyanın ən gözəl bölgələrindən biri olmaqla yanaşı, mədəniyyət baxımından da ən zəngin yerlərindən biri idi. İnşallah, yenə elə olacaq. Türkiyə olaraq, İnşallah, bu prosesdə də qardaş Azərbaycanın yanında yer almaqda davam edəcəyik.

Əziz qardaşlarım, dünən qardaşım İlham Əliyev və heyətlərimizlə birlikdə Şuşada idik, azad Qarabağ torpaqlarında Azərbaycan bayrağının qürurla dalğalandığını görməyin sevincini bilavasitə yaşadıq. Şuşa Qarabağ xanlığının banisi Pənahəli xan dövründən bəri adətən təbii bir İncəsənət Akademiyası kimi, musiqinin, ədəbiyyatın, incəsənətin ən yüksək səviyyədə yaşadığı və yaşadıldığı şəhər olmuşdur. Pənahəli xanın, xüsusilə şeirləri bu gün də sevilərək oxunan vəziri Molla Pənah Vaqifdən başlayaraq, Şuşa ədəbiyyatın mərkəzi xarakterini qorumuşdur. Qartal yuvası kimi qayaların üstündə səmaya yaxın qurulması ilə əlaqədar Şuşada mədəniyyətin, incəsənətin, ədəbiyyatın ilhamı daim bol olub.

Bu şəhər dahi bəstəkar Üzeyir Hacıbəylinin, Bülbülün, Xurşidbanu Natəvanın, Rəşid Behbudovun və daha neçə-neçə incəsənət xadimlərinin, şairlərin yurdudur. Əhməd bəy Ağaoğlu kimi təkcə Azərbaycanda deyil, Türkiyə və türk dünyasında da fikirləri ilə söz sahibi olmuş mütəfəkkirlərin yurdu Şuşa bu gün bir daha mədəniyyətlə, - heç narahat olmayın, - dirçəlir.

Şuşanın Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi və geridə qoyduğumuz günlərdə Cıdır düzündə keçirilən "Xarıbülbül" musiqi festivalı bu baxımdan dünyaya verilən açıq bir mesajdır. Vaqif poeziya festivalının da hazırlıqlarının davam etdiyini eşitməkdən məmnunam. Bu il Azərbaycanın mədəniyyət paytaxtı olan Şuşanı gələn il Türk dünyasının mədəniyyət paytaxtı olaraq görməkdən məmnunluq duyarıq. Türk dünyasının hər tərəfindən gələcək mədəniyyət və incəsənət əhlinin bu gözəl şəhərdə görüşməsi, Şuşanın qədim tarixinə verilən ən gözəl salam olacaqdır.

Əlbəttə, təkcə Şuşa və ya Qarabağ deyil, Azərbaycanın və türk dünyasının hər yeri böyük şairlər və incəsənət xadimləri yetişdirmişdir. Məsələn, bu il Nizami Gəncəvinin anadan olmasının 880-ci ildönümüdür. Əsrlər boyu şairlər onunla yarışmağa və ona çatmağa çalışıblar. "Avni" təxəllüsü ilə şeirlər yazan Fateh Sultan Mehmet xanın bu əsərində də eyni hissiyyata rast gəlinir:

Bu kelam ile Nizami işidürse sözüni
İlteler sana hased Sa'di vü Selman bu gice.

Bu il ayrıca Ahi Evranın anadan olmasının 850-ci, Əlişir Nəvainin anadan olmasının 580-ci, Hacı Bektaşi Vəlinin vəfatının 750-ci, Yunus Əmrənin vəfatının 700-cü ildönümüdür. Keçən il Fərabinin anadan olmasının 1300-cü ili idi. Dünyada bu qədər zəngin və yüksək mədəni dəyərləri olan millətlərin sayı çox azdır. Biz bu dəyərlərimizi həm yeni nəsillərimizə, həm də bütün dünyaya izah etməliyik. Hamısını da rəhmətlə yad edərək burada saydığım və saya bilmədiyim bütün şəxslər mədəniyyətimizin sütunları olduğu kimi, dünya mədəniyyətinin də dəyərləridir.

İnsanlıq onların əsərlərindəki hikmətlərin sirrinə vaqif olduqca dünyamızdakı məsələləri həll etmək asanlaşacaqdır. Keçmişdən gələcəyə quracağımız körpü ilə mədəniyyətimizi yenidən yüksəltmək, layiq olduğu yerə çatdırmaq bizim əlimizdədir. Birliyimizi, bərabərliyimizi, dostluğumuzu, qardaşlığımızı nə qədər gücləndirsək, bir-birimizə nə qədər möhkəm sarılsaq, bu hədəfə o qədər tez nail olarıq.

Qardaşlarım, Qarabağ Zəfərinin Azərbaycana, Qafqaza və dünyaya gətirəcəyi faydalarının dəyəri zaman keçdikcə daha yaxşı dərk ediləcək. Bu Zəfərdən heç kim narahat olmasın. Çünki bu, fəlakətin deyil, inşanın, zülmün deyil, ədalətin, kobudluğun deyil, zərifliyin, müharibənin deyil, sülhün, qanın deyil, qəlbin Zəfəridir. Həqiqətən bu Qələbədən sonra görülən və görüləcək işlərə baxdıqda yaratdığımız mənzərənin necə canlanacağı görünəcək. Hər şeydən əvvəl Qarabağın hər yerinə sabitlik, əmin-amanlıq və ümid hakim olub. Evlərindən, yurdlarından otuz ildir ayrı düşən azərbaycanlı qardaşlarımıza evlərinə qayıtmaq yolu açılmışdır. İnşallah, sonrakı gəlişimizdə bu torpaqların insanlarının evlərinə yerləşdiyini görməyin sevincini yaşayacağıq. Onlara indidən bu müraciəti Azərbaycan parlamentindən mən də edirəm. Bir an əvvəl, İnşallah, evləriniz inşa edilir, ediləcək və oralara yerləşməyinizi biz də həsrətlə gözləyirik.

İşğalın səbəb olduğu davamlı münaqişə vəziyyətindən qaynaqlanan yorucu gərginlik ortadan qalxıb. İndi yollar sürətlə inşa edilir, su kəmərləri çəkilir, elektrik stansiyaları bir tərəfdən qurulur, bir tərəfdən açılır. Bunları gözlərimlə gördüm, ona görə söyləyirəm. Bir tərəfdən infrastruktur obyektləri tikilir. Biz də, inşallah, TOKİ-mizlə bölgədə məktəb, xəstəxana və buna bənzər bir çox əsərləri inşa etməyə çalışacağıq.

Naxçıvan ilə Bakını bir-biri ilə birləşdirəcək Zəngəzur dəhlizinin bölgəmizə gətirəcəyi rahatlığın və zənginliyin tərifi mümkün deyil. Bölgəmizdə və bütün dünyada zalımın zülmünün əbədi olmadığı, bir gün mütləq haqqın, ədalətin bərqərar olacağı hər kəsə məlumdur. Qarabağ, eyni zamanda, dünyanı öz siyasi və iqtisadi maraqlarının arenası olaraq görənlərin hesablarının pozulduğu yerdir. Üstəlik, bütün bu proseslər Azərbaycan ilə birlikdə Ermənistan üçün də yeni

bir dövrün başlanğıcıdır. Məsələn, Zəngəzur dəhlizində fəaliyyətə başlayacaq dəmir yolu ilə ermənilər də rahatlıqla Moskvaya və bütün dünyaya çıxa biləcəklər və beləliklə özləri də özlərini saldıqları blokadadan xilas ola biləcəklər.

Qardaşımla birlikdə təklifimizi etdik. Nə idi təklifimiz? Gəlin, altı ölkə bir platforma formalaşdıraq: Rusiya, Türkiyə, Azərbaycan, İran, Ermənistan və Gürcüstan. Bu platforma ilə birlikdə artıq bölgədə bir sabitlik meydana gəlsin, bölgədə düşmənçiliklər ortadan qalxsın. Burada demək olar ki, təkcə Gürcüstanın bəzi özünəməxsus sualları var idi. Son Türkiyə səfərində cənab Baş nazirlə də bu məsələləri bir daha müzakirə etdim. Dedim, bu, Gürcüstanın da lehinə olacaq, bu addımı ataq. Bax, biz Ermənistan ilə aramızdakı narahatlıqları bilirik. Amma biz bütün bunlara baxmayaraq, azərbaycanlı qardaşlarımızın narahatlıqlarının da aradan qaldırılmasını istəyirik. Eyni qaydada sizin də Rusiya ilə problemlərinizin həllinə bu platforma töhfə verəcək. "Çalışaram" dedi. "Yaxşı olar" dedik.

Çünki bu bölgənin sülhə ehtiyacı var. Buna nail olmalıyıq. Ermənistan Azərbaycan ilə problemlərini həll etdikcə Türkiyə olaraq biz də lazımi addımları atacağıq. Türkiyə sərhədlərinin açılmasının Ermənistana verəcəyi faydalar saymaqla bitməz. Bu Zəfəri hər kəsin ortaq zəfərinə çevirmək bizim əlimizdədir. Bir daha Qafqazın boynuna kimsənin əsarət zənciri vura bilməməsi üçün qarşımıza çıxan fürsətləri hamımız birlikdə ən yaxşı şəkildə dəyərləndirməliyik. Biz bu mübarizəni özümüz və dostlarımızla birlikdə "Dünya beşdən böyükdür" deyərək qlobal səviyyədə də aparırıq.

Mən buraya NATO-nun Zirvə toplantısından gəldim. NATO-nun Zirvə toplantısında da məhz bu məsələləri müzakirə etdik, bunları dəyərləndirdik. Çox şükür, səmərəli görüşlərlə buraya gəldik. Amma dünyanın problemləri bitmir, dünyada həll ediləcək hələ çox problemlər var. Amma dik dursaq, möhkəm dursaq, bir olsaq, bərabər olsaq, Allahın izni ilə bunları həll edərik. İnşallah, mədəniyyət günəşimizi yenidən ən yüksək zirvəyə qaldıraraq, sülhü və ədaləti bölgəmizdə və dünyada hakim edəcəyimiz günlər yaxındır. Çıxışımı böyük şair Bəxtiyar Vahabzadənin bu misraları ilə bitirmək istəyirəm:

Bir ananın iki oğlu,
Bir ağacın iki qolu,
O da ulu, bu da ulu,
Azərbaycan, Türkiyə.

Dinimiz bir, dilimiz bir,
Ayımız bir, ilimiz bir,
Eşqimiz bir, yolumuz bir,
Azərbaycan, Türkiyə.

Hamınızı sevgi ilə, məhəbbətlə salamlayıram. Salamat qalın.

***https://azertag.az***

# ŞUŞA

## (MÜXTƏSƏR TARİX)



# Şuşa 1756-1805-ci illərdə

Şuşa şəhərinin qurucusu Pənahəli xan Cavanşir Qarabağın Sarıcalı kəndində anadan olub. O, XVIII əsrin 30-cu illərində bacarıqlı sərkərdə kimi Nadir şah Əfşarın qoşununda xidmət edib, 1737-ci ildə isə öz yaxın adamları ilə birgə vətəni Qarabağa qayıdaraq müstəqil siyasət yeritməyə başlayıb. O, bu məqsədinə yalnız Nadir şahın ölümündən sonra nail ola bildi. Nadir şahdan sonra mərkəzi hakimiyyət aradan qalxdı və Azərbaycan ərazisində 20 xanlıq yarandı. Bunlardan 12-si Şimali Azərbaycanda (Quba, Dərbənd, Bakı, Salyan, Cavad, Lənkəran, Şamaxı, Şəki, Qarabağ, Gəncə, İrəvan, Naxçıvan), 8-i isə Cənubi Azərbaycanda (Təbriz, Urmiya, Ərdəbil, Xoy, Qaradağ, Marağa, Maku, Sərab) mövcud olub. [33, s.29] Hər bir xanlıq ayrıca ərazisi, bayrağı və dövlətə məxsus digər atributları olan kiçik Azərbaycan dövləti kimi təmsil olunurdu və bunlardan biri də paytaxtı Şuşa şəhəri olan Qarabağ xanlığı idi.

Tarixçi Mirzə Camalın verdiyi məlumata görə, Nadir şahdan sonra taxta çıxan Adil şah 1748-ci ildə Pənahəli Cavanşirə xan titulu verərək, onu Qarabağa hakim təyin etsə də, Pənahəli Cavanşir bu titulu öz gücü ilə çoxdan qazanmışdı.

Bacarıqlı sərkərdə və dövlət xadimi olan Pənahəli xan Qarabağda müdafiə qurğuları kimi tanınan qalalar və şəhərlər saldırıb ki, bu da onun nüfuzunun və qüdrətinin daha da artmasına səbəb olub. Xan əvvəlcə 1748-ci ildə Qarabağın Kəbirli mahalında Bayat qalasını tikdirərək oranı xanlığın inzibati mərkəzi edib. Qalanın hansı memar tərəfindən inşa edilməsi məlum deyil.

Lakin sonradan, 1751-1752-ci illərdə daha əlverişli ərazidə, Ağdamdan 10 kilometr aralıda yerləşən Şahbulaq adlı yerdə yeni qala inşa etdirərək xanlığın mərkəzini ora köçürüb. Qalanın adı ehtimal ki, bu ərazidə yerləşən saf və gur sulu bulağın adından götürülüb. [40] Tarixi abidə Tərnöüt adlı ərazidə inşa olunduğundan tikilini bəzən Tərnöüt qalası da adlandırırdılar.

Hazırda Şahbulaq qəsr kompleksindən indiyə bulaq yanındakı təpə üzərində ucalan qala və məscid binası qalıb. Ermənilər 1993-cü ildə Ağdamı işğal etdikdən sonra bir sıra abidələrimiz kimi Şahbulaq qalasını da erməniləşdirməyə çalışıb, yaxınlıqdakı məscidi isə kilsə kimi təqdim ediblər. [52]

Şahbulaq qalasının içərisində yaşayış binaları, hamam, məscid və bazar tikilib. Qala



*Şahbulaq (Tərnöüt )qalası, XVIII əsr*

hündür divarlarla əhatə olunub. Xanın iqamətgahı səkkiz qülləli qəsrdə yerləşirdi. Qala düzbucaqlı olub, yonulmamış daşlardan tikilib. [20, s.96]

Lakin bu qalalardan heç biri fasiləsiz davam edən ara müharibələri şəraitində xanlığın təhlükəsizliyini təmin etmək iqtidarında deyildi. Pənahəli xan daha etibarlı, düşmən hücumu üçün əlçatmaz olan yeni bir qala tikdirməyi qərara alaraq deyir: "Biz gərək dağların içində, möhkəm və keçilməz yerdə elə bir əbədi və sarsılmaz qala tikək ki, onu güclü düşmən belə mühasirə edə bilməsin". [21, s.112; 24, s.6]

Dəniz səviyyəsindən 1 300-1 600 metr hündürlükdə yerləşən və üç tərəfdən sıldırım qayalarla əhatə olunan dağ yaylası bu tələblərə tam cavab verirdi. Seçilmiş ərazinin

çox əlverişli hərbi–strateji mövqeyə malik olduğunu başa düşən Pənahəli xan 1752-ci ildə yeni qalanın tikintisinə başlamaq haqqında əmr verir. 1756-cı ildə zəruri işlər başa çatdırıldıqdan sonra Qarabağ xanlığının paytaxtı buraya köçürülür.

Qala divarının uzunluğu 2,5 kilometrdir, onların da üzərində 17 bürc vardır. Qala-



***Şuşa qalasının Gəncə qapısı. Foto XX əsrin birinci yarısına aiddir***

nın ətrafında əhəmiyyətli yerlərdə müdafiə qəsrləri tikilib. Qalanın inşasında çay daşı, yumurta, əhəng məhlulundan istifadə olunub. Möhkəm qala olan Şuşa şəhəri Qarabağ xanının adı ilə əvvəl Pənahabad adlandırılıb. Xanlığın pul vahidi xanın adı ilə "pənahabadi" adlanan gümüş sikkələr idi. Bir qədər sonra isə şəhər Şuşa adlandırılır. Bu ad diyarın saf, qeyri-adi dərəcədə şəffaf dağ havasının rəmzi olan "şüşə" sözündən götürülüb. Şuşa təmiz havası və bulaqları ilə zəngindir. Burada tarixən İsa bulağı, Saxsı bulaq, Şor bulaq, Səkili bulağı, Şəmilin bulağı və s. bulaqlar mövcuddur.

Şuşa qalası Azərbaycan memarlığının ən gözəl incilərindən biridir. Qala dairəvi mühafizə bürclərinə malikdir. Qala yaxınlığında onu xarici aləmlə əlaqələndirən yüksək memarlıq keyfiyyətləri olan körpü də inşa edilib ki, Qala körpüsü kimi tanınır. Qalanın üç qapısı var: Gəncə, İrəvan, Ağoğlan qapıları.

Gəncə qapısı - Şuşa qalasının bu qapıdan çıxan yolu onu Gəncə şəhəri və Qarabağ xanlığının Çiləbörd mahalı ilə birləşdirirdi. Ona görə də bu qapı Gəncə qapısı və ya Çiləbörd qapısı adlanırdı. Şuşa qalasının digər qapıları ilə müqayisədə Gəncə qapısı dövrümüzə daha yaxşı vəziyyətdə çatmışdır.

İrəvan qapısı və ya Xəlfəli qapısı qalanın qərb tərəfində yerləşir. Bu qapıdan çıxan yol Şuşa şəhərini Xəlfəli kəndi və İrəvan şəhəri ilə birləşdirirdi.

Ağoğlan qapısı, Muxtar qapısı və ya Şuşakənd qapısı Şuşa qalasının şərq tərəfində yerləşir və şəhərin aşağı hissəsinə girişi təmin edir. Bu qapıdan çıxan yol Şuşa şəhərini Şuşakənd və Muxtar kəndləri ilə birləşdirərək Ağaoğlan qəsrinə kimi uzanırdı.

Şimal qapısı olan Gəncə qapısının yaxınlığında abidələr kompleksindən ibarət içqala inşa edilib. Təəssüf ki, həmin abidələr erməni işğalı nəticəsində məhv edilib.

Şuşa qalası əlçatmaz olsa da, qəfil hücumların qarşısının alınması üçün 1758-1760-cı illərdə Pənahəli xanın oğlu Mehrəli bəy Şuşadan 25 kilometr aralıda, Qarqar çayının kənarında Əsgəran qalasını inşa etdirib. Əsgəran qalası hər iki tərəfdən çayla əhatə olunub və Şuşaya gedən yolu mühafizə edirdi. Çay daşından tikilmiş qala, dairəvi qüllələr və 2 metr enində, 9 metr hündürlükdə möhkəm divarlarla əhatə olunurdu. Qalanın sağ sahil hissəsində 2500 metr uzunluğunda ikiqat divar da var idi. [39, s.75-76]

Qarabağ xanlığına digər xanlıqlar, o cümlədən mərkəzi hakimiyyət uğrunda mübarizə aparan Urmiya xanlığı da müxtəlif dövrlərdə hücuma keçiblər. Hətta Urmiya xanı

Fətəli xan Əfşar müəyyən müddətdə Qarabağ xanını məğlub edərək Pənahəli xanın oğlu İbrahimxəlil ağanı girov kimi Urmiyaya da aparmışdı.

Mərkəzi hakimiyyət uğrunda mübarizə aparan digər sərkərdə Kərim xan Zənd Urmiyanı aldıqdan sonra orada dustaq olan İbrahimxəlil ağanı hakimiyyət fərmanı ilə Qarabağa yola salır. O, Pənahəli xanı özü ilə Quma “Şiraz qonaqlığına” apararaq, bəhanələrlə onu geri qayıtmağa qoymur, xanlığın idarəsini Pənahəli xanın oğlu İbrahimxəlil xana həvalə edir. Qarabağın idarə edilməsini isə Pənahəli xan kiçik oğlu Mehrəli ağaya tapşırmışdı. Bundan sonra Mehrəli ilə İbrahimxəlil qardaşları arasında çəkişmə başlayır, 1763-cü ildə İbrahimxəlil qalib gələrək Qarabağın xanı olur. [16, s.218]

Şuşanın bir şəhər kimi formalaşması üç mərhələdən keçib.

• Birinci mərhələ Pənahəli xanın hakimiyyət dövrünə (1748-1762) aiddir. Bu dövrdə xan Şahbulaq və ətraf kəndlərinin əhalisini yeni paytaxta - Şuşaya köçürüb, tikililər kortəbii, plansız aparılıb. Bu mərhələdə şəhərin ən qədim məhəlləsi olan “Təbrizli” məhəlləsi salınıb. Məhəllə Qarabağ xanlığı ləğv edildikdən sonra “Aşağı məhəllə” adlandırılıb. Şuşanın bu ilk məhəlləsində “Çuxur”, “Qurdlar”, “Culfalar”,“Seyidlər”, “Quyular”, “Hacı Yusifli”, “Merdinli”, “Qazançalı” və “Çöl qala” adlandırılan 9 məhəllə var idi.

• İkinci mərhələ İbrahimxəlil xanın hakimiyyəti dövrünə (1763-1806-cı illər) aiddir. Bu dövrdə şəhərin şərq hissəsinin yuxarı tərəfində - yuxarı məhəllə aşağı məhəlləyə nisbətən planlı şəkildə salınır, şəhər genişləndirilir.Yuxarı məhəllədə əhalinin sayı sürətlə artır və 8 məhəllədən (“Xanlıq”, “Saatlı”, “Köçərli”, “Mamayı”, “Xoca Mərcanlı”, “Dəmirçi”, “Hamamqabağı”, “Təzə”) ibarət “Yuxarı məhəllə” adlandırılan ikinci hissənin formalaşması başa çatır.

• Üçüncü mərhələ 1805-ci il Kürəkçay müqaviləsində nəzərdə tutulan rus qarnizonunun Şuşaya gəlişindən sonrakı dövrə aiddir. Bu dövrdə şəhərin qərbindəki yuxarı hissədə inşa işləri aparılır. 12 məhəllədən ibarət olan bu hissədə daha çox əhali yaşayırdı. Burada yerləşən məhəllələrə misal olaraq “Çiləbörd”, “Dərə”, “Bağlar” və digərlərini göstərmək olar. [49]

Şuşa şəhəri XVIII əsrin 50-ci illərindən başlayaraq hərbi, siyasi, iqtisadi, mədəni cəhətdən Azərbaycanın tarixində mühüm əhəmiyyət kəsb etməyə başlayır. Şuşa şəhərinin bütün məkan adları azərbaycanlıların adı ilə bağlıdır və əhalisi yarandığı dövrdən eti-



*Şuşa şəhərinin baş planı, XIX əsr*


Шушинской крѣпости съ означеніемъ имѣющагося внутр
ся города.
Изъясненіе.
Строенія вѣдомства гражданскаго
Обывательскія строенія

barən ancaq azərbaycanlılardan ibarət olub.

Şuşada 17 məhəllə var idi: Urudlar, Seyidli, Culfalar, Quyuluq, Çuxur, Hacı Yusifli, Dördlər Qurdu, Dörd Çinar, Çöl Qala, Köçərli, Mamayı, Merdinli, Saatlı, Dəmirçilər, Hamamqabağı, Təzə məhəllə, Xocamircanlı.

Şuşa qalası 1756-1823-cü illərdə Qarabağ xanlığının paytaxtı olub.

Şuşanın qala divarlarına və qüllələrə bitişik ilk fundamental binalardan biri Pənahəli xanın sarayı idi. Sonradan Çuxur adını alan ərazidəki bir qayanın üstündə sarayın inşası başlayıb. Sarayın tağlı, ön qapı ilə bəzədilmiş fasadı Topxana meşəsinə baxırdı. Bunun sağında köməkçi tikililər də var idi. Daha sonra Pənahəli xan oğlanları üçün sarayından uzaq olmayan yerdə və eyni tərzdə, eyni materiallardan saraylar tikdirib.

İbrahimxəlil xanın böyük oğlu Məhəmməd Həsən Ağanın sarayı qala divarları boyunca uçuruma doğru uzanır, xüsusi gözəlliyi və hərtərəfli bəzəkləri ilə seçilirdi.

Azərbaycanda feodal pərakəndəliyini aradan qaldırmaq və mərkəzi hakimiyyəti bərpa etmək məqsədilə Qacarlar Səfəvilər dövründə mövcud olmuş mərkəzləşmiş dövlətin əksər hissəsini özlərinə tabe etdikdən sonra Şimali Azərbaycana, o cümlədən Qarabağ ərazisinə hücumlar təşkil etdilər.

Qacarların bu hücumlarda əsas məqsədi hansısa yad, xarici torpaqları işğal etmək yox, əvvəllər mərkəzləşmiş dövlətin hakimiyyəti altında olmuş, lakin sonradan xanlıqlara parçalanmış əraziləri yenidən mərkəzləşmiş hakimiyyətə tabe etməkdən ibarət idi. [33, s.28-29]

Qacarlarla Qarabağ xanı İbrahimxəlil xan arasında qohumluq əlaqələrinin olması, yəni onun həyat yoldaşı Tutubəyimin Gəncə hökmdarı II Şahverdi xan Ziyad oğlu Qacarın qızı, Cavad xanın bacısı olması, Qarabağda Qacarlara aid türbənin mövcudluğu və s. Qarabağ xanlığının onlara yad olmadığını bir daha sübut edir. [39, s.213]

1757-ci ildə Məhəmməd Həsən xan Qacarın qoşunları Qarabağa hücum etdi. O, Şuşanın 30 verstliyində "Xatın arxı" yanında baş verən döyüşdə məğlub oldu. Pənahəli xan iki ağır top qənimət götürdü. [16, s.217] Məhəmməd Həsən xan Qacarın qoşunlarının meşədə qoyub getdikləri bu iki ağır topun adından həmin meşə sonradan Topxana meşəsi adlanmağa başlandı.

1791-ci ildə Ağa Məhəmməd Qacar (1780-1797) Şimali Azərbaycan xanlarına

məktublar göndərərək onun hakimiyyətini qəbul etməyi tələb etdi.

1795-ci ilin yayında Qacar 85 minlik qoşunla Qarabağa hücum etdi və Şuşanı mühasirəyə aldı. Qarabağ xanlığı Qacara qarşı II İrakli, Talış və İrəvan xanları ilə ittifaqa girdi. İttifaqın yaradılmasında xanın vəziri, şair Vaqifin böyük rolu olub.

Şuşanın müdafiəsi 33 gün davam edib. Bu zaman Qacarlar nəslindən olan Gəncə xanı Cavad xan Ağa Məhəmməd xanın düşərgəsinə gəlir və onun himayəsini qəbul edir. Cavad xan Ağa Məhəmməd xana Şuşanın mühasirəsindən əl çəkməyi və Tiflisə hücum etməyi təklif edir. Ağa Məhəmməd xan 20 minlik qoşunla Ağdamdan Gəncəyə doğru hərəkət edərək 1795-ci il sentyabrın 12-də şiddətli vuruşmadan sonra Tiflisə daxil olur.

Qacar ordusu 1795-ci ilin payızında Azərbaycana qayıdır və Muğan düzündə düşərgə salır.

Ağa Məhəmməd xan Muğanda qışı keçirdikdən sonra yazda yenidən Şuşaya hücum etməyi planlaşdırırdı. Lakin rus qoşunlarının Azərbaycana gəlməsi və İranda baş verən üsyan onu geri çəkilməyə məcbur etdi. 1796-cı ilin yazında Ağa Məhəmməd xan İrana qayıtdı və özünü İran şahı elan etdi. [16, s.248]

1796-cı ilin aprelində Zubovun komandanlığı ilə 30 min rus qoşunu Dərbəndə yaxınlaşdı. II Yekaterinanın ölümündən sonra, 1796-cı il noyabrın 6-da hakimiyyətə keçən I Pavel Qafqazda olan rus qoşunlarını geri çağırdı.

1797-ci ilin yazında Qacarın qoşunları yenidən Qarabağa hücum etdi. İbrahimxəlil xan yaxın adamları ilə birlikdə Car və Tala tərəfə - yaxın qohumu, bu ərazilərin hakimi Nusəl xanın oğlu Ümmə (Ömər) xanın yanına getdi. Ümmə (Ömər) xanın bacısı Bikə ağa İbrahimxəlil xanın həyat yoldaşı idi.

Şuşanın müdafiəsi özbaşına buraxıldığından Qacarın qoşunları şəhəri ələ keçirdi. Ağa Məhəmməd şah Qacar 1797-ci il iyulun 4-də öz yatağında xidmətçiləri Səfərəli və Abbas tərəfindən sui-qəsd nəticəsində öldürüldükdən sonra qoşunlar geri çəkildi.

Ağa Məhəmməd şahın 1797-ci ildə Gürcüstana ikinci yürüş gözlənilirdi. Lakin onun Şuşada öldürülməsi bu səfəri saxladı. [1, s.400-401]

Ağa Məhəmməd şahın ölümündən sonra İbrahimxəlil xanın Şuşada olmamasından istifadə edən qardaşı Mehrəli bəyin oğlu Məhəmməd bəyin hakimiyyətə yiyələnməsi və hakimiyyəti əmisinə vermək istəməməsi vəziyyəti daha da gərginləşdirdi. Vaqifin Şuşada

baş verənlərlə bağlı İbrahimxəlil xana məktub göndərərək onu Qarabağa dəvət etməsi Məhəmməd bəyi bərk qəzəbləndirdi. Bundan sonra o, görkəmli Azərbaycan şairi Molla Pənah Vaqifi oğlu Əli bəylə birlikdə edam etdirdi.

Ağa Məhəmməd şah Qacarın yerinə Tehranda qardaşı oğlu Fətəli şah hakimiyyətə gəldi. İbrahimxəlil xan Ağa Məhəmməd şah Qacarın nəşini böyük şərafətlə öz elçiləri ilə birlikdə Fətəli şaha göndərərək barışıq xahiş etdi. Fətəli şah bunun müqabilində xanın oğlu Əbülfət ağanı girov kimi onun sarayına göndərməyi, qızı Ağabəyimi isə şahın hərəmxanasına verməyi tələb etdi. İbrahimxəlil xan bu tələbləri yerinə yetirdi.

İbrahimxəlil xanın 6 övladı - 4 oğlu, 2 qızı olub: Məhəmmədhəsən ağa (1755-1806), Cavad ağa (1757-1779), Əbülfət xan Tuti (1766-1839), Ağabəyim Ağa (1782-1831), Xanlar ağa (1785-1832), Gövhərağa (1796-1844).

Xanın övladları haqqında digər elmi əsərlərdə məlumatlar olduğundan, nisbətən az məlumat olan iki qızı barədə ətraflı məlumat verməyi lazım bilirik. Bunlar Fətəli şahın həyat yoldaşı Ağabəyim xanım və Gövhərağa xanımdır. Hər iki xanımın adında “ağa” sözünün olması onların seyid nəslindən olduğunu göstərir.

Ağabəyim xanım 1782-ci ildə Şuşada anadan olub. Anası Tutubəyim Gəncə hökmdarı II Şahverdi xan Ziyad oğlu Qacarın qızı, qəhrəman Gəncə xanı Cavad xanın bacısı idi. Ana dili ilə yanaşı, fars, ərəb və fransız dillərində sərbəst danışırdı.

1798-ci ilin martında Ağabəyim xanım qardaşı Əbülfət ağa ilə birlikdə 200 süvari və çoxlu sayda qulluqçuları ilə birlikdə Tehrana göndərildi. Qarabağ tarixçisi Mirzə Camal Cavanşir bu barədə belə yazırdı: “Fətəli Şah hədiyyələrlə elçiləri yola saldı. İbrahimxəlil xana bir bahalı xələt, bir qılınc göndərdi və Qarabağ vilayətinin bir hissəsini bütün gəlirləri ilə birlikdə onun ixtiyarına verdi”.

Ağabəyim xanım Fətəli şahın ən sevimli həyat yoldaşı olub. O, «Ağabacı» təxəllüsü ilə gözəl şeirlər müəllifi kimi məhşur idi. Aşağıdakı misraları onun yazdığı bildirilir:

Mən aşiqəm, Qarabağ,
Şəki, Şirvan, Qarabağ.
Tehran cənnətə dönsə,
Yaddan çıxmaz Qarabağ.

Şah onun üçün çox dəbdəbəli bir saray inşa etdirdi. O, şahdan xahiş etdi ki, sarayın həyətində Şuşa bağlarına oxşar bir bağ saldırsın ki, bununla az da olsa Şuşa nisgilini azalda bilsin. Bağ salınır, Qarabağdan gətirilmiş bütün güllər, çiçəklər bu bağda bitsə də, təkçə şuşalılar üçün əziz olan Xarıbülbül burada bitmir. Bundan kədərlənən Ağabəyim xanım aşağıdakı misraları yazır:

"Vətən bağı" al-əlvandır,
Yox içində Xarıbülbül,
Nədən hər yerin əlvandır,
Köksün altı sarı, bülbül?!

Bu şeir tezliklə Qarabağda çox böyük uğur qazanır və bütün Azərbaycana yayılır. Şeirin sözlərinə bəstələnmiş mahnı xalq arasında bu gün də çox populyardır. [39 s.75-76]

Məşhur Xarıbülbül gülü Azərbaycanın nadir endemik bitki növüdür. Əsasən, Qarabağ ərazisində rast gəlinir. Xüsusi gözəlliyi ilə seçilir. Şuşanın rəmzlərindən biridir.

Ağabəyim xanım ölkənin həyatında mühüm rol oynamış qadınlardan idi. O, Avropanın və Yaxın Şərqin görkəmli şəxsiyyətləri ilə yazışaraq onlar arasında özünə dostlar tapmışdı. O, həm də təəssübkeş, qəhrəman bir qadın kimi də tanınırdı. Bəzi məlumatlara görə, hətta atası İbrahimxəlil xanın qatili mayor Lisaneviçdən nəslinin intiqamını alaraq onun qətlini təşkil edib.

İbrahimxəlil xanın digər qızı Gövhərağa şairə, xeyriyyəçi kimi tanınıb. O dövrünün tanınmış ziyalılarından və xeyriyyəçilərindən olub. Öz vəsaiti hesabına 1865-ci ildə Şuşada məşhur "Gövhərağa məscidi" tikdirib, Meydan məhəlləsində İbrahimxəlil xan tərəfindən 1769-cu ildə inşa olunan məscidi təmir etdirib. [39, s.216]

Qarabağ xanlarının nəslindən digər nümayəndə - görkəmli şairə xanım, rəssam və xeyriyyəçi Xurşidbanu Natəvandır (1832-1897). Şuşanın mədəni həyatında, şəhərin abadlaşmasında onun böyük rolu olub. 1872-ci ildə onun təşəbbüsü və vəsaiti hesabına yaranan «Məclisi-üns» ədəbi məclisində 30-a yaxın şair toplaşmışdı. O, 1871-ci ildə Şuşaya 100 min rubl vəsaitlə 7 kilometr uzaqdan, qayaların döşü ilə içməli su çəkdirib. [31, s.11-12; 4, s.225] Bu kəmər "Xan qızı bulağı" adı ilə məşhur olub.



*Xan qızı Xurşidbanu Natəvan oğlu Mehdiqulu və qızı  Xanbikə ilə*

O, Pənahəli xan və İbrahimxəlil xandan sonra Qarabağ xanı olmuş İbrahimxəlil xanın ikinci oğlu Mehdiqulu xan Cavanşirin qızı idi. Xurşidbanu ailənin yeganə övladı, həm də Qarabağ xanlığının sonuncu vərəsəsi olduğu üçün, onu sarayda "Dürrü yeкta" (Təк inci), el arasında isə "Xan qızı" çağırıblar. O, iki böyük nəslin – Cavanşirlərin və Ziyadoğlu Qacarların davamçısı idi.

Məhsəti Gəncəvi, Heyran xanım Dünbüli, Aşıq Pəri ilə bərabər Xurşidbanu Natə-



***Xan qızı Xurşidbanu Natəvanın saray kompleksinə aid evlərdən biri***

van da Azərbaycan ədəbiyyatı tarixində özünəməxsus xidmətləri olan qadın şairlərimizdəndir. Camaat arasında Xan qızı adı ilə tanınan Natəvan xeyirxahlığı, xeyriyyəçiliyi, əliaçıqlığı, yoxsullara kömək etməsi, incə, lirik şeirləri, yaşadığı Şuşa şəhərinin abadlığına, ədəbi-mədəni həyatının canlanmasına böyük zəhmət və vəsait sərf etməsi ilə xalqın böyük məhəbbətini qazanıb. Onun çoxtərəfli istedadı, şairliklə bərabər gözəl rəsmlər çəkməsi, musiqini, muğamı bilməsi dövrünün görkəmli şəxsiyyətləri tərəfindən yüksək dəyərləndirilib. Şairənin yaradıcılığı həmişə diqqət mərkəzində olub, əsərləri 1928, 1938,

1956, 1981, 1984, 2004 və 2012-ci illərdə çap edilib, ədəbi irsinin tədqiqinə dair kitablar işıq üzü görüb.

O, şair olmaqla yanaşı, həm də gözəl rəssam idi. Onun bədii tikmələrinin bir qismi "Gül dəftəri" (1886) adlı albomda toplanıb.

Xurşidbanu Natəvana məxsus ikimərtəbəli ev Şuşa şəhərində yerləşən XVIII əsrə aid tarixi memarlıq abidəsidir. 1930-cu illərin əvvəllərində Azərbaycan vokal sənətinin banisi Bülbülün təşəbbüsü ilə Azərbaycanda yaradılan ilk uşaq musiqi məktəbi olan Şuşa Musiqi Məktəbi bu binada fəaliyyətə başlayıb. 1984-cü ildən məktəb Şuşa şəhər Niyazi adına Uşaq İncəsənət Məktəbi adlandırılıb. 1987-ci ildə binada əsaslı təmir və bərpa işləri aparıldıqdan sonra Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin Xurşidbanu Natəvan adına Qarabağ filialı burada fəaliyyətə başlayıb.

Şairənin Bakı şəhərinin mərkəzində abidəsi qoyulub, adına küçələr verilib. Tədqiqatçılar onun yaradıcılığına bir sıra əsərlər həsr ediblər. [7; 8; 17; 27 və s.]

"Xurşidbanu Natəvanın anadan olmasının 180 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı" (3 aprel 2012-ci il) ilə şairənin yubileyi təntənəli şəkildə qeyd edilib. Bu münasibətlə 2014-cü ildə poçt markası buraxılıb.

Şuşa şəhəri yalnız Qarabağın deyil, həm də bütün Cənubi Qafqazın əsas xalçaçılıq mərkəzlərindən biri idi. Yerli əhali xalçaları "gəbə" adlandırır. Şuşa şəhərində və onun ətrafında yerləşən kəndlərdə toxunan xalçalar özlərinin al-əlvan rənglərinə, toxunma texnikasına və forma müxtəlifliyinə görə seçilirdi. XIX əsrin ortalarında Qarabağda olmuş müəlliflərdən biri yazırdı ki, Şuşa gəbələri "naxışlarına, rənglərinə və möhkəmliklərinə görə İran xalçalarından nəinki geri qalmır, hətta Xorasan xalçalarından da üstündür". XX əsrin əvvəllərində Şuşa şəhərinin bütün Cənubi Qafqazda xalçaçılıqda bədii zövqlərin formalaşmasında əvəzsiz rol oynadığını xüsusi vurğulayan A.S.Piralov yazırdı ki, "burada bütün bölgədə xalça istehsalına istiqamət verən ən mahir xalçaçı qadınlar çalışırlar".

Qarabağın digər bölgələrində olduğu kimi, Şuşa şəhərində də ornamental və süjetli gəbələr geniş yayılmışdı. Daha çox XVIII-XIX əsrlər üçün xarakterik olan ornamental Şuşa xalçalarında nəbati ünsürlər üstünlük təşkil edirdi. Bu tip xalçalara misal

olaraq "Əjdahalı", "Açma-yumma", "Bağçada güllər", "Nəlbəki gül", "Saxsıda güllər", "Qoca", "Balıq", "Butalı", "Ləmpə", "Dəryanur", "Bulud" və digərlərini göstərmək olar. [49]




# Kürəkçay müqaviləsindən sonrakı Şuşa (1805-1918)

1805-ci il Kürəkçay müqaviləsi ilə Qarabağ xanlığı faktiki olaraq çar Rusiyasına ilhaq edildi. Xan öz nəvəsini əmanət verməyi boynuna götürdü. O, Tiflisdə qalmalı idi. Xanlığın daxili idarəsi xanın ixtiyarında saxlanıldı. Lakin o, rus qarnizonunu Şuşaya buraxmağı və onu zəruri şeylərlə təmin etməyi öz üzərinə götürdü. Xan hər il öz gəlirlərindən Rusiya xəzinəsinə 8 000 çervon ayırmağı öhdəsinə götürdü. [2, s.18]

Erməni saxtakarlarının təbliğatının əksinə olaraq Qarabağ xanı İbrahimxəlil xanla Çar Rusiyası arasında bağlanmış Kürəkçay müqaviləsi (14 may 1805-ci il), Rusiya ilə İran arasında bağlanmış Gülüstan (12 oktyabr 1813-cü il) və Türkmənçay (10 fevral 1828-ci il) müqavilələri kimi tarixi sənədlər sübut edir ki, Çar Rusiyası sırf Azərbaycan torpaqlarını işğal edibdir. Ermənilər isə bura əsasən Türkmənçay müqaviləsindən sonra malakanlar, duxaborlar və digər qeyri-müsəlman əhali kimi çarizmin köçürmə siyasətinə uyğun olaraq gətirilib.

# Kürəkçay müqaviləsi

*Qadir Allah naminə*

*Biz, yəni Şuşalı və Qarabağlı İbrahim xan və Bütün Rusiya qoşunlarının infanteriya generalı, Qafqaz müfəttişliyinin infanteriya müfəttişi kn. Pavel Sisianov, olduqca mərhəmətli böyük İmperator əlahəzrətləri Aleksandr Pavloviçin verdiyi tam səlahiyyət və ixtiyarla Allahın köməyi ilə Şuşalı və Qarabağlı İbrahim xanın bütün ailəsi, nəsli və ölkəsi ilə Bütün Rusiya imperiyasının və indi bəxtiyarlıqla hökmranlıq edən böyük imperator əlahəzrətləri Aleksandr Pavloviç və onun yüksək varislərinin əbədi təbəəliyini qəbul etməsi məsələsinə başlayaraq aşağıdakı şərtləri bağladıq, qərara aldıq və imzaladıq:*

### *Birinci maddə*

*Mən Şuşalı və Qarabağlı İbrahim xan öz adımdan, varislərim və vəliəhdlərim adından İran və ya hər hansı bir dövlətin hər cür vassallığından və ya hər hansı ad altında olsa da, hər cür asılılığından təntənəli surətdə həmişəlik imtina edirəm və bütün dünya qarşısında bununla bildirirəm ki, mən özüm və varislərim üzərində Bütün Rusiyanın böyük İmperator əlahəzrətlərinin və onun yüksək varislərinin və vəliəhdlərinin ali hakimiyyətindən başqa heç bir dövlətin hakimiyyətini tanımıram, həmin taxt-taca sədaqət vəd edirəm, çünki onun sadiq quluyam və bu haqda, adətə görə, müqəddəs Qurana and içməliyəm.*

### *İkinci maddə*

*İmperator əlahəzrətləri zati-aliləri (xan) həzrətlərinin belə səmimi söz verməsini qəbul edərək, özünün və vəliəhdlərinin adından İmperator sözü ilə vəd edir və söz verir ki, onlar zati-aliləri Şuşalı və Qarabağlı İbrahim xandan və onun varislərindən öz sadiq təbəələri kimi mərhəmət və nəcib havadarlığını heç vaxt əsirgəməyəcəklər, buna sübut olaraq İmperator əlahəzrətləri zati-alilərinin (xanın) və onun varislərinin ölkəsinin bütövlüyünün saxlanılmasına öz imperator zəmanətini verir.*

**Üçüncü maddə**

*Zati-aliləri Şuşalı və Qarabağlı İbrahim xanın Bütün Rusiya imperatorlarının və onların vəliəhdlərinin öz üzərində ali və yeganə hakimiyyətini belə səmimiyyətlə qəbul etməsi müqabilində qərara alınır ki, adı çəkilən xan, ondan sonra isə böyük oğlunun və bu qayda ilə nəslin yaşca sonrakı böyüyü irsən xanlığa keçərkən Gürcüstan Baş hakimi tərəfindən xanlıqda bərqərar olmaq haqqında dövlət möhürü ilə təsdiq edilmiş imperator fərmanından ibarət investitura aldıqdan sonra Bütün Rusiya imperiyasının təbəəliyinə sadiq olmasına, özü və varisləri üzərində Bütün Rusiya imperatorlarının ali və yeganə hakimiyyətinin tanınmasına təntənəli surətdə and içməlidirlər. Andın forması traktata əlavə olunur ki, indi hakim olan Şuşalı və Qarabağlı İbrahim xan bu mərasimi Gürcüstan Baş hakiminin və bu qətnaməni başa çatdıran inf.-gen. knyaz Sisianovun iştirakı ilə yerinə yetirsin.*

**Dördüncü maddə**

*Mən, Şuşalı və Qarabağlı İbrahim xan, mənim və varislərimin Bütün Rusiya imperiyasına sadiq təbəəliyimiz və həmin imperiyanın işıqlı ali və yeganə hakimiyyətini qəbul etməyimiz haqda mənim mövqeyimin təmizliyini göstərmək üçün Gürcüstan Baş hakimi ilə qabaqcadan qarşılıqlı razılıq olmadan qonşu hakimlərlə əlaqə saxlamağa, onlardan elçilər gələrsə və ya məktub göndərilərsə, onlardan məzmunca tutarlı olanları Baş hakimə göndərməyə və ondan icazə istəməyə, dəyəri az olanları haqda isə məlumat verməyə və Gürcüstan Baş hakimi tərəfindən mənim yanıma təyin edilmiş şəxsə məlumat verməyə və onunla məsləhətləşməyə söz verirəm.*

**Beşinci maddə**

*İmperator əlahəzrətləri Şuşalı və Qarabağlı İbrahim xanın ölkəsi üzərində özünün ali və yeganə hakimiyyətinin tanınmasını razılıqla qəbul edərək, özünün və varislərinin adından söz verir: 1) həmin ölkənin xalqlarını böyük Rusiya imperiyasının sakinlərindən*

*az da olsa ayırmayaraq öz təbəələri sayacaqdır. 2) İbrahim xan zati-alilərinin və onun ocağından olan varislərin və arxasının Qarabağ xanlığı üzərində hakimiyyəti dəyişilməz saxlanılacaqdır. 3) Daxili idarəetmə ilə bağlı hakimiyyət işləri, məhkəmə və divanxana işləri, bununla yanaşı, ölkədən yığılan gəlir zati-alilərin (xanın) səlahiyyətində qalacaqdır. 4) Zati-alilərinin və onun sülaləsinin, eləcə də onun ölkəsinin qorunması üçün Şuşa qalasına 500 nəfərlik Rusiya qoşunu qərargah və baş zabitləri ilə, (habelə) toplarla birlikdə yeridiləcək, ciddi müdafiə üçün isə Gürcüstan Baş hakimi şərait və ehtiyaca görə bu dəstəni gücləndirəcək və zati-alilərinin ölkəsinin Bütün Rusiya imperiyasına məxsus olan bir ölkə kimi hərbi qüvvə ilə müdafiə edəcəkdir.*

***Altıncı maddə***

*Mən, Şuşalı və Qarabağlı İbrahim xan, mənim sadiq təbəəlik istəyimin əlaməti olaraq söz verirəm: 1) istər indi, istərsə də sonralar yuxarıda adı çəkilən qoşuna lazım olan buğda və darı yarmasını (Gürcüstan) Baş hakiminin müəyyən etdiyi qiymətlə tədarük edəcəyəm, çünki onların Yelizavetpoldan gətirilməsi ya çox çətindir, ya da tamamilə qeyri-mümkündür. 2) Qoşunların Şuşa qalasında yerləşməsi üçün qoşun rəisinin bəyəndiyi evləri ayıracaq və lazımi qədər odunla təmin edəcəyəm. 3) Şuşa qalasına Yelizavetpol tərəfdən yoxuşu sahmana salacaq və yolu arabaların gedişi üçün yararlı edəcəyəm. 4) Hökumət Şuşa qalasından Cavada gedən yolu qaydaya salmaq istəsə, onda bu iş üçün lazım olan işçilər hökumətin müəyyən etdiyi məzənnə ilə mənə verilməlidir.*

***Yeddinci maddə***

*İmperator əlahəzrətlərinin zati-aliləri Şuşalı və Qarabağlı İbrahim xana və onun varislərinə böyük ehtiram və mərhəmət əlaməti olaraq onu və varislərini üzərində Bütün Rusiya imperiyasının gerbi olan bayraqla təltif edir, onun yanında saxlanmalı və bu ölkə üzərində əlahəzrət tərəfindən bəxş edilmiş xanlıq və hakimiyyət rəmzi kimi müharibəyə gedəndə özü ilə aparılmalıdır.*

**_Səkkizinci maddə_**

*Mən, Şuşalı və Qarabağlı İbrahim xan, İmperator əlahəzrətlərinin yüksək razılığı ilə özümün gəlirimdən həmişəki kimi istifadə etməyə icazəm olduğundan İmperator əlahəzrətlərinin Tiflisdə yerləşən xəzinəsinə ildə 8000 çervon bac verməyi öhdəmə alıram, bac iki müddətə, yəni bir hissəsi fevralın 1-də, o biri hissəsi isə sentyabrın 1-də, özü də bu traktatın İmperator əlahəzrətləri tərəfindən təsdiqi zamanı birinci hissəsinin, yəni 4000 çervonun ödənişi ilə başlanır. Bundan başqa Asiya qayda-qanunu ilə and içməklə yanaşı, mən böyük oğlum Məhəmmədhəsən-Ağanın ikinci oğlu Şükürallahı həmişəlik Tiflisdə yaşamaq üçün girov verməliyəm.*

**_Doqquzuncu maddə_**

*İmperator əlahəzrətləri özünün xüsusi mərhəməti ilə, Tiflisdə sədaqət bildirmək üçün saxlanılmalı olan zati-aliləri (xanın) nəvəsinin dolanışığı üçün Rusiya pul vahidi ilə gündə 10 gümüş manat iltifatla bəxş edir.*

**_Onuncu maddə_**

*Bu müqavilə əbədi müddətə bağlanır və bundan belə həmişəlik heç bir dəyişikliyə uğramamalıdır.*

**_On birinci maddə_**

*Bu traktın İmperator əlahəzrətləri tərəfindən onun dövlət möhürü vurulmuş Ali Fərmanı ilə təsdiqi bu sənədin imzalanmasından 6 ay keçənədək və ya mümkün olsa, daha tez olmalıdır.*

*Yuxarıdakıların həqiqətə uyğun olduğunu (bildirmək) üçün aşağıda imza edənlər Yelizavetpol dairəsinin düşərgəsində, Kürək çayı yaxınlığında, miladın 1805-ci ilin*

*yayında, mayın 14-də (müsəlman təqvimi ilə 1220-ci il səfər ayında) bu maddələrə qol çəkərək öz möhürlərini vurdular. [6, s.272-276]*

Kürəkçay müqaviləsinə görə İbrahimxəlil xanın varisi elan olunmuş Məmmədhəsən ağanın ölümü və onun yerinə Mehdiqulu ağanın (şair Xurşidbanu Natəvanın atası) irəli sürülməsi daxili çəkişmələri gücləndirdi. Məmmədhəsən ağanın oğlu polkovnik Cəfərqulu ağa atasının yerinə varis olmaq istədiyindən əmisi Mehdiqulu ağanın varisliyini qəbul etmir və öz tərəfdarları ilə pozuculuq işlərini gücləndirirdi. Xanın digər oğlu Əbülfət bəy isə Abbas Mirzə ilə birlikdə ruslara qarşı vuruşmaqda idi. Belə bir vəziyyətdə İbrahimxəlil xanın qardaşı oğlu Mirzə Əli bəy, rusların Gəncədə girov saxladığı oğlu Behbud bəy və qardaşı oğlu Feyzi bəylə gizli əlaqə yaradaraq onlarla birlikdə Abbas Mirzənin yanına qaçdılar. Tarixçi M.Xəzani bundan sonra bu prosesin gücləndiyini qeyd edərək yazırdı: "Qarabağın şöylə ümdə bəyləri dəxi Qızılbaşa gedirdilər". [33, s.46]

Belə gərgin vəziyyətdə İbrahimxəlil xan Cavad xanın qatili, xalq arasında "dəli mayor" adını qazanmış Lisaneviçdən ehtiyat edirdi. İbrahimxəlil xanın öz ailəsini Xanbağındakı evindən Şuşa qalasının iki verstliyinə köçürməsini onun düşmənləri Lisaneviçə xanın xəyanəti kimi çatdırdılar. "Dəli mayor" 200 rus əsgəri ilə qaladan çıxıb xanın evinə hücum etdi və təxminən 17 nəfəri yatdıqları yerdə qətlə yetirdilər. Qətlə yetirilənlər arasında İbrahimxəlil xanın özü, Tubu bəyim - şəkili Hüseyn xanın qızı, Hərəmi xan, Səltənət bəyim, Abbasqulu ağa - Fərzəni xan, Hacı Hüseynəli bəy Kəbirli, Mirzə Haqverdi Kəbirli, Qərvəndli Hümmət bəy Cavanşir, onun oğlu Həsənağa Gülüməli bəy Sarıcalı Cavanşir, Mirzətağı Afşar, Əlipənah - pişxidmət, Hacı Həsən Əcəm oğlu Kəbirli, onun iki oğlu, Şellidən iki nəfər, iki nəfər şuşalı var idi.

Çar Rusiyasının qoşunları hətta kiçik yaşlı uşaqlara da rəhm etmədilər. Xanın nəslindən olan kiçik yaşlı Nəcibə və 13 yaşlı oğlan uşağı da qəddarlıqla qətlə yetirildi. Xanın övrəti və qızını yaralı vəziyyətdə qalaya gətirsələr də, həyatlarını xilas etmək mümkün olmadı, evindəki əşyalar isə ruslar tərəfindən qarət olundu.

Faciə baş verən zaman Mehdiqulu xan öz yaxınları ilə qalada idi və hadisədən sonra xəbər tutdu. Xanlığa iddialı olan Cəfərqulu ağanın bütün səylərinə baxmayaraq, 13 sentyabr 1806-cı il tarixli fərman ilə Mehdiqulu ağa Qarabağ xanı elan olundu. Bundan sonra

o, qardaşı Xancan bəylə birlikdə Abbas Mirzənin yanına pənah apardı. [16, s.265-267]

1806-cı ildə İbrahimxəlil xanın qətli Çar Rusiyasının heç bir hüquqa məhəl qoymadığını nümayiş etdirirdi. [38, s.79-80]

Mehdiqulu xanın hakimiyyəti möhkəm deyildi. Çar hökuməti belə bir şəraitdə xanlığın ərazisində möhkəmlənmək məqsədi ilə yerli müsəlman hakim təbəqənin iqtisadi mövqelərini zəifl ətməyə, əksinə, ermənilərin üstün rolunu təmin etməyə çalışırdı. Xanlıq ləğv edildikdən sonra Şimali Azərbaycanın digər yerlərində olduğu kimi burada da komendant idarə-üsulu yaradılmış, o, hərbi-müsəlman dairəsinin (mərkəz Şuşa) tərkibinə daxil edilmişdi. Bu dövrdə əslən erməni olan general-leytenant V.Q.Mədətov (1782-1829) Qarabağda, sözün əsl mənasında erməni-Rusiya müstəmləkə sistemi yaratmışdı. Çar hökuməti 1830-cu il üsyanlarının təsiri nəticəsində Cənubi Qafqazda 10 aprel 1840-cı ildə inzibati-hərbi islahatı keçirməyə məcbur oldu. Bu islahata görə Qarabağ əyaləti Şuşa qəzasına çevrildi və Kaspi vilayətinə (mərkəz Şamaxı) tabe edildi. Bununla da Qarabağ anlayışı siyasi mənasını itirmiş oldu və yalnız coğrafi anlayış kimi qaldı.

XIX yüzilin 30-cu illərindən sonra da ermənilərin bütövlükdə Şimali Azərbaycan torpaqlarına, o cümlədən Qarabağa köçürülməsi davam etdirilirdi.

Türkmənçay müqaviləsindən sonra ilk üç ay yarım ərzində 1,2 min erməni İrəvan, Naxçıvan və ən çox Qarabağ xanlığına köçürüldü. Rus tarixçisi N.Şavrov köçürmə siyasəti haqqında yazırdı: "Biz müstəmləkəçilik fəaliyyətinə Güney Qafqazda rus əhalisini deyil, bizə yad olan xalqların… yerləşdirilməsindən başladıq… savaşdan sonra iki il içində, 1828-ci ildən 1830-cu ilə kimi biz Güney Qafqaza İrandan 40 mindən çox, Türkiyədən 84 mindən çox erməni köçürmüş və onları erməni əhalisinin azlıqda olduğu Yelizavetpol (Gəncə) və İrəvan quberniyalarında ən yaxşı xəzinə torpaqlarında… yerləşdirmişik… Yelizavetpol quberniyasının dağlıq hissəsi (indiki Dağlıq Qarabağ) və Göycə gölünün sahilində həmin ermənilər yurd saldı. Qeyri-rəsmi köçənlərlə birlikdə köçüb gələnlərin ümumi sayı 200 mini ötüb keçdi. Bu köçürmə nəticəsində XX yüzilliyin əvvəllərində cənubi Qafqazda yaşayan 1,3 milyon ermənin bir milyondan çoxu diyarın köklü sakinləri olmayıb bizim tərəfimizdən məskunlaşdırılmışdı". [33, s.66; 43, s.59-61]

Xanlıq Çar Rusiyasına birləşdirildikdən sonra Şuşa qalasını ziyarət edən səyyahların qeydlərində, böyük Şuşa evlərinin digər Qafqaz şəhərlərinin evlərindən görünüş

baxımından vitraj və ya şəbəkə pəncərələri ilə fərqləndikləri dəfələrlə göstərilmişdir. Bunun təsdiqi rus rəssamı V.Vereşaginin eskizləridir. Rəssamın çəkdiyi şəkillərdən göründüyü kimi, tavandan döşəməyə həkk olunmuş şəbəkə pəncərələr yerin tərtibindən asılı olaraq otağın bütün divarını və ya onun bir hissəsini əvəz edir. Yerdəki parlaq xalçalar və rəngli bəzəkli divar rəsmləri ilə birləşən bu cür pəncərələr şənlik, bayram əhval-ruhiyyəsi yaradırdı. Şuşada sənətkarlıq sahələri yaxşı inkişaf etmişdi və Azərbaycanda ənənəvi



***Şuşa şəhərindən mənzərə. Vasili Vereşaginin rəsmi, 1865-ci il***

olan şəbəkə istehsalı üçün sənətkarlar və taxta tapmaqda problemi yox idi. Bir şəbəkə pəncərənin kvadrat metrində 3-5 min belə komponent var idi. Şəbəkədəki rəngli şüşələr 10-12 ulduzun birləşməsini təşkil edirdi. [39, s.208]

XIX əsrin birinci yarısında Şuşaya şəhər statusu verildi və Çar Rusiyasının "Şəhər əsasnaməsi"nin (1785) 28-29-cu maddələrinə əsasən, 1843-cü il mayın 21-də Şuşa şəhərinin gerbi təsdiq olundu.

Dəniz səviyyəsindən təxminən 1 300-1 600 metr yüksəklikdə yerləşən Şuşa hər tərəfdən uzunluğu 400-600 metrə yaxın olan dərələrlə, daha yuxarılarda isə Qırxqız, Kirs, Murov, Bağrıqan, Sarıbaba dağları ilə əhatə olunub. Şəhərin qərb tərəfi dəniz səviyyəsindən hündürdür, Cənub tərəfi nisbətən hündür və horizontal düzənlikdir. Bura "Cıdır düzü" adlanır. Şuşanın ancaq bir nəqliyyat yolu var. Ağdam-Əsgəran-Xocalı-Xanbağı-Ağa körpüsü-Şuşa. Bu yol şəhərin mərkəzinə qədər uzanır. Şuşanın şərq tərəfindəki o qədər də hündür olmayan təpə "Dövtələb" adlanır.

XIX əsrin ortalarında Şuşada 1856 ev, 476 mağaza, 11 küçə, 4 karvansara, 2 bazar, 7 hamam, 979 su quyusu, 6 meydan, 4 daş və 2 taxta körpü, 9 məscid var idi. Yarım əsr ərzində Şuşanın əhalisi kəskin şəkildə artdı. XX əsrin əvvəllərində "Qafqaz təqvimi" Şuşada 2983 ev olduğunu, bunlardan 2742-nin daşdan tikildiyini yazırdı. Bunlardan 1191 evin üstü dəmirlə, 139 ev dam plitəsi ilə, 363 ev torpaqla örtülmüşdür. Burada, həmçinin 17 məscid, 52 küçə, 1 şəhər parkı, 3 karvansara, 36 qəlyanaltı, 879 sənətkarlıq emalatxanası və təxminən 200 mağaza var idi. [39, s.103]

Şuşada 1871-ci ildə birinci, 1896-cı ildə ikinci su kəməri çəkildi, 1880-ci ildə realnı məktəbi açıldı, 1906-cı ildə bu məktəb üçün ayrıca bina tikildi. 1884-cü ildə iki özəl qız məktəbinin əsasında Müqəddəs Mariya qız məktəbi təşkil olundu. Azərbaycanlı qızlar burada ilk dəfə olaraq Avropa təhsili almaq imkanı əldə etdilər.

Şuşa Azərbaycanın mədəniyyət mərkəzi kimi XIX əsrin ikinci yarısında yenidən inkişaf etməyə başladı. Bu dövrdə Mir Möhsün Nəvvab "Məclisi-fərəmuş", Xurşidbanu Natəvan isə 1872-ci ildə "Məclisi-üns" ədəbi məclislərini yaratdılar. XIX əsrin axırlarında Şuşada şəhər özünü idarəsi olan bələdiyyə və şəhər duması təşkil olunur. Bu dövrdə Mir Möhsün Nəvvab "Məclisi-xanəndə" adlı musiqi məclisi yaradır və 1897-ci ildə şəhərdə ilk kitabxana açılır. Həmin ildə Əbdürrəhim bəy Haqverdiyevin quruluşun-

da "Məcnun Leylinin məzarı başında" adlı opera, 1908-ci ildə Üzeyir bəy Hacıbəylinin "Leyli və Məcnun", 1911-ci ildə "O olmasın, bu olsun", 1913-cü ildə isə "Arşın mal alan" operalarının premyeraları səhnəyə qoyulur. [39, s.7-9]

Azərbaycan Milli Elmlər Akademiyasının məlumatına görə XIX əsrdə Şuşada 95 şair, 22 musiqişünas, 38 xanəndə, 12 xəttat, 5 astronom, 18 memar, 16 həkim və təxminən 42 müəllim yaşayıb yaradıb. [11, s.96]

XIX əsrin sonlarından başlayaraq Şuşada süjetli xalçaların toxunması geniş miqyas alır. Şuşada siyasi motivli xalçaların toxunması haqqında da məlumatlar vardır. Xalçaçı Humay Həsənzadə tərəfindən 1905-1911-ci illər Məşrutə inqilabının qəhrəmanı Səttarxanın şərəfinə toxunmuş süjetli xalça hazırda Azərbaycan Dövlət İncəsənət Muzeyində saxlanılır. [49]

Şuşanın muğam ustaları və musiqiçilərinin iştirakı ilə XX əsrin əvvəllərində Avropa ölkələrində konsertlər təşkil olunur, muğamlar qrammofon valına yazılır və bununla da Azərbaycan muğamını bütün dünya tanımağa başlayır.

1903-cü ildə Tiflisdə nəşr olunmuş "Kavkazskiy Vestnik" jurnalının 43-cü səhifəsində yazılıb: "Şuşanın görünüşü orta əsr Avropa şəhərlərini xatırladır". Şuşada inşa edilmiş evlər, karvansaralar, məscidlər, saray kompleksləri və digər tikintilərin əksəriyyəti məşhur memar Kərbəlai Səfixan Qarabağinin (1817-1910) əməyinin məhsuludur. [11, s.10-11]

XIX əsrin sonlarından başlayaraq ermənilər şəhərdə qarşıdurmalar yaradır, millətlər arasında narazılığı artırırdılar. İlk belə qarşıdurma hələ 1895-ci ildə baş verir, ancaq onlar öz məkrli niyyətlərinə nail ola bilmirlər. Erməni quldurları bolşeviklərlə birlikdə 1918-ci ilin martında Bakı, Şamaxı, Quba və digər ərazilərlə yanaşı, Qarabağda da soyqırımlar həyata keçiriblər. Ümumiyyətlə, Azərbaycanda sovet hakimiyyəti qurulanadək Şuşa 4 dəfə (1895, 1905, 1918 və 1920-ci illərdə) ermənilər tərəfindən dağıntılara məruz qalıb. Hər dəfə azərbaycanlıların müqaviməti ilə üzləşən ermənilər geri çəkilsələr də, yaşayış məntəqələri, xüsusilə də Şuşa şəhəri böyük dağıntılara məruz qalır, çoxsaylı insan itkisi olurdu.

Şuşada 1905-1906-cı illərdə baş vermiş faciələr haqqında o zaman Azərbaycan mətbuatında çoxlu sayda material dərc olunub. Məsələn, "İrşad" qəzetinin № 170, 20 iyul

1906-cı il tarixli  sayında yazılırdı: "Qafqaz xəbərləri. Şuşa əhvalatı. Ağdamdan Bakudə Hacı Zeynəlabdin Tağıyev, Murtəza Muxtarov, Məhəmməd Həsən Hacinski və Behbud ağa Cavanşir cənablarına böylə teleqram çəkilübdür. Ağdam, 18 iyul. Şuşada dünəndən bəridir ki, atışma kəsilübdir, amma əhval qorxulu və həyəcanlıdır. Qoloşapov erməni hissəsinin mərkəzində sakin olub və bütün qoşunu da oraya yığubdur. Qoşun bir çox erməni "can fədai"ləri ilə birləşüb müsəlmanlara qarşu iş görirlər. Müsəlmanlar xaric  köməkdən məhrumdurlar.... Sizdən və Badkubə camaatından istirham ediyoruz ki, Baku canişin hüzurinə iki nəfər çıxarılsun. Və bu iş şiddətli surətdə təhqiq edilsün". [26, s.145-146]



# Şuşa Azərbaycan Xalq Cümhuriyyəti dövründə (1918-1920)

Azərbaycan Xalq Cümhuriyyəti I və II Rus-İran müharibələri dövründə Çar Rusiyası tərəfindən işğal olunmuş Azərbaycanın tarixi ərazisində yaranıb və dünya dövlətləri tərəfindən tanınıbdır. Buna baxmayaraq, ermənilər Azərbaycanın ayrılmaz hissəsi olan Qarabağa o zaman da heç bir əsası olmayan iddia irəli sürürdülər. Azərbaycan Xalq Cümhuriyyəti hökuməti bu iddianı rədd etdi. Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin sədri Ə.M.Topçubaşov (1862-1934) Osmanlı dövlətinin xarici işlər naziri ilə 1918-ci il noyabrın 18-də İstanbulda apardığı danışıqlar zamanı bildirib: «Ermənilərin ortaya atdıqları Qarabağ məsələsi 5, ya 10 kənd məsələsi deyil, mübahisə bütöv 4 sancaq - Şuşa, Cavanşir,



***1905 və 1920-ci illərdə ermənilərin törətdikləri qırğınlar nəticəsində dağıntılara məruz qalmış məhəllələrdən biri***



***1920-ci il martın 22-də ermənilərin azərbaycanlılara silahlı basqını nəticəsində ciddi şəkildə ziyan görən Mamayı, Ağadədəli və Köçərli məhəllələri***

Cəbrayıl və Zəngəzur üstündədir. Bu elə bir xanlığın ərazisidir ki, burada erməni və müsəlmanların sayı bərabər olmasa da, hər halda ermənilərin mütləq çoxluğu barədə danışmağa əsas yoxdur, özü də onlar buranın yerli əhalisi deyildirlər. Rusiya ilə müharibədən sonra Türkiyədən buraya köçənlərdir... Nəhayət, Qarabağın özündə ermənilər yığcam halda yaşamırlar, müsəlmanlarla qarışıq məskundurlar. Bunula belə, biz məsələnin sülh yolu ilə həlli tərəfdarıyıq". [15; 13]

Ermənilərin məkrli niyyətlərinin qarşısını almaq və bölgənin idarə olunmasını təkmilləşdirmək məqsədilə Azərbaycan hökuməti 1919-cu ilin yanvarında Şuşa, Cavanşir,

Cəbrayıl və Zəngəzur qəzalarını əhatə edən Qarabağ general-qubernatorluğu yaratdı və Laçının qəhrəman müdafiəçisi Sultan bəy Sultanovun qardaşı Xosrov bəy Sultanovu Qarabağ general-qubernatoru təyin etdi.

Ermənilər son vaxtlara qədər Sərsəng və Suqovuşan su anbarlarından verilən suyun qarşısını kəsməklə azərbaycanlı əhaliyə qarşı yeritdikləri qeyri-insani siyasətə oxşar hərəkətləri 1918-1920-ci illərdə də ediblər. Onlar 1918-ci ilin yaz-yay aylarında Cavanşir qəzasının dağətəyi kəndlərinə hücumlar təşkil edərək digər zorakılıqlarla yanaşı, əhalini qəsdən sudan məhrum etməyə də cəhdlər edirdilər. “Ermənilər Tərtər çayının qabağını kəsərək başqa istiqamətə yönəldir və qəzanın aran kəndlərinin əkinlərini susuz qoyaraq, onlara böyük zərər vururdular. Hətta iş o yerə çatmışdı ki, aran kəndlərində içməli su belə çatışmırdı”.

Şuşa qəzası və Qarabağın siyasi mərkəzi olan Şuşa şəhərində ermənilərin vəhşilikləri daha amansız şəkil almışdı. Azərbaycan Xalq Cümhuriyyəti dövründə Şuşada ermənilərin ən xəyanətkar silahlı qiyamlarından biri 1920-ci il martın 22-də - Azərbaycan xalqının Novruz bayramı günü baş verdi. Çoxsaylı şəhid vermiş azərbaycanlıların qəhrəmanlığı sayəsində Şuşa işğaldan xilas olsa da, şəhərin yarısından çoxu, demək olar ki, yerlə-yeksan olundu. Ermənilərin Qarabağda separatçı qiyamları və törətdikləri soyqırımları 1920-ci ilin aprel işğalı ərəfəsində ölkənin şimal sərhədlərinin müdafiəsi işinə ağır zərbə vurdu və Azərbaycan Xalq Cümhuriyyətinin işğalına şərait yaratdı. [15; 13]



# Şuşa sovet hakimiyyəti illərində (1920-1991)

XI ordunun işğalçı yürüşü ilə Bakıda 27 aprel 1920-ci ildə sovet hakimiyyəti qurulduqdan sonra Qarabağda vəziyyət daha da gərginləşdi. Ermənistan Daşnak hökuməti Azərbaycan ərazilərinə qarşı təcavüzkar siyasət yeridirdi. Daşnak hökumətinin göstərişi ilə erməni qoşun hissələrinin Azərbaycanın Emənistanla bütün sərhəd rayonlarında təcavüzkar hərəkətləri isə 1920-ci ilin noyabrınadək davam etdi. Onların azğın təcavüzü Qarabağ, Zəngəzur ərazilərində daha şiddətli idi. [3, s.32]

Belə ağır vəziyyətdə Qarabağ əhalisinə mənəvi dəstək vermək üçün Azərbaycan SSR Xalq Komissarları Sovetinin  sədri Nəriman Nərimanov Şuşaya gəldi.

Azərbaycanda sovet rejimi bərqərar olduqdan sonra Şuşa şəhərinin inzibati statusu bir neçə dəfə dəyişikliyə məruz qaldı. RK(b)P MK Qafqaz bürosu plenumunun 1921-ci il 5 iyul tarixli qərarı ilə Şuşa yeni yaradılmış Dağlıq Qarabağ Muxtar Vilayətinin mərkəzi kimi müəyyənləşdirildi. Lakin bu qərar 1923-cü il iyulun 7-də həyata keçirilərkən Dağlıq Qarabağ Muxtar Vilayətinin mərkəzi Şuşa yox, Xankəndi seçildi. Şuşa şəhəri isə AK(b)P MK Rəyasət heyətinin 1923-cü il 16 iyul tarixli iclasının xüsusi qərarı ilə Dağlıq Qarabağ Muxtar Vilayətinin tərkibinə daxil edildi. Şəhər eyni adlı rayonun və 12 kənddən ibarət Malıbəyli volostunun mərkəzinə çevrildi.

Şuşaya sovet rejiminin ögey münasibətinə baxmayaraq, Azərbaycan mədəniyyətinin beşiyi kimi burada incəsənətin ayrı-ayrı sahələri inkişaf edirdi. Bu dövrdə Şuşa Azərbaycanın mədəniyyət mərkəzi olmaqla yanaşı, həm də ölkəmizin siyasi mərkəzlərindən biri kimi müstəqillik və azərbaycançılıq ideyalarının təbliği mərkəzi kimi də tanınırdı. 1926-cı ildə Şuşada toxunmuş bir xalça üzərində 1918-1920-ci illərdə fəaliyyət göstərmiş Azərbaycan Xalq Cümhuriyyətinin ilk bayrağının təsvir edilməsi bunu sübut edir. Bu xalçanın digər bölgələrimizdə hələ ki, oxşarına rast gəlinməyib. Sovet rejiminin milli dəyərlərə qarşı kəskin mübarizə apardığı bir zamanda müstəqil dövlətçilik atributunu əks etdirən belə bir xalçanın toxunması böyük cəsarət tələb edirdi. [49]

Bu cür faktlar sübut edir ki, sovet işğalından 6 il keçməsinə baxmayaraq  Şuşada Azərbaycan  istiqlalının bərpası uğrunda mübarizə davam edib.

Şuşalı sənətkar Xan Şuşinskinin bəstələdiyi və xalq tərəfindən sevilən "Şuşanın dağları" mahnısının sözlərində də Azərbaycan Xalq Cümhuriyyətinin üç rəngli bayrağı-



***Meydan***

nın tərənnüm edildiyi qeyd olunur.

Şuşanın dağları başı dumanlı,
Qırmızı koftalı, yaşıl tumanlı.
Dərdindən ölməyə çoxdur gümanlı.

Mahnının mətninin ilkin variantında "başı dumanlı" sözü "abı dumanlı" kimi işlədilib. "Abı dumanlı", "qırmızı koftalı", "yaşıl tumanlı" sözlərinin üç rəgli bayrağın

rəmzlərini ifadə etməsi bir daha Şuşa ziyalılarının Azərbaycan istiqlalına nə qədər bağlı olduğunu bir daha sübut edir. [30]

Şərq musiqisinin məşhur tədqiqatçısı V.Vinoqradov 1938-ci ildə yazırdı: “Şuşada musiqi çoxdur. Azərbaycanın hər hansı rayonundan daha çox xalq mahnılarını, rəqslərini, xanəndə və sazəndələrini burada eşitmək olar. Şuşa qədim zamanlardan musiqinin beşiyi kimi məşhurdur və bütün Zaqafqaziyada xalq musiqi istedadlarının tükənməz bulağı kimi şöhrət qazanmışdır. “Şuşa musiqiçiləri” Azərbaycan musiqisinin tarixini yaradırdılar və onu yalnız vətənlərində deyil, digər Şərq ölkələrində də təqdim edirdilər”. [37, s.9]



***Hamamqabağı məhəllləsi***



***Novruz bayramı ilə əlaqədar tədbir***

Respublika və vilayət rəhbərliyinin laqeyd münasibəti nəticəsində şəhər özünün əvvəlki görkəmini və şöhrətini itirməyə başladı. Uzun müddət burada nəinki heç bir tikinti-abadlıq işləri görülmədi, əksinə, tarixi-memarlıq abidələrinin bəziləri vəhşicəsinə dağıdıldı. İbrahimxəlil xanın "Xəzinə qayası"nda inşa etdirdiyi saray, hərəmxana, tövlə, hamam və qoşun sığınacaqlarından ibarət kompleksin dəmirləri, çərçivələri II Dünya müharibəsi illərində çıxarılıb aparıldı, binalar isə tədricən dağılaraq yararsız hala salındı. Şuşanın tarixi-memarlıq abidələrinin dağıdılması sonrakı illərdə də davam etdirilib.

1963-cü il yanvarın 4-də Şuşa rayonu ləğv edilərək Stepanakert rayonunun tərkibinə qatıldı. Yalnız N. S. Xruşşovun hakimiyyətdən uzaqlaşdırılmasından sonra, 1965-ci il yanvarın 6-da Şuşanın rayon statusu yenidən bərpa edildi.



***Heydər Əliyev və İlham Əliyev Xan qızı Xurşidbanu Natəvanın vəsaiti hesabına tikilmiş bulağın qarşısında, 29 iyul 1982-ci il***

Sovet hakimiyyəti dövründə Şuşa şəhərinə bəslənilən ögey münasibət burada yaşayan əhalinin sayına və milli tərkibinə ciddi təsir göstərib. Vaxtilə Azərbaycanın böyük və abad şəhərlərindən biri olmuş Şuşada təxminən 50 il ərzində əhalinin sayı 3 dəfədən də çox azaldı. Belə ki, 1917-ci ildə burada 43.869 nəfər əhali yaşadığı halda, 1970-ci ildə onların sayı cəmi 13.664 nəfər təşkil edirdi. Sovet hakimiyyəti dövründə Şuşada yaşayan əhalinin milli tərkibi də ciddi dəyişikliyə məruz qaldı. Əgər 1970-ci ildə şəhərdə yaşayan 13.664 nəfər əhalinin yalnız 3577 nəfərini ermənilər təşkil edirdisə, 1989-cu ildə Şuşada yaşayan 20.579 nəfər əhalinin cəmi 1.377 nəfəri ermənilərdən ibarət idi.

1969-cu ildə Azərbaycana rəhbər təyin edilməsindən sonra Heydər Əliyev ilk növbədə şəhərin tarixi-memarlıq abidələrinin dağıdılmasının qarşısını almaq üçün tədbirlər gördü. 1977-ci ilin avqust ayında Azərbaycan SSR Nazirlər Soveti onun təşəbbüsü ilə “Şuşa şəhərinin tarixi hissəsini tarix-memarlıq qoruğu elan etmək haqqında” qərar qəbul etdi. Şəhərin sosial-iqtisadi və mədəni həyatının dirçəldilməsi üçün də xeyli iş görüldü. Bütün Azərbaycanda tar, kamança, ud, nağara və s. musiqi alətləri istehsal edən yeganə Şərq milli musiqi alətləri fabriki istifadəyə verildi. Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan mədəniyyətinin və incəsənətinin korifeyləri olan Ü.Hacıbəylinin, Bülbülün,




***Heydər Əliyev Vaqifin məqbərəsi qarşısında***
***Vaqif poeziya günləri, 29 iyul 1982-ci il***



***Heydər Əliyev Şuşanın Meydan adlanan hissəsində***
***14 yanvar 1982-ci il***

X.Natəvanın, M.M.Nəvvabın ev muzeyləri təşkil olundu. 1982-ci ilin yanvarında M.P. Vaqifin məqbərəsi açıldı. Hündürlüyü 20 m olan bu gözəl incəsənət əsəri incə və naxışlı şəbəkə ilə bəzədilmiş, ona qırmızıya çalan yerli mərmərdən üz çəkilmişdi... [50]

Prezident İlham Əliyev 2021-ci il yanvarın 14-də Şuşada səfərdə olarkən Azərbaycan şairi Molla Pənah Vaqifin məqbərəsinin qarşısında deyir: "Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə inşa edilmiş Molla Pənah Vaqifin məqbərəsinin düz 39 il bundan əvvəl - 1982-ci il yanvarın 14-də açılışı olmuşdur... Bu məqbərənin açılışı tarixi hadisə idi. Mən o günü çox yaxşı xatırlayıram... Yadımdadır, Azərbaycan və erməni şairləri şeirlər deyirdilər. Hətta erməni şairləri Azərbaycan dilində şeirlər deyirdilər. Bu, bir dostluq bayramı, dostluq tədbiri idi və heç kimin ağlına gələ bilməzdi ki, bir neçə ildən sonra burada separatizm baş qaldıracaq, Ermənistan Azərbaycana qarşı təcavüz edəcək, bizim tarixi şəhərimizi əlimizdən alacaqlar, tarixi abidələrimizi, məscidlərimizi, bu məqbərəni bu günə salacaqlar, Azərbaycan xalqının çoxəsrlik irsini Qarabağ diyarından silməyə çalışacaqlar. Heç kimin ağlına gələ bilməzdi. Mən dəfələrlə demişəm və bir daha deyirəm, əgər Heydər Əliyev 1982-ci ildə Bakıdan Moskvaya getməsəydi, əgər onu Moskvaya təyin etməsəydilər, heç vaxt imkan verməzdi ki, burada separatizm baş qaldırsın, heç vaxt...

Xanın vəziri olan insanın şərəfinə o vaxt - sovet dövründə məqbərə ucaltmaq qeyri-adi bir hadisə idi. İndi buna hər kəs təbii hadisə kimi baxa bilər, amma o vaxt - sosializm dövründə xanın vəzirinin şərəfinə məqbərə ucaltmaq doğrudan da fövqəladə bir hadisə idi. Məhz Heydər Əliyevin təkidi və cəsarəti nəticəsində o vaxt Azərbaycan buna nail ola bildi və bu yer də təsadüfən seçilmədi. Molla Pənah Vaqifin qəbri buradadır. Bu məqbərənin yaradılması və açılışı bir tərəfdən Azərbaycan Respublikasının öz tarixinə, Azərbaycan xalqının öz dahi şəxsiyyətlərinə olan hörmətin əlaməti idi. Digər tərəfdən bu məqbərənin Şuşada açılması bir daha təsdiq edirdi ki, Şuşa Azərbaycan şəhəridir...

Ulu Öndər Heydər Əliyevin dövründə - 1969-1982-ci illərdə onun səyləri nəticəsində, siyasəti nəticəsində, o cümlədən Yevlaxdan, Ağdamdan Xankəndiyə dəmir yolunun çəkilişi, Dağlıq Qarabağda müəssisələrin yaradılması və bu müəssisələrə Azərbaycanın müxtəlif yerlərindən mütəxəssislərin gəlməsi burada milli tərkibin Azərbaycan xalqının xeyrinə xeyli dəyişmişdi". [54]

Tarixi abidələrin bərpa edilməsinə öz məsləhət və göstərişlərini verən Heydər Əli-




*Cıdır düzündə Mahnı bayramı, 1983-cü il*

yev bərpa edilmiş memarlıq abidələrinin hər birinin açılışında iştirak edirdi. Nəticədə, Şuşada 170 memarlıq və 160 incəsənət abidəsi rəsmən qeydə alınıb.

Azərbaycanın musiqi beşiyi sayılan Şuşada təşkil olunan bayram tədbirləri də özünəməxsusluğu ilə seçilirdi. Hər il may ayının 19-da Şuşada Musiqi festivalı (mahnı bayramı) təşkil olunurdu. Adətən şəhərin görməli yerlərindən olan məşhur Cıdır düzündə təşkil olunan bu bayram tədbirində həm Şuşada fəaliyyət göstərən, həm də Azərbaycanın digər şəhərlərindən, eləcə də paytaxt Bakıdan gəlmiş musiqiçilər, xanəndələr, şairlər, aktyorlar, rəssamlar, kəndirbazlar və pəhləvanlar iştirak edir, milli dəyərlərə həsr olunan



*Heydər Əliyev M.P.Vaqifin barelyefi qarşısında, 1982-ci il*

sərgilər açılırdı.

Şəhərin sosial-iqtisadi inkişafı, ictimai-siyasi və mədəni həyatı Şuşa şəhərində 1932-ci ildən nəşr edilən "Şuşa" qəzetində və 1989-cu ildən yayımlanan "Şuşa" televiziyasında daim işıqlandırılırdı. [11, s.11-12]

Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə 1970-1980-ci illərdə Şuşa turizm və sağlamlıq mərkəzi kimi də inkişaf edirdi. Burada sanatoriyalar, pansionatlar və turist bazaları inşa edilib. Şəhərin ətrafında karbon turşulu – hidrokarbonatlı – natriumlu "narzan" tipli çoxsaylı mineral su mənbələri aşkar edilib. Bu müalicəvi su Şuşanın sanatoriyalarında həm süfrə suyu kimi, həm də vanna qəbulunda müvəffəqiyyətlə istifadə olunurdu. Bu sular nəfəs yolu xəstəlikləri, həzm, sinir sisteminin pozulması, qan azlığı kimi xəstəliklərin müalicəsi zamanı çox xeyirlidir. Şəhərdə gözəl mineral su qalereyası inşa edildi. Bura su şəhərdən 30 km kənarda yerləşən mənbədən boru vasitəsi ilə çəkilib. Həmçinin, mineral su doldurulması zavodu da mövcud idi. O dövrdə məşhur Şuşa kurortu eyni zamanda müasir turizm mərkəzi kimi də tanınırdı. Şuşada SSRİ vətəndaşları ilə yanaşı, həm də bütün digər sosialist ölkələrin vətəndaşları da istirahət edir və sağlamlıqlarını möhkəmləndirirdilər. Bu dövrdə Şuşada turizmin təbliği üçün bukletlər də nəşr olunurdu.



# Azərbaycanda istiqlal uğrunda mübarizə və erməni işğalı (1988-1993)

SSRİ-də 1985-ci ilin aprelindən həyata keçirilən yenidənqurma, aşkarlıq konsepsiyası millətlərarası münasibətlərin kəskinləşməsinə, erməni quldurları tərəfindən Ermənistanda və Dağlıq Qarabağda dinc azərbaycanlılara qarşı cinayətlərin günü-gündən artmasına səbəb oldu.

Ermənistanda tarixən azərbaycanlıların yaşadığı və DQMV ərazisindən iki dəfə artıq olan 8 min kv. km ərazini əhatə edən 172 kənddən 200 minə qədər əhalinin vəhşicəsinə qovulması, bu qanlı cinayət zamanı 216 nəfərin, o cümlədən 57 qadının, 5 südəmər körpənin, 18 müxtəlif yaşlı uşağın qətlə yetirilməsi gərginliyi daha da artırdı. [41, s.103]

Növbəti erməni təxribatı 1988-ci il avqust-noyabr aylarında baş verdi. Ermənilərin Topxana meşəsində təxribat xarakterli hərəkəti əhalinin səbr kasasını daşırdı.

1988-ci il Topxana hadisəsi ilə Azərbaycanın dilbər guşəsi olan Qarabağın və digər ərazilərimizin işğalının əsası qoyuldu. İşğalın başlanğıcını qoyan erməni təxribatı isə bu cür baş verib:

SSRİ Əlvan Metallurgiya Nazirliyinin Ermənistan SSR-də yerləşən Kanaker alüminium zavodunun direktoru R.N.Enqonyan DQMV XDS İcraiyyə Komitəsinin sədri S.A.Babayana xalq təsərrüfatı məhsulları istehsal edən kooperativin yaradılması üçün Əsgəran rayonu Engels adına kolxozun ərazisində 10 hektar torpaq ayrılması üçün 31 avqust 1988-ci il tarixli 006-3186 saylı məktubla müraciət edir. Məktubda Sov. İKP MK və SSRİ Nazirlər Sovetinin aqrar-sənaye kompleksində istehsal sahələrinin inkişafı haqqında 22 noyabr 1987-ci il tarixli qərarı əsas kimi göstərilir. Bu müraciətin qeyri-qanuniliyi onda idi ki, Ermənistanın hər hansı bir zavodu kooperativ yaratmaq üçün öz ərazisindən deyil, Azərbaycan ərazisindən torpaq ayrılmasını istəyirdi. Bu, açıq-aydın SSRİ-nin o zamankı böhranlı vəziyyətindən istifadə edərək Azərbaycan ərazisinin zəbt olunmasına cəhddən başqa bir şey deyildi. Bu müraciət DQMV Xalq Deputatları Sovetinin 20 fevral 1988-ci il tarixdə DQMV-nin Azərbaycan SSR-in tərkibindən çıxaraq Ermənistan SSR-in tərkibinə birləşməsi haqqında müraciətindən sonra ermənilərin növbəti təxribatı idi. Ermənilər tikinti işlərini başlamaqla həm Azərbaycan torpağını zəbt etmək, həm də Azərbaycanın təbiətinə, konkret desək, Topxana meşəsinə ekoloji cəhətdən ziyan vurmaq məqsədi güdürdülər.

Tikinti üçün torpaq ayırması ilə bağlı 28 oktyabr 1988-ci il tarixində 32/212 saylı qərar qəbul olundu. Qərarda Topxananın adı dəyişdirilərək "Xaçentapa" kimi göstərilirdi. Topxananın adının "Xaçentapa" kimi göstərilməsinin düzgünlyünü sübut etmək üçün Ermənistan KP MK-nın orqanı olan "Kommunist" qəzetinin 4 dekabr 1988-ci il tarixli sayında rus dilində "Topxana, yoxsa Xaçen-tapa" adlı məqalə də çap olundu. Sonradan ermənilər "Xaçınçay", "Xaçbulaq" və digər adlar kimi "Xaçentəpə"nin də Azərbaycan adı olduğunu gördülər və Topxananın adını ikinci dəfə dəyişərək "Tsaxkasar" qoydular.

Təsdiqlənmiş tikintinin baş planına görə ermənilər yeni qəsəbə salmaq üçün işləri Cıdır düzündən yaxşı görünən 3, 4 və 5-ci sahələrdə başlayaraq Xankəndi istiqamətində deyil, Şuşa tərəfə genişləndirməyi nəzərdə tuturdular. Deməli, bu planda qeyd olunduğu kimi, ermənilər bu ərazidə kiçik kooperativ deyil, böyük şəhər salmağı planlaşdırırdılar ki, bu da haqlı olaraq azərbaycanlıların narazılığına səbəb oldu.

Bu məsələ ilə əlaqədar ilk dəfə Azərbaycan Dövlət Təbiəti Mühafizə Komitəsi həyacan təbili çalaraq 16 noyabr 1988-ci il tarixində SSRİ və Ermənistan SSR rəsmilərinə tikintinin qanunsuz olduğunu və təbiətə böyük ziyan vuracağı haqda etiraz teleqramları göndərir.

Hadisədən xəbər tutan Azərbaycan xalqı Bakının Azadlıq meydanına toplaşaraq respublika rəhbərliyindən iki gün ərzində bu təxribata son qoymağı tələb edir və bununla da Azərbaycan tarixinə "Milli dirçəliş günü" kimi daxil olan 17 noyabr 1988-ci ildə Meydan hərəkatı başlanır.

Faktlar göstərir ki, ermənilər Topxana meşəsinə əvvəlki illərdə də böyük ziyanlar vurublar. Azərbaycan SSR Nazirlər Sovetinin 1 fevral 1982-ci il tarixli 56 saylı qərarı ilə qırılan ağacların cərimə qiymətləri təsdiqlənsə də, bu qərar kağız üzərində qaldı. Bundan başqa, həmin qərarda 450 hektar qoruğun və Daşaltı dövlət yasaqlığının yaradılması nəzərdə tutulmasına baxmayaraq, həyata keçirilmədi.

Hadisələrin başlanğıcında Azərbaycan SSR Mənzil Tikintisi və Sosial Bankında Topxana üçün 700075 saylı hesaba külli miqdarda pul yığılsa da, demək olar ki, problemin həlli üçün heç bir əməli tədbir görülmədi.

Azərbaycanın o zamankı rəhbərləri hadisələrin arxasınca sürünərək Topxanada er-

mənilərin alovlandırdıqları təxribat alovunu söndürmək əvəzinə, xalqın mübarizə əzmini qırmağa çalışırdılar. Xalqın tələbi ilə Azərbaycan SSR Nazirlər Soveti 24 noyabr 1988-ci il tarixdə Topxana ilə əlaqədar 466 saylı qərar qəbul etsə də, dekabrın 4-dən 5-nə keçən gecə Azadlıq meydanında mitinqin dağıdılması ilə bu qərar da digərləri kimi kağız üzərində qaldı. [32; 35]

Dağlıq Qarabağda erməni separatizmi güclənərkən həmin ərazidə sosial problemlərin çoxluğunun önə çəkilməsinin heç bir elmi əsası yox idi. 1978-ci ilin məlumatına görə "Dağlıq Qarabağ hər min nəfər əhalisinə düşən həkimlərin sayına görə inkişaf etmiş kapitalist ölkələrini çoxdan ötüb keçib. Azərbaycan Respublikası üzrə orta yaşayış həddi 72 yaş olduğu halda, Dağlıq Qarabağda daha yüksək, 75 yaş həddindədir". [34, s.104]

1992-1993-cü illərdə Ermənistanın ərazi iddiası obyekti olan Dağlıq Qarabağ bölgəsinin (4,4 min kv. km.) hüdudlarından kənarda yerləşən və onun ərazisindən 4 dəfə böyük olan Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı, Laçın və Zəngilan bölgələri, ümumiyyətlə isə Azərbaycan ərazisinin 20 %-i (17 min kv. km.) Ermənistan silahlı qüvvələri tərəfindən işğal edildi. Azərbaycanın tarixi torpaqlarından və işğal olunmuş ərazilərindən 1 milyondan çox əhali (ümumi əhalinin 15%-i) öz torpaqlarından qaçqın və məcburi  köçkün vəziyyətinə düşdü, 900-ə yaxın yaşayış məntəqəsi dağıdıldı, talan edildi və yandırıldı.

1992-1993-cü illərdə Azərbaycan-Ermənistan münaqişəsini nizama salmaq üçün BMT Təhlükəsizlik Şurası 822, 853, 874, 884 saylı qətnamələri qəbul etdi. Lakin bu qətnamələr qəbul edilərkən Şuranın daimi üzvü olan böyük dövlətlər Ermənistanın təcavüzkar dövlət kimi tanınmasına razılıq verməyərək münaqişənin ATƏT-in Minsk prosesi çərçivəsində atəşkəs və danışıqlar yolu ilə həll olunmasına üstünlük verdilər. Cəzasız qaldığından ruhlanan və bundan istifadə edən Ermənistan tərəfi BMT TŞ-nın münaqişəyə dair qəbul etdiyi 4 qətnaməni yerinə yetirməkdən imtina etdi. [16, s.475-476]

1992-ci il mayın 8-də Ermənistan hərbi birləşmələri tərəfindən işğal edilən, 289 kv. km. ərazisi olan Şuşada həmin dövrdə 25 min nəfərədək əhali yaşayırdı.

Mayın 8-nə keçən gecə erməni silahlı birləşmələri Şuşa şəhərinin işğalı ilə bağlı əməliyyat keçirdi. Şəhərin intensiv artilleriya zərbələrinə tutulması səhər saat 6-dək davam etdi, bundan sonra düşmənin minə yaxın əsgəri üç tərəfdən Şuşaya hücum etdi.



*M.P.Vaqif küçəsi işğaldan bir gün sonra*





***1992-ci ildə dağıdılmış Bazarbaşı meydanı***

Azərbaycanın bu qədim, zəngin tarixə və mədəniyyətə malik şəhərinin Ermənistan silahlı qüvvələri tərəfindən ələ keçirilməsi ilə Dağlıq Qarabağın işğalı başa çatdırıldı.

Şuşanın işğalı nəticəsində 480 günahsız vətəndaş qətlə yetirilib, 600 nəfər yaralanıb, 22 min insan öz yurdundan didərgin düşüb. Əsir götürülmüş 68 soydaşımızın taleyi barədə bu günə qədər məlumat yoxdur. İşğal nəticəsində Şuşadakı bir sıra tarixi-mədəniyyət abidələri düşmən tərəfindən talan edilib. Bu siyahıya Xan və Qaxal mağaraları, Şuşa qalası da daxil olmaqla bütövlükdə 279 dini, tarixi və mədəni abidə daxildir.

Ermənilər Azərbaycana məxsus olan bir çox abidəni məhv edib və ya erməniləşdi-

riblər. Onlar Şuşada 7 məktəbəqədər uşaq müəssisəsini, 22 ümumtəhsil məktəbini, mədəni-maarif, kənd təsərrüfatı texnikumlarını, 8 mədəniyyət evini, 14 klubu, 20 kitabxananı, 2 kinoteatrı, 3 muzeyi, Şərq musiqi alətləri fabrikini dağıdıblar.

Beləliklə, Şuşanın işğalı nəticəsində Azərbaycanın 289 kv. km. ərazisi ermənilərin nəzarətinə keçdi. [53]




# Müzəffər Ordumuzun Şuşanı işğaldan azad etməsi

Müzəffər Azərbaycan Ordusu Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində (27 sentyabr - 10 noyabr 2020-ci il) möhtəşəm qələbə qazanaraq 5 şəhər, 4 qəsəbə və 286 kəndi işğaldan azad etdi. Cəbrayıl şəhəri və rayonun 90 kəndi, Füzuli şəhəri və rayonun 53 kəndi, Zəngilan şəhəri, rayonun Mincivan, Ağbənd, Bartaz qəsəbələri və 52 kəndi, Xocavənd rayonunun Hadrut qəsəbəsi və 35 kəndi, Tərtər rayonunun 3 kəndi, Qubadlı şəhəri və rayonun 41 kəndi, Xocalı rayonunun 9 kəndi, Şuşa şəhəri, Laçın rayonunun 3 kəndi, həmçinin Ağdərə və Murovdağ istiqamətlərində bir neçə strateji yüksəklik, Zəngilanda isə Bartaz, Sığırt, Şükürataz yüksəklikləri və daha 5 adsız yüksəklik yağılardan təmizləndi. [51] 1992-ci ilin 8 mayından erməni işğalı altında olan Şuşa şəhəri 2020-ci il noyabrın 8-də azad edilib. [45]

10 noyabr 2020-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyasının Prezidentinin imzaladığı bəyanata əsasən Dağlıq Qarabağ münaqişəsi zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması elan olundu, məğlub olan Ermənistan noyabr-dekabr aylarında işğal etdiyi Ağdam, Laçın və Kəlbəcər rayonlarını Azərbaycan Respublikasına qaytarmağa və digər öhdəliklərə məcbur oldu. 44 günlük Vətən müharibəsi Azərbaycan Respublikasının parlaq qələbəsi ilə başa çatdı.

Prezident İlham Əliyev: «Müharibədə qəhrəmanlıq göstərmiş minlərlə hərbçi mənim tərəfimdən yüksək orden və medallarla təltif edilib. "Vətən Müharibəsi Ordeni" Azərbaycanın ən ali hərbi ordenidir. "Zəfər" ordeni, "Qarabağ" ordeni. Bütün bu ordenlərin adlarını mən özüm təklif etmişəm. Qəsəbələrimizin, şəhərlərimizin azad edilməsi işində fərqlənmiş hərbçilərə o rayonların adlarını daşıyan medallar verilib. Ordumuz Şuşaya qədər qələbə yolu ilə, uğurla gedərək Cəbrayıl, Füzuli, Xocavənd rayonlarını, Suqovuşan, Hadrut qəsəbələrini, Murovdağ silsiləsini, Laçın rayonunun cənub hissəsini, Qubadlı, Zəngilan rayonlarını azad edib və noyabrın 8-də Şuşa şəhərini azad edib...

Onların ordusunu biz məhv etmişik. Şuşanı onların ordusunun əlindən biz geri almışıq, qəhrəmanlıq göstərərək, sıldırım qayalardan qalxaraq. Yüngül silahlarla, bıçaqlarla toplara, tanklara qarşı vuruşaraq məhv etdik onların ordusunu." [54]

Prezident İlham Əliyev dekabrın 29-da Azərbaycan Respublikası Silahlı Qüvvələ-

rinin hərbi qulluqçularının “Şuşanın azad olunmasına görə” medalı ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.

Sərəncama əsasən, Şuşa şəhərinin işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak edərək şəxsi igidlik və şücaət nümayiş etdirmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 4646 nəfər hərbi qulluqçusu “Şuşanın azad olunmasına görə” medalı ilə təltif edilib. Onlardan 285 nəfəri medala ölümündən sonra layiq görülüb.

“Şuşanın azad olunmasına görə” medalı ilə ölümündən sonra təltif edilən hərbi qulluqçular sırasında 3 polkovnik-leytenant, 3 mayor, 4 kapitan, 11 baş leytenant, 14 leytenant, 4 kiçik leytenant, 4 baş gizir, 25 gizir, 7 kiçik gizir, 8 baş çavuş, 7 çavuş, 7 kiçik çavuş, 1 baş əsgər və 187 əsgərin adı var.

Azərbaycan Respublikasının prezidenti İlham Əliyev Şuşa işğaldan azad olunandan sonra 4 dəfə – 14-15 yanvar, 16 mart, 12-13 may və 15 iyun 2021-ci il tarixlərində qədim mədəniyyət paytaxtımıza səfər edib.

Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin 14 yanvar 2021-ci il tarixdə Şuşaya baş tutan birinci səfərində onu birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva müşayiət ediblər. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun 27-ci kilometrində Füzuli-Şuşa yolunun, həmçinin uçuş-enmə zolağının uzunluğu 2 800 metr olacaq Füzuli rayonunda hava limanının təməllərini qoyub. Prezident bildrib ki, böyük qayıdış başlayır, bütün işlərə start verildi. Azərbaycan dövləti Şuşanı və dağıdılmış bütün başqa şəhər və kəndləri, bütün tarixi abidələri bərpa edəcək.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva növbəti dəfə, 2021-ci il martın 16-da Şuşa şəhərində olarkən Pənahəli xanın sarayının qalıqlarına, Molla Pənah Vaqifin büstünün qoyulacağı əraziyə, Vaqifin muzey-məqbərə kompleksinə, erməni vandalları tərəfindən dağıdılmış Şuşa şəhərinin mərkəzi meydanında yerləşən, XIX əsrə aid Karvansaray tarix-memarlıq kompleksinə, 1982-1992-ciillərdə fəaliyyət göstərmiş Şuşa Dövlət Rəsm Qalereyasının binasına, Şuşa Xalça Muzeyinə, Realnı məktəbin dağılmış binasına, Şuşada Park otelin yerləşəcəyi binaya, Şuşa sanatoriyasına baxıb, “Qarabağ” mehmanxanasında aparılacaq təmir-bərpa işləri və Daşaltı kəndi ilə tanış olublar.

Prezident İlham Əliyevin Şuşaya üçüncü səfəri Azərbaycanın qədim mədəniyyət beşiyi olan Şuşanın 29 ildən sonra — 2021-ci il mayın 12-də "Xarıbülbül" musiqi festivalına ev sahibliyi etdiyi günə təsadüf edib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva musiqi festivalında iştirak ediblər. Bu festifal Şuşa şəhərində 1989-cu ildən keçirilməyə başlansa da, 1992-ci il mayın 8-də şəhərin erməni silahlı qüvvələri tərəfindən işğalı ilə dayandırılmışdı. Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusunun, onun tərkib hissəsi olan Xüsusi Təyinatlı Qüvvələrin qəhrəmanlığı ilə Şuşa azad olunandan sonra festivalın yenidən bərpa olunması əhali arasında böyük qürur və fərəh hissi doğurub.

Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Şuşaya növbəti səfəri 15 iyuna təsadüf edib. Dövlət başçısı Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanı və birinci xanım Əminə Ərdoğanı Qarabağ torpağında – Füzuli rayonunda qarşılayıb. Fizulidən Şuşaya gedərkən hörmətli qonaqlar yol boyu Azərbaycanın yaşayış məskənlərinin işğalçılar tərəfindən dağıdılmasının, erməni vandalizminin canlı şahidi olub.

Şuşa şəhərində Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və birinci xanım Əminə Ərdoğanın rəsmi qəbulu keçirilib. Rəsmi qəbuldan və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın təkbətək görüşündən sonra mühüm tarixi əhəmiyyət kəsb edən, 2021-ci ilin 15 iyun tarixli "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi" imzalanıb. İki dost və qardaş ölkə arasında imzalanan bütün beynəlxalq sənədlərin məntiqi davamı olan "Şuşa Bəyannaməsi" siyasi, iqtisadi, müdafiə, mədəni, humanitar, səhiyyə, təhsil, sosial, gənclər və idman sahələrindəki imkan və potensialların birləşdirilməsinə xidmət edir.

Şuşa Bəyannaməsinin imzalanmasından sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan mətbuata birgə bəyanatlarla çıxış ediblər. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu səfərin tarixi əhəmiyyətini xüsusi vurğulayaraq "Şuşa Bəyannaməsi"ni iki dövlət arasında əlaqələrin ən yüksək zirvəsi kimi dəyərləndirib.

"Şuşa Bəyannaməsi"nin təkcə iki ölkə üçün deyil, həm də bölgə üçün əhəmiyyət

daşıdığını qeyd edən Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan qədim Şuşa şəhərində ən qısa müddətdə Türkiyənin baş konsulluğunun açılacağını bildirib.

Səfər çərçivəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan, birinci xanım Əminə Ərdoğan "Xan qızı" bulağında olub, Şuşada Azərbaycanın tanınmış şəxsiyyətləri Natəvan, Bülbül və Üzeyir Hacıbəylinin heykəllərini ziyarət edib və Heydər Əliyev Fondunun təşkilatçılığı ilə hazırlanan "Musiqi irsi və Qarabağ atları Cıdır düzündə" adlı kompozisiyaya baxıblar.



# ƏLAVƏ

# Şuşanın tarixi abidələri

*Şuşa şəhərində ümumilikdə 549 qədim bina, ümumi uzunluğu 1203 metr daş döşənmiş küçələr, 17 məhəllə bulağı, 17 məscid, 6 karvansara, 3 türbə, 2 mədrəsə, 2 qəsr və qala divarları mövcud olub. O cümlədən, 72 mühüm sənət və tarixi abidələr, dövlət xadimlərinin və başqa tanınmış şəxslərin evləri olub. Şuşada 17 məhəllə salınıb ki, söylənildiyi kimi, hər bir məhəllənin öz məscidi, bulağı, hamamı var idi. Şuşa şəhəri, ümumiyyətlə bulaqlarla zəngin idi (İsa bulağı, Saxsı bulaq, Şor bulaq, Səkili bulağı, Şəmilin bulağı və s.).*

*Azərbaycan Respublikasının böyük səyi nəticəsində Şuşa Tarix-Memarlıq Qoruğu 24 oktyabr 2001-ci ildə UNESCO-nun Təcili Qorunmaya Ehtiyacı olan Maddi-Mədəni İrsin İlkin siyahısına daxil edilib. [55]*

*Bu abidələrin bir hissəsi aşağıdakılardır:*

***İşğala qədər dövlət inventarına alınaraq qorunan tarixi-dini abidələr***

- *Hacı Yusifli məscidi (XVIII əsr) – Q.İsmayılov küçəsi (İNV № 5089)*
- *Çöl Qala məscidi (XVIII əsr) – keçmiş Kuybışev küç. (İNV № 5103)*
- *Xoca Mərcanlı məscidi (XVIII əsr) – Sabir küç. (İNV № 5137)*
- *Quyuluq məscidi (XVIII əsr) – keçmiş Şaumyan küç. (İNV № 5146)*
- *Seyidli məscidi (XVIII əsr) – keçmiş Telman küç. (İNV № 5151)*
- *Məscid (XVIII əsr) – keçmiş Əmiryan küç. Çuxurlu məhəlləsi (İNV № 5068)*
- *Mərdinli məscidi (XIX əsr) – A.Qaraşərov küç. (İNV № 5077)*
- *Culfalar məscidi (XIX əsr) – Ü.Hacıbəyov küç. (İNV № 5092)*
- *Mamay məscidi (XIX əsr) – Q.Əsgərov küç. (İNV № 5166)*
- *Köçərli məscidi (XIX əsr) – keçmiş Sovet küç. (İNV № 5145)*
- *Malıbəyli məscidi (XIX əsr) – Malıbəyli kəndi (İNV № 5056)*
- *Alban kilsəsi (XIX əsr) – Qeybalı kəndi (İNV № 5059)*
- *Alban kilsəsi (XIX əsr) – Daşaltı kəndi (İNV № 5057)*
- *Kilsə qalıqları - Q.Pirimov küç. (İNV № 5041)*
- *Qız monastırı (XVIII-XIX əsrlər) – keçmiş Qorki küç.*



**Çöl Qala məscidinin qalıqları**

- *Qazançı kilsəsi (XIX əsr) - Haqverdiyev küç. (İNV № 358)*
- *Qaybalı məscidi (XIX əsr)*
- *Şirlan məscidi (XIX əsr)*
- *Yuxarı Gövhərağa məscidinin mədrəsəsi (XVIII əsr) – Vəzirov küç. (İNV № 360)*
- *Mədrəsə (XVIII əsr) – keçmiş Krupskaya küç. (İNV № 369)*

### *Ziyarətgahlar*

- *Turbə - Şuşa şəhəri (İNV № 5042)*
- *Heydər türbəsi - Şuşa şəhəri (İNV № 340)*
- *Həzrət Əli kahası (Nəzir kahası)*
- *Həzrət Abbas şəfa ocağı*
- *Saqqaxana və Pirgah pirləri*
- *Seyid Mirfəsih türbəsi*
- *Ağadədəli məhəlləsində Mir Mehdi ağanın ocağı*
- *Çuxur məhəllədə iki minarəli şəfa ocağı*
- *Qasım ağanın ocağı*
- *Seyidli məhəlləsində Seyid Xəlil Seyid Əli oğlunun ocağı*

### *Tarixi memarlıq abidələri*

- *Kurqan (Tünc dövrü) – Şuşa şəhərinin şimal-qərbində (İNV № 1770)*
- *Şuşa və Şuşakənd daş qutusu qəbirləri (Son Tunc və İlk Dəmir dövrü) - Şuşa şəhəri və Şuşakəndin yaxınlığında (İNV № 1771)*
- *Daş qutusu nekropolu (dəmir dövrü) - Qarabulaq kəndi (İNV № 1773)*
- *Nekropol (Son Tunc və İlk Dəmir dövrü) – Dolanlar kəndi (İNV № 1774)*
- *Qala divarı (uzunluğu 2.5 kilometr, 1752-ci il) – Şuşa şəhəri (İNV № 337)*
- *Pənahəli xanın sarayı (XVIII əsr) – Şuşa şəhəri (İNV № 338)*
- *Qara Böyük Xanım bürcü (XVIII əsr) – Şuşa şəhəri (İNV № 339)*
- *Hacıqulların malikanəsi (XVIII əsr) – Şuşa şəhəri (İNV № 341)*
- *Natəvanın evi (XVIII əsr) – Şuşa şəhəri, keçmiş Lenin küç. (İNV № 342)*
- *Əsəd bəyin evi (XVIII əsr) – Şuşa şəhəri, keçmiş Voroşilov küç. (İNV № 343)*
- *İkimərtəbəli karvansara (XIX əsr) – Şuşa şəhəri, Mərkəzi meydan (İNV № 346)*
- *Mehamandarovların malikanə kompleksi: məscid, kiçik yaşayış evi, böyük yaşayış evi (XVIII əsr) – Şuşa şəhəri (İNV № 347)*
- *İbrahimxəlil xanın bürcü (XVIII əsr) – Şuşa şəhəri (İNV № 348)*

- *İsa bulağı (XIX əsr) – Şuşa şəhərinin yaxınlığında (İNV № 349)*
- *İbrahimxəlil xanın qəsri (XVIII əsr) – Daşaltı kəndi (İNV № 350)*
- *Vaqifin məqbərəsi (XX əsr) – Q.Quliyev küç. (İNV № 367)*

### ***Yuxarı Gövhərağa məscidi (İNV № 344)***

*"Kitabi-tarixi Qarabağ" əsərinin müəllifi Mir Mehdi Xəzaninin yazdığına görə, hicri tarixi ilə 1182-ci ildə (miladi ilə 1768-69-cu illər) Qarabağ hakimi İbarahimxəlil xan tərəfindən bina edilən məscid hicri tarixi ilə 1281-ci ildə (miladın 1866-1867-ci illərində) mükəmməl şəkildə təmir olunub. Daxili sahəsi 558 kv. metrdir. Təxminən 30 metr hündürlüyündə qoşa minarəsi var.*

*Baharlının "Qarabağnamə"sində deyilir ki, Şuşanın baş meydanında 1759-cu ildə Pənahəli xan tərəfindən qamışdan iki qapılı məscid tikilib, 1768-ci ildə isə onun yerində mərhum xanın oğlu İbrahimxəlil xan tərəfindən daha möhtəşəm məscid ucaldılıb. Təxminən 100 ildən sonra elə bu yerdə onun qızı Gövhərağanın tapşırığı və vəsaiti ilə memar Kərbəlayi Səfixan Qarabaği tərəfindən daha bir məscid inşa edilib.*

*Buna qədər mövcud olmuş Cümə məscidi binasının görünüşü ilə o zaman Qafqaza səyahət edən rus rəssamı Vasili Vereşaginin çəkdiyi şəkildən tanış ola bilərik. Rəssamın çəkdiyi şəkildəki məscid binası əzəmətlidir. Onun giriş hissəsi Səfəvi memarlığına xas olaraq həddən artıq böyük baştağdan qurulub. Baştağın üzərində dam örtüyü Avropa memarlığına məxsus ampir şəklində işlənib. Bu məscid binasının yerində tikilən Yuxarı Gövhərağa məscidinin fasadı isə üç eyni ölçülü tağla irəli çəkilərək binanın şimal, yəni ön hissəsi boyunca uzanan eyvan şəklində həll olunub. Yeni binada Qurani-Kərimdən ayələr, məscidin inşa tarixi və Gövhərağanın vəsiyyətnamələrini əks etdirən çoxlu daş kitabələrə rast gəlmək olar. Binanın ikinci mərtəbəsi və minarələrdəki ornament, eləcə də kitabələr məşhur Azərbaycan şairi və nəqqaşı Mir Möhsün Nəvvab tərəfindən işlənib.*

*Səxavəti və xeyriyyəçiliyi ilə ad çıxaran xan qızı Gövhərağa məscidinin bir hücrəsini mədrəsə edib, bura ibadətə gələn və ehtiyacı olanlara həftədə bir dəfə yardım, məsciddə Quran oxuyan və azan verən müəzzinlərə məvacib ayırmışdı. Gövhərağa vəfat edəndən sonra məscidin həyətində dəfn edilib, az sonra isə nəşi Məkkəyə aparılaraq*



*Yuxarı Gövhərağa məscidi*

*orada torpağa tapşırılıb.*

### ***Saatlı məscidi (İNV № 355)***

*Saatlı məscidi 1883-cü ildə memar Kərbəlai Səfixan Qarabaği tərəfindən tikilib. Şuşa şəhərinin tarixini tədqiq edən Çingiz Qacarın yazdığına görə, Saatlı məscidinin yerində 1759-cu ildə Pənahəli xanın tikdirdiyi məscid və mədrəsə olub, məhz bu mədrəsədə böyük Azərbaycan şairi Molla Pənah Vaqif dərs deyibdir.*

*Məscid Şuşanın Saatlı məhəlləsində tikildiyi üçün belə adlanır. Saatlı məhəllə məscidi olsa da, şəhərin digər məhəllə məscidlərindən həm həcmi, həm memarlıq quruluşu, həm də dekorativ tərtibatı ilə seçilirdi. Tədqiqatçı Rizvan Qarabağinin yazdığına görə, bura Kərbəlai Səfixan Qarabağinin tikdiyi minarəli son məscid olub.*

*Sonrakı illərdə bu gözəl sənətkarın tikdiyi məscidlərdə uca minarələr olmayıb, onları damın üstündə güldəstə formalı kiçik şərəfələr əvəz edib. Amma memarlıq üslubundakı belə kəskin dəyişikliyin nə ilə bağlı olması heç yerdə izah olunmur. Fasad yalnız divar və assimmetrik düzülüşə malik qapı və pəncərələrdən ibarətdir.*

*Saatlı məscidinin interyer həlli bədii kamillik nümunəsi hesab oluna bilər. Tavana dayaq olan dörd səkkizbucaqlı daş sütunların sayəsində ibadət zalı üç nefli məkana malikdir. Bunun nəticəsində zalda sanki sonsuz sayda tağ keçidlər yaranır. Divarların səthi həndəsi fiqurlar və nəbati naxışlarla tərtib olunub. Tək minarə binanın arxa tərəfində yerləşdirilib. Belə ehtimal edilir ki, minarə məscidlə eyni vaxtda deyil, sonrakı illərdə ucaldılıb.*

*İstedadlı memarın tikdiyi bütün binaların divarında belə bir söz yazılıb: "Qarabağdan olan Kərbəlayi Səfixan tərəfindən tikildi". Əlbəttə, bu daş imzalar sonrakı dövrlər üçün sənəd kimi böyük əhəmiyyət daşıyır. Lakin bunsuz da memarın yaratdığı məscidlərə, hətta, uzaqdan baxanda belə, onun kim tərəfindən tikildiyi məlum olur... memar Qarabaği.*

*"Saatlı" etnonimi XIV əsrin sonunda Arpaçayın aşağı axarı və Araz çayının sağ sahilində yerləşən Çuxur Səəd adlı əyalətdə yaranıb. Əvvəllər Arpaçayın aşağı axarı və Arazın sağ sahilində yaşayan saatlıların xeyli hissəsi XV əsrin 30-cu illərindən qonşu ərazilərə köçüblər. Saatlıların bir qismi Qazax zonasında, bir hissəsi isə 1795–1798-ci*



*Saatlı məscidi*

*illərdə isə Qarabağda məskunlaşıbdır. Saatlı tayfasının adı Çuxur Səəddə yaşayan tayfanın, yaxud Əmir Səədin adını daşıyan və qədimdən Ağrıdağ vadisində yaşamış Azərbaycan türklərinin – Saqatlı, Saatlu tayfasının etnik adıdır. [48]*

### *Aşağı Gövhərağa məscidi (İNV № 345)*

*Aşağı Gövhərağa məscidi - Şuşa şəhərinin Qapan meydanında yerləşən cümə məscididir. Məscid Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi tərəfindən ölkə əhəmiyyətli tarix-mədəniyyət abidəsi kimi qeydiyyata alınıb. Bu məscid ilk dəfə Şuşanın 1855-ci ilə aid baş planında yaxınlıqda yerləşən mədrəsə ilə birlikdə qeyd edilir. Yeni məscidin inşası memar Kərbəlayi Səfixan Qarabaği tərəfindən Gövhərağanın maddi dəstəyi əsasında həyata keçirildiyinə görə, sonradan Aşağı məscid həm də Aşağı Gövhərağa məscidi adı ilə tanınmağa başlanıb. [46]*



***Aşağı Gövhərağa məscidi. İşğaldan sonrakı vəziyyəti***

## Məlumat-soraq materialları

**Abbas Mirzə** (1789-1833) – Fətəli şah Qacarın oğlu və vəliəhd. Cənubi Azərbaycanın və Xorasanın valisi olub. Rusiya-İran (1804-1813; 1826-1828) və İran-Türkiyə (1821-1823) мüharibələrində İran ordusuna komandanlıq edib.

**Aleksandr Pavloviç** (1777-1825) – Rusiya imperatoru I Aleksandr.

**Cavad xan (? – 1804)** – Gəncə xanı (1787–1804), Ziyadoğluları nəslindən idi. Cavad xan müstəqil siyasət yeridərək Gəncə xanlığının Gürcüstandan nominal asılılığına son qoydu, Qazax, Borçalı, Şəmşəddil, Şəmkir və s. yerlər Gəncə xanlığına daxil edildi.

**Cavanşir Behbud Xan Azad oğlu** (1886-1921) – Azərbaycan Xalq Cümhuriyyətin dövlət və ictimai xadimi. 1918-ci ilin iyun-dekabr aylarında Azərbaycan Xalq Cümhuriyyəti Hökumətində daxili işlər naziri olub, 1918-ci ilin oktyabrından isə, eyni zamanda, ticarət və sənaye naziri vəzifəsini icra edib. Behbud xan İstanbulda erməni terrorçusu Toplaqyan tərəfindən odlu silahla yaralandıqdan sonra xəstəxanada vəfat edib.

**Çervon** – I Pyotrun pul islahatları gedişində 1701-ci ildən buraxılmış və XVIII–XIX əsrlərdə dövriyyədə olmuş 3 rubl dəyərində rus qızıl sikkəsi.

**Çövkən, bəzən çovqan** – Orta əsrlərdə bir sıra Yaxın Şərq ölkələrində, o cümlədən Azərbaycanda yayılmış atçılıq idman növü. At ilə oynanılan idman komanda oyunu və müasir polo oyununun bir versiyası.

**Ələsgərov Süleyman Əyyub oğlu** – (1924-2000) Bəstəkar, dirijor, pedaqoq, musiqi-ictimai xadim, Azərbaycanın Xalq artisti

**Hacıbəyli Soltan İsmayıl oğlu** (1919-1974) – Bəstəkar, pedaqoq, musiqi-ictimai xadim, professor. SSRİ Xalq artisti

**Hacıbəyli Zülfüqar Əbdülhüseyn oğlu** (1884-1950) – Bəstəkar, librettoçu, musiqi ictimai xadim. Azərbaycanın əməkdar incəsənət xadimi

**Hacınski Məmməd Həsən Cəfərqulu oğlu** (1875-1931) – Azərbaycan Xalq Cümhuriyyətinin ilk xarici işlər naziri, görkəmli dövlət xadimi.

**Heyran xanım Dünbüli –** XIX əsrdə yaşamış tanınmış Azərbaycan şairəsi. Klassik Azərbaycan poeziyasının inkişafında mühüm rol oynayıb.

**Xruşşov Nikita** (1894-1971) – 1953-cü ildən 1964-cü ilə kimi Sov.İKP MK Baş katibi, 1958-ci ildən 1964-cü ilə kimi SSRİ Nazirlər Sovetinin sədri. Sovet İttifaqı Qəhrəmanı, Üçqat Sosialist Əməyi Qəhrəmanı.

**İstirham** – ərəb sözüdür, mərhəmət istəmə, rica etmə.

**Qacarlar** – Qızılbaşlar ittifaqına daxil olan tayfa. Qacarların Ön Asiyaya XII–XIV əsrlərdə gəldiyi ehtimal olunur. Onlar əvvəlcə Suriya ilə İran arasındakı ərazidə məskunlaşıblar, daha sonra Azərbaycana köç ediblər, hazırda isə Cənubi Azərbaycanda və İranın digər bölgələrində yaşayırlar. Qacarlar Azərbaycan xalqının etnogenezində iştirak ediblər. Bu tayfa Səfəvilər dönəmində siyasi həyatda fəal rol oynayıb. 1796–1925-ci illərdə İranı idarə etmiş Qacarlar sülaləsinin nümayəndələri də həmin tayfadan olublar.

**Məşrutə** – Mütləq hakimin, hökmdarın hüququnu məhdudlaşdıran konstitusiya (İranda və Türkiyədə).

**Mir Möhsün Nəvvab** (1833-1918) – Şuşa şəhərində yaşayıb-yaratmış şair, rəssam, astronom, ədəbiyyatşünas, nəqqaş, tarixçi, xəttat və musiqişünas alim.

**Müəzzin** – Ərəbcə “Azan verən”, “Azana dəvət edən” deməkdir.

**Nadir Şah Əfşar** (1688-1747) – Azərbaycan, Türküstan və Hindistanın şahı (1736–1747) və türksoylu Əfşarlar sülaləsinin banisi. Hərbi nailiyyətlərinə görə bəzi tarixçilər ona Şərqin Napoleonu və ikinci Makedoniyalı İsgəndər kimi ləqəblər vermişlər.

**Pişxidmət** – Ev xidmətçisi, qulluqçu, nökər.

**Sisianov Pavel** (1754-1806) – gürcü əsilli rus generalı, çar Rusiyasının Qafqazdakı qoşunlarının baş komandanı. 1806-cı ildə Bakı yaxınlığında sui-qəsd nəticəsində Aslan Bəy tərəfindən öldürülüb.

**Şərəfə** – Minarənin azan verilən yeri.

**Volost** – nahiyə (ərəb dilində yan tərəf, kənar, qonşu) Çar Rusiyasında qəzadan kiçik inzibati-ərazi vahidi. Rusiyada XVIII əsrin əvvəlindən tətbiq olunan inzibati-ərazi sisteminə görə, hər qəza bir neçə Nahiyəyə (volosta) bölünüb. 1929-cu ildə SSRİ-nin inzibati-ərazi sistemində həyata keçirilən islahatlar zamanı Nahiyələr də ləğv edilib.

**Zubov Valerian** (1771 - 1804) – rus hərbi xadimi, Rus ordusunun İran yürüşü (1796) zamanı baş komandanı

## İstifadə olunmuş ədəbiyyat

1. Azərbaycan tarixi, yeddi cilddə, III cild (XIII-XVIII əsrlər) – Bakı, 2007
2. Azərbaycan tarixi, yeddi cilddə, IV cild (XIX əsr) – Bakı, 2007
3. Azərbaycan tarixi, yeddi cilddə, VI cild (aprel 1920-iyun 1941) – Bakı, 2008
4. Azərbaycan toponimlərinin ensiklopedik lüğəti, iki cilddə, ikinci cild – Bakı, 2007
5. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası, iki cilddə – Bakı, 2004-2005
6. Azərbaycan tarixi üzrə qaynaqlar – Bakı, 1989
7. Cəfərzadə Ə. Natəvan haqqında hekayələr – Bakı, 1963
8. Əliyeva H. Natəvanın tikmələri – "Qobustan" jurnalı, N1, 1970
9. Hüseynov Y. Şuşa və şuşalılar – Bakı, 2016
10. İsmayılov F. Məcburən erməniləşdirmə (Azərbaycan və rus dillərində) – Bakı, 2009
11. İsmayılov İ. Azərbaycan mirvarisi Şuşa – Bakı, 2015
12. Klassik Azərbaycan ədəbiyyatında işlənən ərəb və fars sözləri lüğəti, iki cilddə – Bakı, 2005
13. Mahmudov Y., Kərimov Ş. – "Olaylar" qəzeti, 21.09.2010
14. Mahmudov Y., Mustafayev C. Şuşa-Pənahabad – Bakı, 2012
15. Mahmudov Y., Şükürov K. Qarabağ: real tarixi faktlar və sənədlər – Bakı, 2005
16. Mədətov İ., Zülfüqarlı M. Azərbaycan tarixi – Bakı, 2018
17. Məmmədov B. Xurşidbanu Natəvan – Bakı, 1983
18. Məmmədov N. Azərbaycan Respublikasının Şuşa şəhərinin tarixi – Bakı, 2017
19. Məmmədov N. Azərbaycanın Şuşa qəzası (1900-1917-ci illər) – Bakı, 2005
20. Məmmədova Ş. Azərbaycanın tarixi-memarlıq abidələri. Məlumat kitabçası – Bakı, 2008
21. Mirzə Adıgözəl bəy. Qarabağnamə (müqəddimə və Mirzə Adıgözəl bəyin tərcümeyi-halına aid materiallar. V.N.Leviatovundur) – Bakı, 1950
22. Mirzə Camal Cavanşir Qarabaği. Qarabağ tarixi. Qarabağnamələr. İki kitabda, Birinci kitab. – Bakı, 1989
23. Mirzə Camal Cavanşir Qarabaği. Qarabağ tarixi – Bakı, 1959
24. Musayev D. Şuşa - Qədim Azərbaycan diyarı – Bakı, 2009
25. Mustafazadə T. Qarabağ xanlığı – Bakı, 2010

26. Nağısoylu M., Kərimov R., Rəhimov M. Şuşa Azərbaycan mətbuatında (1875-1920) – Bakı, 2017
27. Natəvanın şair qohumları – Bakı, 1989
28. Qarabağ. Yaddaş – Bakı, 2010
29. Şuşinski F. Xan Şuşinski – Bakı, 1989
30. Vəliyeva B. Xan Şuşinskinin mahnı yaradıcılığı. – "Konservatoriya" jurnalı, № 1, 2015
31. Xurşidbanu Natəvan. Əsərləri – Bakı, 2004
32. Zülfüqarlı M. Topxanada 16 il əvvəl nə baş vermişdi? – "Ədalət" qəzeti, 04.11.2004
33. Zülfüqarlı M. Azərbaycan tarixinə yeni baxış – Bakı, 2007
34. Zülfüqarlı M. Azərbaycanı kimlər idarə edib? (may 1918-oktyabr 2003) – Bakı, 2006
35. Zülfüqarlı M. Topxanada nə baş vermişdi? – "Dünyaya Qarabağ Harayı" jurnalı, № 5, 2007
36. Авалов Э. Архитектура города Шуши – Баку, 1977
37. Виноградов В. Узеир Гаджибеков и азербайджанская музыка – Москва, 1938
38. Ибрагимбейли Х. Россия и Азербайджан в первой трети XIX века – Москва, 1969
39. Каджар Ч. Старая Шуша – Баку, 2007
40. Мирза-Адигезаль-бек. Карабаг-Наме – Баку, 1950
41. Помпеев Ю. Кровавый омут Карабаха – Баку, 1992
42. Садыхова Г. История города Шуши (XIX - начало XX вв.) – Баку, 2004
43. Шавров Н. Новая угроза русскому делу в Закавказье: предстоящая распродажа Мугани инородцам – Санкт-Петербург, 1911
44. http://ensiklopediya.gov.az
45. http://medeniyyet.az
46. http://www.dqdk.gov.az/az/view/objects/11
47. http://www.musicacademy.edu.az
48. http://www.saatli-ih.gov.az/page/10.html
49. http://www.science.gov.az/news/open/15182
50. http://www.shusha-ih.gov.az/page/11.html
51. https://azertag.az/xeber/1622227
52. https://azertag.az/xeber/1695081?fbclid=IwAR1tkTAJnnyLVSDbpJUyxdz_ZxZtNSH-NUPSjJpspA1qhh3YmUXKvnPWjIk8.

53. https://azertag.az/xeber/Susanin_Ermenistan_silahli_quvveleri_terefinden_isgalindan_23_il_otur_VIDEO-853401, Azərtac, 8.05.2015
54. https://azertag.az/xeber/1688523
55. https://unesco.preslib.az/az/page/Vc6r4HOleG
56. https://www.azleks.az

## Mündəricat

Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ................................................ 7
Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi ........................................................ 9
Oxuculara müraciət ........................................................ 17
Rəsmi xronikanın fotoları ........................................................ 22
**Rəsmi xronika ........................................................ 25**
Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Fəxri xiyabanda və Şəhidlər xiyabanında olublar. Dövlətimizin başçısı, Müzəffər Ali Baş Komandan Şəhidlər xiyabanında Azərbaycan xalqına müraciət edib ........................ 27
Mehriban Əliyeva: Biz Şuşamızı qaytardıq! Bu əlamətdar tarixi hadisə münasibətilə hamınızı təbrik edirəm ........................................................ 35
Birinci vitse-prezident Mehriban Əliyeva: Azad olunmuş qədim Şuşa şəhərimizdə olmağımdan çox xoşbəxtəm! ........................................................ 36
Prezident İlham Əliyev Füzuli rayonunda Füzuli-Şuşa yolunun və hava limanının təməllərini qoyub, Şuşa şəhərində səfərdə olub .................................... 37
Birinci vitse-prezident Mehriban Əliyeva rəsmi “Instagram” səhifəsində Şuşa şəhərinə səfərdən görüntülər paylaşıb ........................................................ 59
Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşa şəhərində olublar ........................................................ 60
Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müraciəti ........................ 66
Birinci vitse-prezident Mehriban Əliyeva rəsmi instaqram səhifəsində Prezident İlham Əliyevlə Qarabağa növbəti səfərdən görüntülər paylaşıb ........................................................ 71
Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşada səfərdədirlər. Şuşada 110/35/10 kilovoltluq yarımstansiya istifadəyə verilib ........................................................ 73

Şuşada "Xarıbülbül" otelinin yenidənqurmadan sonra açılışı olub .......................... 75
Prezident İlham Əliyev "Xarıbülbül" otelinin nəzdindəki korpusda və kotteclərdə yaradılan şəraitlə tanış olub .................................................................. 76
Prezident İlham Əliyev Şuşada yeni məscidin təməlini qoyub .................................. 77
Şuşada Xüsusi nümayəndəliyin inzibati binası ilə tanışlıq ...................................... 79
Prezident İlham Əliyev Şuşada Xan qızı Natəvanın sarayının qarşısındakı əraziyə baxış keçirib ....................................................................... 80
Prezident İlham Əliyev Şuşada bərpa edilən "Xan qızı" bulağında olub ............ 81
Şuşa Yaradıcılıq Mərkəzinin yerləşəcəyi bina ilə tanışlıq ...................................... 82
Prezident İlham Əliyev Şuşa Rəsm Qalereyasında görülən işlərlə tanış olub ............................................................................................................... 83
Şuşada 1 saylı ümumtəhsil məktəbinin təməli qoyulub ........................................... 84
Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşada "Xarıbülbül" festivalının açılışında iştirak ediblər .......................................... 85
Qarabağ səmasında, Şuşada atəşfəşanlıq .................................................................... 94
Birinci vitse-prezident Mehriban Əliyeva rəsmi instaqram səhifəsində Şuşada təşkil olunan atəşfəşanlığın görüntülərini paylaşıb .................................... 95
Birinci vitse-prezident Mehriban Əliyeva Ramazan bayramı ilə bağlı paylaşım edib ........................................................................................................................ 96
Prezident İlham Əliyev Şuşada Yuxarı Gövhərağa məscidində olub .................... 97
Birinci vitse-prezident Mehriban Əliyeva rəsmi instaqram səhifəsində "Xarıbülbül" musiqi festivalının qala-konsertindən görüntü paylaşıb ..................... 98
Şuşanın Cıdır düzündə "Xarıbülbül" musiqi festivalı qala-konsertlə başa çatıb .............................................................................................................. 99
Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun və Zəfər yolunun tikintisi ilə tanışlıq ............ 102
Zəfər yolu üzərində körpünün inşası ilə tanışlıq ....................................................... 103
Prezident İlham Əliyev Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunda inşa olunacaq tunelin təməlini qoyub ................................................................................................. 104
Azərbaycan Prezidenti İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanı Füzuli rayonunda qarşılayıb ............................................................... 105

Şuşada Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın rəsmi qarşılanma mərasimi olub ........ 107
Azərbaycan və Türkiyə prezidentlərinin təkbətək görüşü ........ 108
Şuşada Azərbaycanın tanınmış şəxsiyyətləri Natəvan, Bülbül və Üzeyir Hacıbəylinin heykəlləri də ziyarət olunub ........ 109
Azərbaycan ilə Türkiyə arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi imzalanıb ........ 110
Azərbaycan və Türkiyə prezidentləri mətbuata birgə bəyanatlarla çıxış ediblər ........ 111
Azərbaycan və Türkiyə prezidentləri Şuşada "Xan qızı" bulağında olublar ........ 121
Şuşada Azərbaycanın və Türkiyənin birinci xanımlarının görüşü olub ........ 123
Şuşada Heydər Əliyev Fondunun təşkilatçılığı ilə "Musiqi irsi və Qarabağ atları Cıdır düzündə" adlı kompozisiya təqdim olunub ........ 124
Azərbaycan və Türkiyə prezidentləri Şuşada birgə nahar ediblər ........ 125
Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Milli Məclisdə çıxış edib ........ 126
**Şuşa (müxtəsər tarix) ........ 135**
Şuşa 1756-1805-ci illərdə ........ 137
Kürəkçay müqaviləsindən sonrakı Şuşa (1805-1918) ........ 155
Şuşa Azərbaycan Xalq Cümhuriyyəti dövründə (1918-1920) ........ 169
Şuşa sovet hakimiyyəti illərində (1920-1991) ........ 175
Azərbaycanda istiqlal uğrunda mübarizə və erməni işğalı (1988-1993) ........ 189
Müzəffər Ordumuzun Şuşanı işğaldan azad etməsi ........ 199
Əlavə. Şuşanın tarixi abidələri ........ 205
Məlumat-soraq materialları ........ 217
İstifadə olunmuş ədəbiyyat siyahısı ........ 219

# İlham Əliyev: ”Əziz Şuşa, biz qayıtmışıq!”

**Məsul redaktor**
Təmkin Məmmədli
**Bədii redaktor**
İrina Muxtarova
**Texniki redaktorlar**
Laləzər Abbasova
Fatmaxanım Həsənova
Sevda Zeynalova
**Korrektor**
Afət Manafova
**Dizayner**
Elviz İsmayılov
**Orijinal maketin müəllifi**
Mehman İbrahimov

***“1905.az STUDİO”da çapa hazırlanıb***

CBS POLYGRAPHIC PRODUCTION

mətbəəsində çap olunub

Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyası (AVCİYA) xalqımız üçün müstəsna əhəmiyyətə malik olan Qarabağla bağlı çoxsaylı yaddaqalan layihələr gerçəkləşdirib.

Bu layihələr sırasında 2007-ci ildə “Xocalı soyqırımı: milyon imza, bir tələb” adlı aksiyanı xüsusi qeyd etmək lazımdır. Aksiya çərçivəsində Xocalı soyqırımının beynəlxalq aləmdə tanınması tələbilə bir milyon Azərbaycan vətəndaşının imzası toplanıb və 16 cildlik imzalar toplusu kitab halında çap etdirilərək, qabaqcıl dünya ölkələrinin parlamentlərinə və kitabxanalarına, universitetlərinə göndərilib, BMT, ATƏT, AŞPA, Beynəlxalq Cinayət Məhkəməsinə təqdim olunub.

Ötən illər ərzində AVCİYA müdhiş soyqırım aktı ilə bağlı “Xocalı soyqırımı (sənədlər, faktlarda və xarici mətbuatda)”, “Xocalı yaddaşı” kitabları daxil olmaqla bir neçə toplunu nəşr edib.

2012-ci ildə AVCİYA prezidenti Elxan Süleymanovun və iqtisad elmləri doktoru Vurğun Süleymanovun “Ermənistanın Azərbaycana təcavüzü və işğalın ağır nəticələri” kitabı nəşr edilib. Kitabda təcavüz nəticəsində Azərbaycana vurulmuş maddi və mənəvi zərər ilk dəfə olaraq kompleks araşdırıldı, ölkəmizə dəyən zərərin 431 milyard dollar olduğu müəyyənləşdirildi. Kitab Vaşinqtonda ingilis, Parisdə fransız, Kiyevdə Ukrayna, Sankt-Peterburqda rus dilində, Bakıda isə Azərbaycan, həm də ərəb dilində çap olundu.

2012-2016-cı illərdə İtaliya, Belçika, Andorra, İspaniya, Finlandiya, Sloveniya və Polşa parlamentlərində Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın mövqeyini dəstəkləyən konfrans və dinləmələr AVCİYA prezidentinin təşkilatçılığı ilə keçirildi.

2016-cı ildə AVCİYA Ağ Evin “Biz Xalqıq” platformasında “Ədalətin Bərqərar Olunması və Böyük Fəlakətin Qarşısının Alınması naminə” petisiyası ilə ABŞ Prezidenti Administrasiyasına müraciət etdi. Məqsəd həm Ermənistanın işğalçı siyasəti ilə bağlı bütün dünyanı məlumatlandırmaq, həm də torpaqlarımızın işğaldan azad edilməsi üçün ABŞ kimi nəhəng bir güc mərkəzinin dəstəyini almaq idi. Ağ ev Administrasiyasının internet resursunda Azərbaycan xalqının Obama Administrasiyasına müraciəti yerləşdirildi. Müraciətdə AŞPA-nın 2085 (2016) saylı qətnaməsində vurğulanan Azərbaycanın Dağlıq Qarabağ və digər ərazilərinin Ermənistan dövləti tərəfindən işğal edilməsi, Ermənistanın Azərbaycana qarşı qəsdən törətdiyi ekoloji böhranın ekoloji təcavüz olması faktı, Ermənistan silahlı qüvvələrinin işğal bölgəsindən dərhal geri çəkilməsi tələbi, Azərbaycanın işğal edilmiş ərazilərində yerləşən Sərsəng su anbarının hazırkı durumunun humanitar fəlakətlə nəticələnə biləcəyi xəbərdarlığı diqqətə çatdırılır, Administrasiyaya AŞPA-nın 2085 (2016) saylı qətnaməsini dəstəkləməsi, Azərbaycanın Ermənistan tərəfindən işğal edilmiş torpaqlarının azad edilməsinə və bölgədə humanitar fəlakətin qarşısının alınmasına yardım edilməsi üçün çağırış edilirdi. Platformanın qaydalarına görə, 1 ay ərzində müraciəti 100 min nəfərin imzalaması lazım idi. Kampaniyaya Türkiyə Cümhuriyyətinin vətəndaşları da böyük dəstək göstərdilər. AVCİYA-nın apardığı genişmiqyaslı kampaniyanın nəticəsi olaraq 331,914 imza toplandı.

“Ədalətin Bərqərar Olunması və Böyük Fəlakətin Qarşısının Alınması naminə” petisiyası 2011-ci ildə Barak Obama tərəfindən yaradılmış Ağ evə müraciət platforması tarixində ikinci ən məşhur petisiyadır.

Sadalananlar AVCİYA-nın Qarabağla bağlı gerçəkləşdirdiyi layihələrin yalnız bir qismidir...

1905.az
kitabı

